# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 206 (8522) CÜMƏ AXŞAMI, 8 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## İLHAM ƏLİYEV Azərbaycan tarixinin ən şərəfli səhifəsini yazır



## Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində operativ müşavirə keçirilib



**Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində olub.**

AZƏRTAC xəbər verir ki, Müdafiə naziri Zakir Həsənov Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində Müdafiə Nazirliyinin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə operativ müşavirə keçirildi.



## Baş Sərkərdənin hərbi zəfərləri məmləkəti, milləti, vətəndaşı daha da böyüdür

**Ali Baş Komandan İlham Əliyev Azərbaycanı on gündür ki, ağladır...**
**Gözümüzün yaşı sel-su olub gedib...**
**Amma bu, illərdən bəri tamarzı qaldığımız göz yaşlarıdır, sevinc göz yaşlarıdır, qələbə göz yaşlarıdır!...**
**Göz yaşlarının ən dəhşətlisi insanın içinə axanıdır. Biz də az qala otuz ildir hər gün gözlərimizdən damcılayıb içimizdə silələnən damlalarda qərq olub gedirikmiş, xəbərimiz yoxmuş. Daxilindəki belə sahilsiz kədər ümmanından qurtulmağa insanın nə boyda ehtiyacı olarmış, İlahi!**
**Günlərdir, gözlərimizdə muncuqlanan, gülən gözlərimizdə gül açan göz yaşları da bu kədərdən qurtuluşumuzdur…**
**Elə bizə bəxş etdiyi bu qürur göz yaşlarına görə də Baş Sərkərdəmizə ölənədək borcluyuq, əbədi minnətdarıq...**

Adətən, Azərbaycan kişisi ağladığını kimsə görsün istəməz. Dərdindən, öfkəsindən, çarəsizliyindən hönkürəndə də əlləri ilə üzünü qapayar, onu belə bir halətdə görənlərin çoxu isə həmin insanı bu dərdin, öfkənin, çarəsizliyin əlindən almaq acizliyindən utanıb gözlərini yerə dikər: əllərini gözlərindən çəkəndə heç olmasa ətrafdakıların nəzərlərindən daha pərişan olmasın, dost-düşmən yanında özünü zəif görməsin deyə...

İndi isə heç kim göz yaşlarını göstərməkdən utanmır, heç kim bir-birinin dolmuş gözlərinə baxmaqdan sıxıntı keçirmir. Çünki bu, zəfərin ən gözəl nişanəsidir, sevincin, qürurun, fərəhin, gələcəyə inamın qəlbin ən dərinliklərindən gələn sorağıdır və indi insanlarımızın bu hissi paylaşmaqdan böyük ehtiyacları yoxdur...

*Ardı 9-cu səh.*

## Azərbaycan Respublikasının Tərtər rayonunun Madagiz kəndinin Suqovuşan kəndi adlandırılması haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 3-cü bəndinə əsasən **qərara alır:**

Azərbaycan Respublikasının Tərtər rayonunun Çaylı kənd inzibati ərazi dairəsi tərkibindəki Madagiz kəndi Suqovuşan kəndi adlandırılsın.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 6 oktyabr 2020-ci il*

## İlham Əliyev Vladimir Putini təbrik edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.**

Dövlətimizin başçısı Rusiya Prezidentini ad günü münasibətilə təbrik edib, Rusiyanın inkişafı və firavanlığı naminə dövlətçilik fəaliyyətində ona yeni uğurlar, möhkəm cansağlığı arzulayıb.

Vladimir Putin göstərilən diqqətə və təbrikə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı dövlət başçıları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar yaranmış vəziyyəti müzakirə ediblər.

Prezident İlham Əliyev və Prezident Vladimir Putin Azərbaycan-Rusiya əlaqələrinin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

## Azərbaycanın mövqeyi beynəlxalq hüququn norma və prinsiplərinə, tarixi ədalətə əsaslanır

**Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyev oktyabrın 6-da Rusiyanın "Pervıy Kanal" televiziyasına müsahibə verib. Dövlətimizin başçısının müsahibəsi "Pervıy Kanal" televiziyasında yayımlanıb. AZƏRTAC müsahibəni təqdim edir.**



- Mənim adım Yevgenidir, "Pervıy kanal"ın müxbiriyəm. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:**

- Çox yaxşı. Sağ olun.

**- İlham Heydər oğlu, Siz dəfələrlə bəyan etmisiniz ki, budəfəki hücum əməliyyatının məqsədi Qarabağı geri qaytarmaqdır. "Qarabağ bizim torpağımızdır və biz oraya qayıdacağıq", - bu, Sizin sözlərinizdir. Bu, tamamilə birmənalı mövqedir. Lakin qarşı tərəfin mövqeyi də bundan az birmənalı deyil - "Bir qarış belə torpağı verməyəcəyik". Beləliklə, qeyri-müəyyənliyə gedən yol alınır. Sizin fikrinizcə, Azərbaycan və Ermənistanın danışıqlar masası arxasında əyləşməsi üçün nə baş verməlidir?**

*Ardı 2-ci səh.*

## Azərbaycan Prezidenti Ermənistan rəhbərliyinə bir daha xəbərdarlıq etdi:

### "İşğal edilmiş torpaqlardan nə qədər tez çıxsanız, sizin üçün o qədər də yaxşı olacaq"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də "CNN-Türk" televiziyasına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**

**- Cənab Prezident İlham Əliyev, "CNN-Türk"ə xoş gəldiniz. Azərbaycanın tarixi günlər yaşadığı bir zamanda bu müsahibəni verdiyiniz üçün təşəkkür edirik. Mən vaxt itirmədən dərhal suallarıma keçirəm. Əvvəlcə əməliyyatlarda son vəziyyət necədir, planlaşdırıldığı kimi irəliləyirmi? İşğal altındakı nə qədər torpaq azad olundu?**

*Ardı 2-ci səh.*

## "Bizim əsas məqsədimiz Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsidir"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də "Euronews" televiziyasına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**

**- İndi Azərbaycan Prezidenti İlham Əliyev bizimlə bağlantıdadır. Vaxt ayırdığınıza görə təşəkkür edirəm. Atəşkəsin əldə olunması və gərginliyin deeskalasiyası ilə bağlı beynəlxalq ictimaiyyətin güclü və davamlı təzyiqi var. Döyüşlər davam edir, hətta daha da gərginləşir. İndi Sizin münaqişədə məqsədiniz nədən ibarətdir?**

- Atəşkəs birtərəfli qaydada əldə oluna bilməz. Bu, ikitərəfli qərar olmalıdır və həm də yerində həyata keçirilməlidir. Bildiyiniz kimi, sentyabrın 27-də Ermənistan bizə hücum etdi, bizim hərbi mövqelərimizə hücum etdi, infrastruktura ziyan vurdu, mülki şəxslərə hücum etdi. İndiyədək demək olar ki, 30 mülki şəxsimiz Ermənistanın hücumu, o cümlədən ballistik mərmi və kasetli bombalarla törədilmiş hücum nəticəsində həlak olub.

Bizim əks-hücumumuz uğurlu oldu. Biz işğal olunmuş ərazilərimizin bir hissəsini azad etməyə müvəffəq olduq. Bizim əsas məqsədimiz Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsidir. Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən çıxarılması ilə bağlı bizə vaxt cədvəli verməlidir və bu cədvəl vasitəçi ölkələr olan Minsk qrupunun həmsədrləri tərəfindən təsdiqlənməlidir. Düşünürəm ki, bundan sonra atəşkəsin əldə olunmasına cəhd göstərilməlidir.

**-Sizin qeyd etdiyiniz ölkələr dəfələrlə atəşkəsə çağırış ediblər. Niyə bu, baş vermir? Niyə Siz bunun dərhal baş verməsi üçün çalışmırsınız?**

*Ardı 4-cü səh.*

**Düşmənin ümumilikdə 250-dək tank və digər zirehli texnikası; 270-dən artıq artilleriya, yaylım atəşli raket sistemləri, minaatan; 60-dək hava hücumundan müdafiə vasitələri; 11 komanda-idarəetmə və komanda-müşahidə məntəqələri; 8 silah-sursat anbarı; 150-dək avtomobil texnikası; 1 "S-300" zenit-raket kompleksi məhv edilib**

İlham Əliyev beynəlxalq informasiya məkanında erməni faşizmini ifşa edir

# Azərbaycanın mövqeyi beynəlxalq hüququn norma və prinsiplərinə, tarixi ədalətə əsaslanır

*Əvvəli 1-ci səh.*

- İlk növbədə, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə - erməni işğalçı qüvvələri Azərbaycanın ərazilərini ələ keçirdikləri dövrdə qəbul edilmiş 4 qətnaməsi yerinə yetirilməlidir. Bu qətnamələrdə təcavüzkara çox dəqiq siqnal göndərilir. Orada yazılıb ki, işğal olunmuş ərazilərin dərhal, qeyd-şərtsiz və tamamilə qaytarılması təmin edilməlidir. O vaxtdan 27 il keçib. Erməni tərəfi həmin qətnamələri yerinə yetirmir, onlara məhəl qoymur və hər vasitə ilə münaqişəni mümkün qədər çox, mümkün qədər uzun müddətə dondurmağa çalışır. Status-kvonun qəbuledilməz və dəyişdirilməli olması barədə beynəlxalq ictimaiyyətin, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrin bütün çağırışları havada qalır. Buna görə ermənilərin mövqeyi tarixi yalana, beynəlxalq hüququn norma və prinsiplərinin pozulmasına əsaslandığı halda, bizim mövqeyimiz beynəlxalq hüququn norma və prinsiplərinə, tarixi ədalətə əsaslanır. Əminəm ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri Ermənistan tərəfindən yerinə yetirilən, Ermənistan öz qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasına razılıq verən kimi hər iki tərəf qısa müddətdə razılığa gələ bilər. Bu razılıq Qafqazda sülhü bərqərar edər.

**- Bir həftədən çoxdur döyüşlər gedir və istər bir tərəfin, istərsə də digər tərəfin yaydığı videolardan aydın görünür ki, döyüşlər intensiv, itkilər çox ağırdır. Siz Azərbaycan tərəfindən həmin rəqəmləri göstərə bilərsinizmi?**

- Ermənistan tərəfindən və Dağlıq Qarabağ tərəfindən artilleriya atəşləri nəticəsində bu gün səhərə olan məlumata görə, bizim tərəfdən 27 dinc sakin həlak olub, 170-dən çox dinc sakin müxtəlif dərəcəli xəsarətlər alıb, 800-dən çox ev dağıdılıb. Qarşıdurmanın budəfəki eskalasiyası sentyabrın 27-də başlanıb. O vaxt Azərbaycanın işğal edilmiş ərazilərindən bizim yaşayış məntəqələrinə, habelə döyüş mövqelərimizə artilleriya atəşləri başlanıb, nəticədə bu hücumun elə ilk dəqiqələrində dinc sakinlər və hərbi qulluqçular həlak olub. Biz adekvat tədbirlər görməyə məcbur olduq, operativ surətdə əks-hücuma keçdik. Bu əks-hücum nəticəsində düşmənin çox sayda atəş nöqtələrini, döyüş mövqelərini susdurduq, şimal və cənub istiqamətlərində işğal altında olan ərazilərin bir hissəsini azad etdik, bununla da Azərbaycanın bir sıra yaşayış məntəqələri, oradakı vətəndaşlar bu gün artıq normal şəraitdə yaşaya bilərlər, çünki ermənilərin artilleriya atəşləri artıq oraya çatmır. Lakin son günlərdə Azərbaycan ərazilərinə artilleriya atəşləri Ermənistan tərəfindən uzaqvuran artilleriya vasitəsilə aparılır, "Toçka U" və "Elbrus" kimi ölümsaçan sistemlərdən istifadə edilir, bu, Cenevrə konvensiyalarının çox kobud şəkildə pozulmasıdır, cinayətdir, müharibə cinayətidir. Bu gün səhərdən münaqişə zonasının bilavasitə yaxınlığında yerləşən Tərtər şəhərinin atəşə tutulması yenidən davam edir. Əhalisinin sayına görə Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin əhalisi də atəşə tutulub. Mingəçevirdə bizim ən böyük elektrik stansiyasının ərazisinə bir raket düşüb, 10-dan çox şəhərimiz, yüzlərlə kəndimiz şiddətli artilleriya bombardmanına məruz qalır. Bu, erməni tərəfin köhnə taktikasıdır. Onlar hər dəfə döyüş meydanında məğlubiyyətə uğrayanda dinc əhaliyə ziyan vurmağa və beləliklə, Azərbaycan Ordusunun əks-hücumunu dayandırmağa çalışaraq belə alçaq hərəkətlərə əl atırlar. Lakin onlar bu əks-hücumu dayandıra bilmirlər və bilməyəcəklər.

**- Hərbi itkilər barədə danışmaq olarmı?**



- Hərbi itkilər. Bu gün bununla bağlı informasiya məxfidir. Azərbaycan ictimaiyyətinə bu barədə döyüş əməliyyatlarının fəal fazası başa çatandan sonra məlumat veriləcək.

**- Siz Türkiyəni Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında iştirak etməyə çağırırsınız. Sizin fikrinizcə, bu iştirak hərbi, yoxsa siyasi səylər mənasında məhz nədən ibarət olmalıdır?**

- Mən bu barədə dünən bəyan edərkən onu nəzərdə tutmuşam ki, Ermənistanın təcavüzkar hərəkətləri davam edir, Ermənistan hər vasitə ilə çalışır ki, bu münaqişəyə mümkün qədər çox ölkə cəlb edilsin. Mən müsahibələrimin birində belə siyasətin yolverilməz olduğunu demişəm. Münaqişə Ermənistanın və Azərbaycanın hüdudlarından kənara çıxmamalıdır. Əslində, münaqişə hətta Ermənistan ərazisinə də çıxmır. Odur ki, Ermənistan ərazisindən artilleriya atəşlərinə baxmayaraq, biz Ermənistan ərazisinə heç bir zərbə endirmirik, Ermənistan ərazisinə keçmirik, hərçənd bunun üçün hər cür imkanımız var. Erməni tərəfi bu qarşıdurmaya KTMT-ni cəlb etməyə çalışır. Uğursuz cəhddir. O, Avropa ölkələrini cəlb etməyə çalışır. Mahiyyət etibarilə bu münaqişəni beynəlmiləlləşdirməyə çalışır. Müvafiq surətdə biz belə yanaşmanın yolverilməz olması barədə öz mövqeyimizi bildiririk.

Türkiyənin cəlb edilməsi barədə mənim bəyanatıma gəldikdə isə mən, təbii ki, yalnız siyasi nizamlanmanı, münaqişədən sonrakı dövrdə nizamlamanı nəzərdə tutmuşam. İndiki anda Türkiyə bununla bağlı heç bir faktla təsdiqlənməmiş müxtəlif şayiələrə və insunasiyalara baxmayaraq, əsla münaqişəyə cəlb edilmiş tərəf deyil. Məsələn, guya Türkiyəyə məxsus F-16 təyyarəsinin Ermənistana məxsus Su-25 təyyarəsini vurması barədə xəbər həm Rusiya, həm də Avropa KİV-də yayılıb. Heç bir sübut yoxdur. Məlum olub ki, görünür, erməni pilot, sadəcə, peşəkar baxımdan o qədər də hazırlıqlı olmayıb və dağa çırpılıb. Bax, bu cür feyk xəbərlər yayılır. Bunun nə məqsədlə edildiyini bilmirəm. Güman edə bilərəm, lakin bu feyk xəbərlər üçün heç bir əsas yoxdur. Beləliklə, hərbi qarşıdurma fazası başa çatanda biz, təbii ki, danışıqlar masası arxasına qayıdacağıq. Yeri gəlmişkən, döyüş əməliyyatlarının lap əvvəlindən Azərbaycan deyirdi ki, biz danışıqlar prosesindən çıxmırıq, biz siyasi nizamlamaya ümid edirik, lakin bu, nizamlama olmalıdır. Biz daha 30 il gözləyə bilmərik ki, Ermənistana nə vaxt müvafiq təsir göstəriləcək. İndiki vasitəçilik missiyasının 28 il ərzində heç bir nəticəyə gətirib çıxarmaması, fəaliyyətsizliyə, mövcud vəziyyətə gətirib çıxarması nəzərə alınmaqla biz, əlbəttə, praqmatik yanaşmanı əsas götürməliyik - eskalasiyanın azalması, möhkəm sülhün bərqərar olması, əməkdaşlığın inkişafı üçün regionda baş verən hadisələrə kimin real müsbət təsir göstərə biləcəyini nəzərə almaqla, şübhəsiz, fəal döyüş əməliyyatları başa çatandan sonra həyata keçiriləcək vasitəçilik missiyasında Türkiyənin böyük ölkə kimi, bizim qonşumuz, Cənubi Qafqazda qonşumuz kimi iştirak etməyə tamamilə haqqı var. Əlbəttə, hesab edirəm ki, bunlar, ilk növbədə, Türkiyə və Rusiyadır.

**- Siz Avropa ölkələri barədə danışdınız. Fransa prezidentinə çox sərt cavab verdiniz. Onu guya Azərbaycan Ordusu tərəfindən vuruşan muzdlular barədə dediyi sözlərə görə üzr istəməyə çağırdınız. Bu gün Siz bir daha təsdiq edə bilərsinizmi ki, Dağlıq Qarabağ münaqişəsində muzdlular Azərbaycan tərəfində iştirak etmirlər?**

- Mən bütün bu günlər ərzində bu barədə deyirəm. Belə informasiya tullantılarına görə heyrətlənirəm və Fransa prezidenti ilə telefon söhbətlərimdə mən bizim mövqeyimizi kifayət qədər əsaslandırılmış şəkildə müdafiə etmişəm. Əvvələn, sübutlar təqdim etməsini, əgər belə sübutlar yoxdursa, onda Azərbaycan xalqından üzr istəməsini xahiş etmişəm. İkincisi, mən demişəm ki, bizim muzdlulara ehtiyacımız yoxdur. Bu gün Azərbaycan Ordusu güclü ordudur. Bütün beynəlxalq reytinqlərə görə o, dünyanın ən güclü 50 ordusunun siyahısına daxildir. Ehtiyatda olanları, döyüşə hazır olan digər hərbiləşdirilmiş dəstələri nəzərə almasaq, bizim nizami orduda 100 min döyüşçümüz var. Bu gün Azərbaycan Ordusu bizim əraziləri azad edir. Döyüş əməliyyatları yerindən çəkilmiş videolarda bizim artilleriyanın, pilotsuz uçuş aparatlarının necə işləməsi, azərbaycanlı əsgər və zabitlərin işğaldan azad edilmiş torpaqlarda bayraqlarımızı necə ucaltmaları görünür. Buna görə də bu ittihamlar əsassızdır, biz onları qətiyyətlə rədd edirik və bu cür şayiələrin, yoxlanılmamış məlumatların ictimai rəylə necəsə manipulyasiya etməsinə yol verə bilmərik. Qoy, sübutlar təqdim etsinlər. Bu gün fəal döyüş əməliyyatlarının onuncu günüdür, bizə heç bir sübut təqdim edilməyib.

**-Döyüş əməliyyatlarının başa çatdığını və Azərbaycanın öz qarşısına qoyduğu məqsədlərə nail olduğunu fərz etsək, Qarabağda yaşayan ermənilərin sayını nəzərə almaqla onları hansı gələcək gözləyir? Onların aqibəti necə olacaq?**

-Bu mövzuda əvvəl də, eskalasiyaya qədər də, eskalasiya dövründə də dəfələrlə danışmışam. Elə dünən Türkiyə telekanalına müsahibədə demişəm ki, biz Qarabağ ərazisində yaşayan ermənilərə öz vətəndaşlarımız kimi baxırıq. Hesab edirik ki, münaqişə nizamlanandan, işğala son qoyulandan sonra Dağlıq Qarabağın erməni və azərbaycanlı əhalisi uzun illər boyu olduğu kimi birlikdə yaşamalıdır. 1980-ci illərin sonunda münaqişə başlayanda Dağlıq Qarabağ ərazisində əhalinin 75 faizi erməni, 25 faizi isə azərbaycanlı idi. Onların cinayətkar rejiminin başçısının qondarma "inauqurasiyası"nı keçirdikləri və Azərbaycan xalqını təhqir etdikləri Şuşa şəhərinin əhalisinin 98 faizi azərbaycanlılar idi. Şuşa şəhərinin əsası azərbaycanlı Pənahəli xan tərəfindən qoyulub. Bu qədim Azərbaycan şəhərindən bütün azərbaycanlılar qovulub. Odur ki, münaqişə başa çatandan və dinc yolla nizamlamadan sonra, yeri gəlmişkən, bu məqam Madrid Prinsipləri adlanan baza prinsiplərində əks etdirilib, - azərbaycanlı əhali işğal olunmuş ərazilərə qayıtmalıdır. Orada dəqiq yazılıb ki, köçürülmüş bütün şəxslərin öz yaşayış yerlərinə qayıtmaq hüququ var. Beləliklə, sülh sazişi əldə ediləndən sonra, - bunun baş verəcəyinə ümid edirəm, - azərbaycanlılar Dağlıq Qarabağa qayıdacaq və orada əvvəl yaşadıqları kimi yaşayacaqlar. Mənim mövqeyim həmişə belə olub ki, biz 1980-ci illərin sonunda münaqişə başlayana qədər mövcud olmuş ab-havanı qaytarmalıyıq. Düşünürəm ki, bu, mümkündür. Erməni cəlladların Xocalıda törətdiklərindən, dinc əhalini məhv etmələrindən, bizim tarixi, dini abidələri dağıtmalarından, bu ərazilərdə azərbaycanlıların tarixi irsini yerlə-yeksan edəndən sonra bu, asan olmayacaq. Lakin hesab edirəm ki, biz buna çalışmalıyıq. Döyüş əməliyyatları günlərində mənim Ermənistan xalqına və hazırda Dağlıq Qarabağda yaşayanlara müraciətim dəfələrlə səslənib. Mən erməni xalqını öz hökumətinin başına ağıl qoymağa, erməni anaları öz uşaqlarını işğal edilmiş ərazilərə göndərməməyə çağırmışam. Ona görə ki, yəqin indi heç kəs üçün gizli deyil, qondarma "Dağlıq Qarabağ ordusu" yoxdur. "Dağlıq Qarabağ ordusu" deyilən ordunun 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Mən bu cür çağırışlar etmişəm. Erməni tərəfindən bu günlərdə nifrətdən, təcavüzdən, hədə-qorxulardan və tamamilə qeyri-adekvat hərəkətlərdən başqa çağırışlar eşitməmişəm. Bizim mövqeyimiz belədir, biz münaqişənin dinc yolla nizamlanmasının tərəfdarıyıq. İnanıram ki, Ermənistan tərəfinin siyasi iradəsi olarsa, biz buna nail ola bilərik.

**- İlham Heydər oğlu, bütün müharibələr, hər bir müharibə gec-tez sülhlə başa çatır. Siz həmin anı necə təsəvvür edirsiniz?**

- Bilirsiniz, bu barədə danışmaq çətindir, ona görə ki, bizim xalqımız o qədər müsibətlər görüb, erməni işğalçılar bu xalqa o qədər əzab-əziyyət verib ki, indi həmin məqamı bir mənzərə şəklində təsəvvür etmək çox çətindir. 30 ildən çoxdur ki, bizdə sülh yoxdur. Son iyirmi ildən artıq müddətdə malik olduğumuz vəziyyət atəşkəs olub. Lakin hamı başa düşürdü ki, bu atəşkəs davamlı deyil, möhkəm deyil. Buna görə Rusiya, ABŞ və Fransa prezidentlərinin şəxsində Minsk qrupunun həmsədrləri bir neçə il bundan əvvəl bəyanatlarla çıxış ediblər, status-kvonun qəbuledilməzliyi, onun dəyişdirilməli olması barədə bir neçə bəyanat qəbul edilib. Onlar çox gözəl başa düşürdülər və başa düşürlər ki, bu atəşkəs çox amanabənddir, davamlı deyil. Bugünkü eskalasiya bunu bir daha təsdiq edir. Buna görə də sülh barədə danışmalı olsaq mən, ilk növbədə, onu genişəhatəli, uzunmüddətli, dünyanın aparıcı ölkələri tərəfindən, həm Azərbaycan, həm də Ermənistan üçün məqbul olan ciddi zəmanətlər şərti ilə əbədi nizamlama kimi görürəm. Bu ölkələrin tərkibinin Minsk qrupunun və onun həmsədrlərinin bugünkü tərkibindən fərqli ola biləcəyini istisna etmirəm. Ona görə ki, Minsk qrupu 1992-ci ildə tamamilə başqa geosiyasi reallıq şəraitində yaradılmışdı. O dövrdə SSRİ yenicə dağılmışdı və səmimi desəm, bu qrupun hansı əsasla yaradılmasını o qədər də başa düşmürəm. Ona görə ki, bu və ya digər birliyin, yaxud müvəqqəti formatın yaradılması müəyyən prinsipə əsaslanmalıdır. Buna görə, sizinlə əvvəl danışdığımız mövzuya qayıdaraq düşünürəm ki, region dövlətləri bu məsələdə fəal iştirak etməli, beynəlxalq təşkilatlar zəmanət verməli və əlbəttə, azərbaycanlılar hüquqa görə onlara məxsus olan torpaqlara qayıtmalıdırlar.

**- Daha bir dəqiqləşdirici sual. Sizin fikrinizcə, konfiqurasiya necə ola bilər?**

- Yəqin ki, bu barədə danışmaq hələ tezdir. Fikrimcə, bu barədə danışmaq hadisələri bir qədər qabaqlamaq deməkdir. Sadəcə istəyirəm ki, qonşularımız və tərəfdaşlarımız mənim mövqeyimi bilsinlər. Düşünürəm ki, regional əməkdaşlıq çox sahələrdə özünü kifayət qədər göstərib. Son illərə diqqət yetirsək görmək olar ki, Azərbaycan öz qonşuları ilə birlikdə əməkdaşlığın möhkəm regional formatının yaradılması üzərində çox fəal iş aparıb. Bu, siyasi, iqtisadi, nəqliyyat, energetika sahələrində və hər hansı başqa sahələrdə əməkdaşlığa aiddir. Uzun illərdən sonra, praktiki olaraq, müstəqillik dövrünün əvvəlindən başlayaraq beş Xəzəryanı ölkə arasında Xəzər dənizinin hüquqi statusunun nizamlanmasına dair Konvensiya imzalamaqla əldə etdiyimiz nailiyyətlərə baxmaq kifayətdir. Əvvəlcə həmin ölkələrin bəziləri ilə razılığa gələ bilmirdik, lakin sonra biz xoş məram göstərərək razılığa gəldik və bunun üstünlüklərini gördük. Bu gün böyük dövlət olan Rusiya ilə digər böyük dövlət, NATO-nun üzvü olan Türkiyə arasında əməkdaşlıq NATO ölkələri ilə Türkiyənin əməkdaşlığından qat-qat səmimi, möhkəm və səmərəlidir. Məsələn, NATO üzvü olan digər ölkə Türkiyəni daim nədəsə günahlandırır. Bunlar yeni geosiyasi reallıqlardır, 1992-ci ildə bunlar yox idi. Dünya dəyişib. Dünya gözümüzün qabağında dəyişir. Biz bunu əsas götürməliyik, filan ölkənin həll potensialına malik olması barədə hansısa ehkamları, fərziyyələri və ya sabitləşmiş fikirləri yox. Bu gün münaqişənin fəal fazaya keçdiyi və Ermənistanın baş nazirinin, - mən bunu görürəm, - öz telefon zəngləri ilə dünya liderlərini bezdirdiyi bir vaxtda kimin nizamlama potensialına malik olması aşkar görünür. Bax, nizamlama potensialına malik olan, ləyaqətinə, ədalətliliyinə, səmimiyyətinə görə Azərbaycanın hörmət etdiyi ölkələr uzunmüddətli sülhün qarantları olacaqlar.

**- Müsahibəyə və ətraflı cavablara görə çox sağ olun.**

- Sağ olun.

# Azərbaycan Prezidenti Ermənistan rəhbərliyinə bir daha xəbərdarlıq etdi: "İşğal edilmiş torpaqlardan nə qədər tez çıxsanız, sizin üçün o qədər də yaxşı olacaq"

*Əvvəli 1-ci səh.*

- Hər şey plan üzrə gedir. Bu gün Azərbaycan Ordusu öz ərazi bütövlüyünü bərpa edir. Əməliyyat uğurla davam edir. Artıq bir şəhər və bir çox kəndlər işğaldan azad edilib. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq.

Biz bunu dəfələrlə demişik: Qarabağ bizim tarixi, əzəli torpağımızdır! Təəssüf ki, uzun müddət ərzində aparılan müzakirələr bir nəticəyə gətirib çıxarmadı. Belə olan halda, əlbəttə ki, Azərbaycan təkbaşına öz ərazi bütövlüyünü bərpa etməli idi və bunu edir.

Bildiyiniz kimi, erməni silahlı qüvvələri keçən ayın 27-də bizə qarşı yeni hücuma keçdilər və bizim bir çox şəhərlərimiz, kəndlərimiz atəş altındadır. Bu günədək bizim mülki şəxslər arasında 30-a yaxın itkilərimiz, şəhidlərimiz var. Ermənistan silahlı qüvvələri bizim şəhərlərimizi, kəndlərimizi atəşə tutur və minə yaxın ev ya dağıdılıb, ya da ki, böyük ziyan görüb. Lakin hər şey plan üzrə gedir və ümid edirəm ki, qarşıda duran vəzifələr icra olunacaqdır.

**- Yenə də əməliyyat zonasındakı proseslərə qayıtmaq istəyirəm, cənab Əliyev. Bildiyimiz kimi, Ermənistan ordusu münaqişə xəttinin kənarındakı Azərbaycan şəhərlərini ballistik raketlərlə hədəfə almağa başlayıb. Xüsusilə Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədəki yaşayış məntəqələrini, Mingəçevirdəki elektrik stansiyasını ballistik raketlərlə hədəfə aldı. Sizcə, bunun məqsədi nə idi?**

- Məncə, Ermənistan ordusunun acizliyi və Ermənistanın hərbi-siyasi rəhbərlərinin cinayəti. Çünki mülki şəxslərə zorakılıq göstərmək, onlara qarşı atəş açmaq, ballistik raketlərlə mülki şəhərləri dağıtmaq müharibə cinayəti sayılır. Bu, onu göstərir ki, Ermənistan döyüş meydanında bizim qarşımızda dura bilmir. Döyüşü uduzur və bizi dayandırmaq, eyni zamanda mülki əhaliyə qarşı maksimum dərəcədə cinayət törətmək üçün belə çirkin əməllərə əl atır. Siz də qeyd etdiyiniz kimi, Gəncə, Mingəçevir döyüş bölgəsindən uzaqda yerləşən şəhərlərdir. Eyni zamanda döyüş bölgəsinə yaxın olan şəhərlərimiz hər gün atəşə tutulur. Ən yaxın bölgə Tərtər bölgəsidir və Tərtər şəhərinə gündə mindən iki minə qədər mərmi düşür və bunun əsas məqsədi mülki şəxslərə qarşı törədilən zorakılıqdır. Bu, bir daha Ermənistanın faşist mahiyyətini göstərir, rejimin faşist mahiyyətini göstərir. Ancaq bu, Azərbaycan xalqını qorxutmur, bunun heç bir təsiri yoxdur. O bölgələrdə, o şəhər və kəndlərdə yaşayan soydaşlarımız orada möhkəm dayanıblar. Onların bir sözü var ki, Vətən sağ olsun, torpaqlar tezliklə işğaldan azad edilsin. Onlar sona qədər o yerlərdə qalacaq və ordumuza mənəvi dəstək verəcəklər.

**- Ermənistanın mülki yaşayış məntəqələrini atəşə tutmağa davam edəcəyi təqdirdə hazırkı mövqeyinizdə bir dəyişiklik olacaqmı?**

- Xeyr, bizim mövqeyimizdə heç bir dəyişiklik olmamalıdır. Bizim mübarizəmiz erməni xalqı ilə deyil. Mən bunu artıq bir neçə dəfə açıqlamışam. Bizim mübarizəmiz haqq mübarizəsidir. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik, bunu edirik və bu işlərdə, bu istiqamətdə uğurlar əldə etmişik. Azərbaycan heç vaxt mülki əhaliyə, yəni mülki şəxslərə qarşı müharibə etməyib. Mən artıq bu günlərdə də demişəm, bizim erməni xalqı ilə heç bir işimiz yoxdur. Azərbaycanda minlərlə erməni yaşayır və onlar bizim vətəndaşlarımızdır. O cümlədən bu gün Dağlıq Qarabağda yaşayan ermənilər də bizim vətəndaşlarımızdır. Bizim bütün hədəflərimiz hərbi hədəflərdir. Hərbi hədəfləri məhv etmək üçün bizim tam hüququmuz var. Çünki bu hərbi obyektlər bizim ordumuza, şəhərlərimizə böyük ziyan vurub. Ona görə bizim borcumuzdur ki, onları məhv edib əhalimizin təhlükəsiz həyatını təmin edək.

**- Ermənistanın ballistik raketlərlə mülki yaşayış məntəqələrini atəşə tutması, əslində, müharibə cinayəti, Cenevrə Konvensiyasına zidd bir hərəkətdir. Bu baxımdan müharibə cinayətlərinə dair BMT qarşısında bir təşəbbüs irəli sürməyi düşünürsünüzmü? Hadisə yerlərində bu cinayətlərin törədilməsinə dair sübutlar toplayırsınızmı?**

- Təbii ki, toplayırıq. Onların bütün hərbi cinayətləri artıq qeydə alınır. Amma təəssüf ki, beynəlxalq ictimaiyyət bundan əvvəlki dövrdə Azərbaycana və xalqımıza qarşı edilən müharibə cinayətlərinə səssiz qalmışdır. Xocalı qətliamı dünyanın gözü önündə baş vermiş soyqırımıdır. Amma Ermənistanın ovaxtkı hərbi-siyasi rəhbərliyi buna görə məsuliyyətə cəlb edilmədi.

*Ardı 3-cü səh.*

## İlham Əliyev beynəlxalq informasiya məkanında erməni faşizmini ifşa edir

# Azərbaycan Prezidenti Ermənistan rəhbərliyinə bir daha xəbərdarlıq etdi: *“İşğal edilmiş torpaqlardan nə qədər tez çıxsanız, sizin üçün o qədər də yaxşı olacaq”*

*Əvvəli 2-ci səh.*

Bizim şəhərlərimizin, kəndlərimizin dağıdılması, bir milyondan çox məcburi köçkünün yaranması - bütün bunlara görə beynəlxalq ictimaiyyət hər hansı bir hərəkətə keçmədi. Ona görə də bu məsələ uzun illərdir öz həllini tapmır. Çünki işğalçı ilə işğala məruz qalan arasında heç bir fərq qoyulmur. Bu gün də erməni silahlı qüvvələrinin bizim şəhərlərimizi və kəndlərimizi atəşə tutması, özü də ballistik raketlərlə atəşə tutması müharibə cinayətidir. Buna görə, əlbəttə ki, Ermənistan rəhbərliyi məsuliyyət daşımalıdır və daşıyacaqdır.

**- Bu günə qədər Sizə bir neçə dəfə atəşkəs çağırışı edildi. Siz bunlara şəxsən cavab verdiniz. Amma münaqişənin 30 illik tarixinə nəzər salarkən bu çağırışların nəticə verəcəyini düşünürsünüzmü?**

- Hesab edirəm ki, bu çağırışlar, sadəcə, atəşkəs çağırışları olmamalıdır. Biz dəfələrlə demişik ki, işğalçı dövlətə, Ermənistana sanksiyalar tətbiq edilməli idi. Əgər vaxtında sanksiyalar tətbiq edilsəydi, bəlkə də bu məsələ çoxdan həll olunardı. Ermənistana qarşı çox ciddi təzyiq göstərilməliydi, sözdə deyil, əməldə. Amma təəssüf ki, bu olmadı. Ona görə bu proses 30 il çəkdi. Otuz il heç bir nəticə verməyən danışıqlar artıq mənasını itirməkdədir. Bundan əlavə, son dönəmdə Ermənistanın hərbi-siyasi rəhbərliyi həm təcavüzkar hərəkətlərlə, eyni zamanda aqressiv bəyanatlarla danışıqlar prosesini məhv etdi. Yəni ona çox böyük zərbə vurdu. “Qarabağ Ermənistandır” - demək, əslində, müzakirələrə son qoymaq deməkdir. Çünki müzakirələrin əsas mahiyyəti ondan ibarətdir ki, işğal edilmiş torpaqlar tədricən, mərhələli qaydada Azərbaycana qaytarılmalıdır. Bu, əsas prinsiplərdə təsbit olunub. “Qarabağ Ermənistandır” - demək faktiki olaraq bu prosesə son qoyur. Buna oxşar digər açıqlamalar olubdur. Sonra iyul ayında Ermənistan Azərbaycana dövlət sərhədi istiqamətində hücum etdi, bir çox hərbçi və bir mülki şəxs həlak oldu. Ona görə atəşkəsin bərpası şərtlərlə təmin edilməlidir. İlk növbədə, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan çıxış təqvimi, yəni çıxış cədvəli bizə təqdim edilməlidir. Bu məsələ ilə bağlı biz Minsk qrupuna artıq öz mövqeyimizi çatdırmışıq. Ümid edirəm ki, bizim bu çağırışlar, bu təkliflər cavabsız qalmayacaq.

**- Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Minsk qrupundan söz düşmüşkən, düşünürəm Fransanı da ayrıca qeyd etmək lazımdır. Fransanın bu məsələdəki mövqeyi ilə bağlı nə deyə bilərsiniz?**

- Mən artıq bu məsələ ilə bağlı bir neçə dəfə açıqlamalar verdim. Biz hər zaman Minsk qrupunu bir qrup kimi qəbul edirdik və bu gün də belədir. Hesab edirdik ki, bu qrupa həmsədrlik edən ölkələr bitərəf qalmalıdır, heç bir tərəfi dəstəkləməməlidir. Çünki əks təqdirdə onların vasitəçilik missiyası sual altına düşür. Son hadisələrə qədər onlar neytrallığı az-çox saxlamağa müvəffəq olmuşdular. Biz bilirik ki, bu ölkələrdə erməni lobbisi güclüdür. Erməni lobbiləri o ölkələrin hökumətlərinə də təsir edə bilər və edir. Bu gün biz görürük ki, müxtəlif ölkələrdə yaşayan ermənilər təşkilatlanmış qaydada Azərbaycana qarşı qara təbliğat kampaniyası aparırlar. Ancaq əfsuslar olsun ki, bu günlərdə bəzi ölkələr tərəfindən birtərəfli mövqe sərgiləndi, tərəftutma halları baş verdi. Bu da qəbuledilməzdir. Buna görə biz öz sözümüzü demişik. Əgər vasitəçilər vasitəçi kimi qalmaq və bu məsələ ilə bundan sonra məşğul olmaq istəyirlərsə, onlar daha məsuliyyətli olmalıdır və heç bir tərəf tutmamalıdırlar. Çalışmalıdırlar ki, bu məsələnin həllinə hesablanmış addımlar atsınlar və münaqişə tezliklə həll olunsun. Ondan sonra atəşkəs bərpa edilsin və uzunmüddətli sülh olsun.

**- Fransa prezidenti Emmanuel Makronun nə üçün üzr istəməsinin gərəkliyini söylədiniz?**

- Siz də bilirsiniz ki, bizə qarşı ittihamlar səsləndi. Rəsmi açıqlamalarda səsləndi ki, sanki Azərbaycanla Türkiyə birlikdə bölgəyə terror qruplarının nümayəndələrini gətirib. Halbuki bunun heç bir sübutu yoxdur. O açıqlamalardan artıq on gün keçir. Bu günə qədər bizə heç bir sübut verilməyib. Bu, bizə qarşı edilən haqsızlıqdır. Bu, yalan məlumat əsasında ifadə edilən açıqlamadır. Bu ya yoxlanılmamış, təsdiqini tapmamış məlumat əsasında deyildi, ya da ki, bu, qəsdən deyildi. Bunu mən deyə bilmərəm. Hər halda hər bir ölkə özünü müdafiə etməlidir. Bizə qarşı edilən haqsızlıq təbii ki, biz tərəfdən cavablandırılır. Biz buna səssiz qala bilmərik. Eyni zamanda, başqa bir açıqlama da olmuşdur ki, “Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir”. Bu da beynəlxalq qanunlara tamamilə zidd olan bir açıqlamadır. Çünki Dağlıq Qarabağ bizim torpağımızdır. Bir ölkə öz torpağını necə fəth edə bilər? Bu cür sözlər Minsk qrupunun mandatına tamamilə zidd olan açıqlamalardır. Biz, sadəcə olaraq, istəyirik ki, 30 ilə yaxın öz yurdlarından didərgin salınmış məcburi köçkünlərimiz öz evlərinə qayıtsınlar, Azərbaycanın ərazi bütövlüyü təmin edilsin. Azərbaycanın ərazi bütövlüyü başqa ölkələrin ərazi bütövlüyü qədər əhəmiyyətlidir.



**- Qara təbliğatdan söz düşmüşkən, Azərbaycan əks-hücumu başlayandan bəri Azərbaycana qarşı, xüsusilə sosial mediada qara təbliğat aparılır. Bununla bağlı nə deyə bilərsiniz? Əlinizdə buna dair nə kimi faktlar var?**

- Bilirsiniz, bizə qarşı qara təbliğat uzun illər ərzində aparılır. Bunun bir neçə səbəbi var. Onlardan biri də odur ki, Azərbaycan dünya miqyasında müstəqil siyasət aparır. Bizim siyasətimizin mərkəzində Azərbaycan xalqının maraqları dayanır. Biz başqa ölkələrin əlində alət olmamışıq, olmaq da istəmirik və olmayacağıq. Bugünkü Azərbaycanın inkişafı, bütün istiqamətlər üzrə əldə edilmiş inkişaf göstərir ki, Azərbaycan haqq yolundadır. Baxın, bizim beynəlxalq əlaqələrdə böyük uğurlarımız var. Bu gün Azərbaycan dünya miqyasında məsuliyyətli və etibarlı ölkə kimi tanınır. Biz hazırda Birləşmiş Millətlər Təşkilatından sonra ikinci böyük beynəlxalq təsisata, Qoşulmama Hərəkatına sədrlik edirik. Biz 120 ölkənin dəstəyi ilə buna nail ola bilmişik. Azərbaycan bu gün Avropa ilə Asiya arasında həm siyasi, həm coğrafi, həm də enerji körpüsüdür. Yəni bütün bu uğurları, o cümlədən müstəqil siyasət sayəsində əldə etmişik. Bu, bəzi ölkələrin xoşuna gəlmirdi, bəzi ölkələr Azərbaycana yuxarıdan aşağı baxmağa çalışırdılar. Ancaq bizim qətiyyətli mövqeyimiz buna imkan vermədi. Ona görə bizə olan təzyiqlərin səbəblərinin biri də məhz budur ki, müstəqil siyasət aparırıq, öz yolumuzla gedirik, heç kimin sözü ilə oturub-durmuruq, heç kimin qarşısında baş əymirik. Digər səbəblər də var. Bu, çox uzun bir söhbətdir, ayrı müsahibənin mövzusu ola bilər. Bu hadisələr baş verən kimi dərhal bizə qarşı müntəzəm olaraq qara təbliğat aparanlar, qeyri-hökumət təşkilatları və bəzi ölkələrin dairələri, media nümayəndələri hərəkətə keçdilər ki, Azərbaycanın imici ləkələnsin, bizə böhtan atılsın, bizim haqqımızda olmayan yalanlar uydurulsun və beləliklə, informasiya məkanında bu münaqişə ilə bağlı yanlış bir rəy, yanlış bir fikir yaradılsın.

Biz, əlbəttə ki, bizə ünvanlanan bu ittihamlarla təkbaşına mübarizə apararaq müəyyən uğurlar əldə etmişik. Ancaq bizim də imkanlarımız məhduddur. Bir çox hallarda bizim səsimiz eşidilmir. Bizə beynəlxalq platforma verilmir. Beynəlxalq media qurumları daha çox Ermənistanın tərəfini tuturlar və münaqişə ilə bağlı yalan məlumatlar yayırlar. Ona görə, fürsətdən istifadə edərək qardaş Türkiyənin media mənsublarına təşəkkürümü bildirmək istəyirəm ki, onlar bu günlərdə bütün dünyaya bu savaşla bağlı həqiqətləri çatdırır, canlı efirdə məlumatlar verirlər - dağıdılmış şəhərlər, düşən raketlər, Gəncə şəhəri, Mingəçevir şəhəri, Tərtər şəhəri. Yəni daha çox Türkiyə media qurumları tərəfindən verilən bu məlumatlar dünyada bu münaqişə ilə bağlı daha ədalətli fikrin yaranmasına xidmət göstərir.

**- Cənab Əliyev, əməliyyat başlanmazdan bir neçə gün əvvəl ABŞ-da - Nyu Yorkda BMT Baş Assambleyasında iştirak edən liderlərə çağırış etdiniz, dünyaya çağırış etdiniz. Həmin çıxışınızda bəzi terrorçu qrupların Ermənistana göndərildiyini açıqladınız və bu məsələyə diqqəti yönəltdiniz. Xüsusilə də bu məsələyə diqqət yetirilməsini vurğuladınız. Bu açıqlamanızdan üç gün sonra Ermənistan Azərbaycana hücuma başladı. İndi bu məsələ ilə bağlı Azərbaycanın əlində hansı kəşfiyyat məlumatları var?**

- Mən o çıxışımda eyni zamanda bildirmişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır. Bizdə olan məlumat onu göstərir və Ermənistan dayandırılmalıdır. O ki qaldı, Ermənistanda terror təşkilatlarının düşərgələrinin mövcudluğuna, bu məlumatlar bizdə əvvəldən də olub.

**- Bunlar hansı terror qruplarıdır?**

- İlk növbədə, PKK terror qruplarının düşərgələri Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş torpaqlarında mövcud idi. Bizdə olan yeni kəşfiyyat məlumatları, - bunların bir hissəsi artıq mətbuata da açıqlandı, - onların danışıqları, onların təmasları haqqında artıq sənədlər və audiomməlumat var. Bu, bizdə heç bir şübhə doğurmayan bir məsələ idi. Çünki Ermənistan terrorçu ölkədir. Birinci Qarabağ müharibəsi dönəmində bizə qarşı onlarca terror aktı törədilmişdir - metrolarda, avtobuslarda, gəmilərdə. Hesab edirəm ki, erməni terroru dünyada məşhur olan bir mənfur fakt kimi dünya tərəfindən qəbul edilməlidir. Fransa aeroportunda 1980-ci illərdə terror aktını törədən şəxs sonra Ermənistana verildi, daha sonra sərbəst buraxıldı və o, qəhrəman hesab olundu. Ona görə bu gün də müxtəlif ölkələrdən Ermənistana terrorçular axışır. Bizdə olan məlumata görə, bəzi Yaxın Şərq ölkələrindən, orada yaşayan ermənilər və digər qeyri-millətlərdən olan insanlar Ermənistana axışır ki, Azərbaycana qarşı bu haqsız müharibəyə qoşulsunlar.

**- ATƏT-in Minsk qrupu mövzusuna təkrar qayıtmaq istəyirəm. Onun həmsədrlərindən biri də Rusiyadır. Rusiyadan bölgədə hansı gözləntiləriniz var?**

- Rusiya da ATƏT-in Minsk qrupunun həmsədri kimi təbii ki, vasitəçilik missiyasını icra edir. Bu məsələ ilə bağlı bizdə hər hansı problem yoxdur. Eyni zamanda bu üç həmsədr arasında Rusiya tək ölkədir ki, bizimlə qonşudur. Təbii ki, Rusiya ilə bizim uzun tarixi münasibətlərimiz var. İndiki dönəmdə Rusiya həm Ermənistanla, həm də Azərbaycanla əlaqələrini inkişaf etdirir. Bu, çox önəmli faktdır. Ona görə nə ikitərəfli formatda, nə də ki, Minsk qrupu çərçivəsində hər hansı bir problem yoxdur. Bu hadisələr dönəmində də Rusiyanın mövqeyi məsuliyyətli mövqedir.

**- Cənab Prezident, İran bu məsələdə hansı mövqedədir?**

- İran rəsmiləri Azərbaycanın haqq işini dəstəklədilər. Bir-iki gün bundan əvvəl İranın rəsmi şəxsləri açıqlamalar vermişlər ki, işğala son qoyulmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və bizim köçkünlərimiz öz torpaqlarına qayıtmalıdırlar. Bu da ədalətli mövqedir.

**- Yaxşı, bəs bu prosesdə ABŞ Prezidenti Donald Trampla hər hansı təmaslarınız oldumu? Siz ABŞ-ın bu prosesdə olmasının vacibliyini düşünürsünüzmü?**

- Amerika da Minsk qrupunun həmsədridir. Digər iki həmsədrlə birlikdə bu işlərdə iştirak edir. Amerika Prezidenti ilə mənim hər hansı bir təmasım olmamışdır. Ancaq Amerikanın yüksəksəviyyəli rəsmiləri bu işlərlə, bu hadisələrlə bağlı təbii ki, öz fikirlərini bildirmişdilər. Eyni zamanda hörmətli Donald Tramp da bu məsələ ilə bağlı açıqlama vermişdir. Hesab edirəm ki, tam məntiqli bir açıqlama idi. Amerika ilə bizim ikitərəfli formatda əlaqələrimiz uğurla inkişaf edir. Bir çox sahələrdə biz tərəfdaş kimi fəaliyyət göstəririk. Təbii ki, Amerika superdövlət kimi bu məsələ ilə də bağlı öz sözünü deyir. Biz Amerikanın mövqeyindən də razıyıq.

**- İyul ayında Ermənistan Tovuz şəhərinə hücum etdi. İndi bu əməliyyat vaxtı yenə də mülki yaşayış məntəqələrini vurur. Bunu Ermənistanın Azərbaycanı təxribata çəkmək üçün etdiyini bir qədər əvvəl demişdiniz. Təxribata çəkməkdən başqa, bu məntəqələrin, xüsusilə də Tovuz şəhərinin, Mingəçevirdəki elektrik stansiyasının hədəfə alınması, bu kimi hədəflərin vurulması, əslində, regiondakı enerji təhlükəsizliyini də təhlükə altına alırmı? Bu, enerji xətlərinin hədəfə alınması anlamına gəlirmi? Xüsusilə Bakı-Tbilisi-Ceyhan neft boru kəmərini, TANAP layihəsini nəzərdə tuturam. Bunlarla bağlı nə deyə bilirsiniz?**

- Təbii, bu da Ermənistanın hədəflərindən biridir. Bunu onlar gizlətmirdilər və eyni zamanda bu hadisələrə qədər Ermənistan rəhbərliyi tərəfindən verilən açıqlamalarda göstərilmişdir ki, onlar bizim strateji enerji infrastrukturumuzu vurmaq fikrindədirlər. Boru xətlərini, eyni zamanda Səngəçal neft-qaz terminalını, hansı ki, dünya miqyasında ən böyük neft-qaz terminallarından biridir. Əslində, Tovuz hadisələrinin səbəblərindən biri də məhz bu idi - yeni Azərbaycan torpaqlarını işğal etmək, ondan sonra müzakirə masasında öz mövqelərini gücləndirmək, eyni zamanda bizim strateji enerji xətlərimizə ya yaxınlaşmaq, ya da ki, onları nəzarət altına almaq və ondan sonra bizə diktə etmək. Bu, erməni dövlətinin planlarında hər zaman olan bir məsələdir. Onlar bunu gizlətmirlər. Mingəçevir Elektrik Stansiyasının vurulması da bu planın bir tərkib hissəsidir. Çünki Mingəçevir Elektrik Stansiyası nəinki Azərbaycanın, bütün Cənubi Qafqazın ən böyük stansiyasıdır. Baxmayaraq ki, biz son illər ərzində bir çox stansiyalar inşa etmişik, bu gün Mingəçevir bizim ən böyük stansiyamızdır və ölkəmizin böyük hissəsinin elektrik enerjisini təmin edir. Əgər o, sıradan çıxsaydı, təbii ki, enerji məsələlərində müəyyən problemlər yarana bilərdi. Bu gün Azərbaycan həm xam neft, həm təbii qaz, həm də elektrik enerjisi ixrac edir. Yəni bizdə istehsal olunan elektrik enerjisinin artıq hissəsini ixrac edirik. Bu, bizim iqtisadi potensialımıza hesablanan bir addım idi və bir daha Ermənistanın, Ermənistan rejiminin cinayətkar mahiyyətini bütün dünyaya göstərir.

**- Cənab Əliyev, Dağlıq Qarabağda nə qədər Azərbaycan əhalisi yaşayır?**

- Dağlıq Qarabağda bu gün bir dənə də azərbaycanlı yoxdur, hamısı qovuldu. Həm Dağlıq Qarabağ ərazisindən, həm də ki, Dağlıq Qarabağın, - Dağlıq Qarabağ bir muxtar vilayət idi sovetlər dönəmində, - ətrafındakı 7 rayondan da bütün azərbaycanlı əhali qovuldu. Sovetlər dönəmində, 1980-ci illərin sonunda Dağlıq Qarabağın əhalisinin yüzdə 25-i azərbaycanlılar idi. Şuşa şəhərinin əhalisinin 98 faizi azərbaycanlılardan ibarət idi. Şuşa bizim qədim tarixi şəhərimizdir. Birinci mərhələdə bütün azərbaycanlılar Şuşadan, sonra Xankəndidən, digər şəhər və kəndlərdən, daha sonra Dağlıq Qarabağın ətrafında olan yeddi bölgədən qovuldu. Bu gün Dağlıq Qarabağda və işğal altındakı ətraf bölgələrdə Azərbaycan əhalisi yoxdur. Biz indi qayıdacağıq. Biz dörd il bundan əvvəl artıq qayıdışa başlamışıq. Ancaq indiki toqquşmalar başa çatandan sonra biz, əlbəttə ki, o bölgələrə qayıdacağıq.

**- Azərbaycanlılar işğal altındakı Qarabağ torpaqlarından qovuldu dediniz. Amma hazırda Azərbaycanın digər torpaqlarında da çoxlu sayda erməni əhali yaşayır. Bununla bağlı nə söyləyərdiniz?**

- Bu da təbiidir. Çünki Azərbaycanda bir çox millətlər yaşayır, bir ailə kimi yaşayır və Azərbaycan dünya miqyasında multikultural ölkə kimi tanınır. Bunu həm Birləşmiş Millətlər Təşkilatı, eyni zamanda humanitar sahədə fəaliyyət göstərən digər beynəlxalq təşkilatlar qeyd edirlər. Azərbaycan tolerantlıq, milli, dini dözümlülük məkanıdır. O cümlədən bizdə bu gün minlərlə erməni yaşayır, onlar bizim vətəndaşlarımızdır. Onlar da başqa millətlər kimi normal yaşayırlar. Əlbəttə, bu müharibə, münaqişə başa çatandan sonra mən əminəm ki, bu gün Dağlıq Qarabağda yaşayan ermənilər də bizimlə bərabər yaşayacaqlar. Azərbaycan çoxmillətli ölkədir, tarixən belə olub. Hesab edirəm ki, bu, bizim böyük üstünlüyümüzdür.

Amma Ermənistanda heç bir başqa millət yaşamır. Ermənistan dünya miqyasında çox nadir ölkələrdəndir ki, orada əhalinin yüzdə doxsan doqquzu ermənilərdir. Bütün digər millətlər oradan qovuldu. İlk növbədə, azərbaycanlılar qovuldu, ondan sonra digər millətlər qovuldu. Ermənistan monodövlətdir və bu, bir daha onu göstərir ki, irqçi dövlətdir. Heç bir başqa millətin nümayəndəsi orada yaşaya bilmir. Ya o əziyyətə dözməyərək özü oradan çıxır, ya da ki, zor gücü ilə çıxarılır.

**- Cənab Prezident, bir neçə sualım qaldı, icazənizlə, onları da söyləyim. Bir daha əməliyyat zonası ilə bağlı mövzuya qayıdası olsaq, xüsusən pilotsuz uçuş aparatlarının və silahlı pilotsuz uçuş aparatlarının Azərbaycan Ordusunun arsenalına daxil edilməsi necə bir fərq yaratdı?**

- Çox böyük fərq yaratdı. Türkiyə istehsalı olan silahlı pilotsuz uçuş aparatları çox müasir, çağdaş texnologiyalar əsasında yaradılmış silah növüdür və dünyada cəmi bir neçə ölkə var ki, belə imkanlara malikdir. Bu da Türkiyənin həm texnoloji, həm iqtisadi, həm intellektual potensialının təzahürüdür. Əlbəttə ki, belə imkanların bizdə olması işimizi asanlaşdırır və insanlarımızın, əsgərlərimizin həyatını xilas edir. Çünki onlar olmasaydı, havadan vurulan həmin tankları, topları və digər erməni texnikasını biz gərək yerdən vuraydıq. O da çox böyük insan itkisinə gətirib çıxara bilərdi. Bu aparatlar insan itkisinin yüksək rəqəmlərlə ölçülməməsi üçün bizə böyük üstünlük verir. Eyni zamanda onların texnologiyası mükəmməldir.

**- Hava hücumundan müdafiə sistemlərindən söz düşmüşkən, Ermənistan tərəfində xüsusən Rusiyadan alınan müasir hava hücumundan müdafiə sistemləri var - S-300-lər kimi. Həmçinin Azərbaycan Ordusunda da müdafiə sistemləri var, ancaq bu silahlar yoxdur. Sizcə bu, ikili standart yaradırmı?**

- Xeyr, bizdə S-300 hava hücumuna qarşı qurğular var, biz onları Rusiyadan almışıq. Rusiyadan bir çox silahlar almışıq. Burada heç bir məhdudiyyət yoxdur. Ona görə ikili standartlardan danışa bilmərəm. Yalnız bir fərq ondadır ki, biz bunu pulla alırıq və bu da çox bahalı sistemlərdir. Ermənistan isə bir çox hallarda pulsuz alır. Yəni hədiyyə kimi, ya da ki, kredit şəklində alır. Amma o kredit kağız üzərində qalır, qaytarılmır. Təbii ki, bu bahalı silahlar Ermənistana pulsuz verilməsəydi, Ermənistanın buna sahib olması müzakirə mövzusu ola bilməzdi və bu münaqişə çoxdan çözülərdi. Çünki Ermənistanın silahlanması və pulsuz silahlanması onlarda bir əminlik yaratdı ki, bu torpaqları işğal altında əbədi saxlaya bilərlər. Yəni fərq bundadır. Ancaq bizim imkanımız var ki, Rusiyadan silahlar alaq. Biz başqa ölkələrdən də silahlar alırıq. Bu məsələ ilə bağlı hər hansı bir məhdudiyyət yoxdur. Bəzi ölkələr var ki, onlar bizə embarqo qoyublar, ancaq bu, bizə o qədər də böyük problem yaratmır. Çünki indi silah bazarı daha çox şaxələnmiş bazardır, coğrafiyası da genişlənir. Mən bu yaxınlarda demişəm, bu gün Türkiyənin müdafiə sənayesi o qədər sürətlə inkişaf edir ki, ümid edirəm, gələcəkdə bizim Türkiyə silahları ilə təchizatımız daha da yüksək səviyyəyə qalxacaqdır.

**- Bizim burada diqqətimizi çəkən bir məsələyə toxunmaq istəyirəm. Hara getsək - Bakıda və ya münaqişə bölgəsindəki şəhərlərdə, Tərtərdə, hər yerdə Azərbaycan bayraqlarının yanında Türkiyə bayraqlarını da görürük. Bununla bağlı nə söyləmək istərdiniz.**

- Bu, əslində, hər zaman belə idi. Çünki Türkiyə bizim üçün təkcə müttəfiq və ən yaxın ölkə deyil. Türkiyə bizim üçün qardaş ölkədir, necə ki, Azərbaycan Türkiyə üçün. Türkiyə bayrağı bizim üçün əziz bayraqdır, Azərbaycan bayrağı qədər əzizdir. Ancaq təbii ki, bu münaqişə, bu döyüşlər zamanı Türkiyənin dəqiq mövqeyi, cənab Prezident, mənim qardaşım Rəcəb Tayyib Ərdoğanın açıqlamaları, Azərbaycana göstərilən dəstək, Türkiyədən gələn məktublarda insanların “Azərbaycan tək deyil” sözləri, əlbəttə ki, Türkiyəyə olan məhəbbəti daha da artırdı. Siz də bunun şahidisiniz ki, bütün bölgələrdə Türkiyə və Azərbaycan bayraqları bir yerdə dalğalanır. Eyni zamanda bu gün Türkiyədə də Türkiyə ilə Azərbaycan bayraqları bir yerdə dalğalanır. Mənə göstərilən o videokadrlar da bizi çox duyğulandırır, çox məmnun edir ki, bizim türk qardaşlarımız orada avtomobilləri, binaları Türkiyə və Azərbaycan bayraqları ilə bəzəmişlər. Yəni bu, əsl qardaşlıq, həmrəylik rəmzidir. Azərbaycanı Türkiyə qədər dəstəkləyən ikinci ölkə yoxdur. Dünyada Türkiyəni də Azərbaycan qədər dəstəkləyən ikinci ölkə yoxdur. Bu, bizim böyük sərvətimizdir.

**- Son sualımı ünvanlayacam, cənab Prezident. Hazırda qarşınızda mənim yerimə Ermənistanın baş naziri Paşinyan olsaydı, ona nə söyləyərdiniz?**

- Əslində, mənim ona sözüm yoxdur. Çünki mən onunla dəfələrlə görüşmüşdüm. İki il bundan əvvəl o, hakimiyyətə gələndən sonra bizim ilk təmaslarımızda hesab edirəm ki, aramızda çox yaxşı söhbət olmuşdu. Mənim də ümidlərim var idi ki, o, yeni baş nazir kimi Ermənistanın işğalçılıq siyasətinə düzəlişlər, dəyişikliklər edəcək, anlayacaqdır ki, bu münaqişə həll olunmasa, bölgəyə sülh gəlməyəcək, çevriliş zamanı hakimiyyətə gəlmiş, böyük vədlər vermiş bir insan kimi o vədləri tuta bilməyəcək, yerinə yetirə bilməyəcək. Çünki əgər Azərbaycan ilə Ermənistanın əlaqələri normallaşmasa, Ermənistanın iqtisadi inkişafından danışmağa dəyməz. Ümid edirdim ki, o, bunu anlayır və Ermənistandan gələn ilk mesajlar çox müsbət idi. Biz də təmkin göstərdik, onların xahişini nəzərə alaraq atəşkəs rejimini möhkəmləndirdik və demək olar ki, son iki il ərzində atəşkəs rejimi möhkəm saxlanılan rejim idi. Bunu Minsk qrupunun həmsədrləri də öz açıqlamalarında qeyd etmişlər. Ancaq sonra nəyi gördük? Onu gördük ki, o, bizi aldatdı. Amma hesab edirəm ki, siyasətdə bu, çox yanlış bir yoldur. Aldatmaq olmaz. Bizim sözümüz imzamız qədər keçərlidir. Ancaq bizə verilən sözlər yalan çıxdı və onun tərəfindən “Qarabağ Ermənistandır və nöqtə” deməsi müzakirələrə faktiki olaraq son qoydu. Ondan sonra digər təxribatçı açıqlamalar, o cümlədən Azərbaycan Dağlıq Qarabağla, yəni qondarma “Dağlıq Qarabağ respublikası” ilə danışıqlar aparmalıdır kimi bəyanatlar verildi. Bu da danışıqlar formatına vurulan zərbə idi. Təkcə biz yox, Minsk qrupu da bunun əleyhinə çıxmışdır. Sonra iyul ayında Tovuzda hərbi təxribat törətdilər, avqustda təxribat qrupunu göndərdilər və keçən ay artıq genişmiqyaslı hücum həyata keçirdilər. Ona görə mən ona bütün sözlərimi demişdim. Mənim sözüm erməni xalqınadır ki, onlar öz hökumətini məsuliyyətə cəlb etsinlər, onlardan atəşin dayandırılmasını, işğala son qoyulmasını tələb etsinlər, öz övladlarını, öz uşaqlarını müharibəyə göndərməsinlər, Azərbaycana göndərməsinlər. Çünki bu gün qondarma “Dağlıq Qarabağ respublikasının ordusu”nun 90 faizini Ermənistan vətəndaşları təşkil edir. Yəni “Dağlıq Qarabağ ordusu” anlayışı yoxdur. Nə üçün Ermənistanda doğulmuş bir insan gəlib Azərbaycan torpaqlarında bizə qarşı vuruşmalıdır? Ona görə mənim sözüm erməni xalqınadır ki, bu gün Azərbaycanda ermənilər rahat yaşayır, bundan sonra da yaşayacaqlar. Onların normal yaşaması üçün Azərbaycan dövləti hər şeyi edir. Ermənistan rəhbərliyinə bir sözüm var ki, siz işğal edilmiş torpaqlardan nə qədər tez çıxsanız, sizin üçün o qədər də yaxşı olacaq.

**- Cənab Prezident, bu tarixi günlərdə, döyüşlərin davam etdiyi bir vaxtda çox önəmli açıqlamalar verdiniz. Müsahibə üçün bir daha “CNN-Türk” televiziya kanalı adından çox təşəkkür edirəm.**

- Mən də sizə təşəkkür edirəm, “CNN-Türk” televiziya kanalı demək olar ki, hər gün gözəl reportajlar yayımlayır. Studiyalarda canlı müzakirələr təşkil edilir, bu müzakirələrə önəmli insanlar qatılır. Azərbaycana göstərilən birmənalı dəstəyə görə kanalınıza təşəkkürümü bildirirəm. Türkiyənin bütün media toplumuna təşəkkürümü bildirirəm ki, onlar bu ağır günlərdə bizimlə bir yerdədirlər.

**- Çox sağ olun, bir daha təşəkkür edirəm.**

- Sağ olun, təşəkkür edirəm.

## İlham Əliyev beynəlxalq informasiya məkanında erməni faşizmini ifşa edir

# “Bizim əsas məqsədimiz Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsidir”

*Əvvəli 1-ci səh.*

- Çünki biz dəfələrlə hücuma məruz qalmışıq. Son üç ayda Azərbaycana üç hücum edilib. Biri iyulda Ermənistan-Azərbaycan sərhədində, Dağlıq Qarabağ regionundan uzaqda olub və Ermənistanın məqsədi Azərbaycanın yeni ərazilərini işğal etmək idi. Onlar bunu etməyə müvəffəq olmadılar. Ordumuz onları məğlub etdi. Sonra avqustun 23-də onlar bizim mülki şəxslərimiz və hərbçilərimizə qarşı terror aktları törətmək üçün diversiya qrupu göndərdilər. Bu da onlar üçün uğursuz oldu. Çünki diversiya qrupunun başçısı saxlanıldı və o, eynilə mənim indi dediklərimə dair ifadələr verir. Sentyabrın sonunda onlar bizim kəndlərimizə və şəhərlərimizə qarşı genişmiqyaslı hücuma keçdilər. Sizə deyə bilərəm ki, bu günə qədər 900 ev tamamilə dağılıb və ya zərər çəkib, mülki şəxslər arasında çox sayda tələfat və yaralı insanlar var. İndi Ermənistan çox acı məğlubiyyətlə üzləşəndə onlar atəşkəs üçün yalvarırlar. Atəşkəsi onlar özləri pozdular, Ermənistan qoşunlarının tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymurlar. Onlar status-kvonu dəyişməz olaraq saxlamaq istəyirlər. Minsk qrupunun həmsədrləri - ABŞ, Rusiya və Fransa, onların prezidentləri dəfələrlə bəyanatlar veriblər ki, status-kvo qəbuledilməzdir. Ermənistan buna məhəl qoymadı, indi isə Azərbaycan özü status-kvonu dəyişir və düşünürəm ki, bu, münaqişənin ən tez zamanda həlli istiqamətində mühüm addım olacaq.

**- Cənab Prezident, bu münaqişənin hər iki tərəfində mülki şəxslər qətlə yetirilib. Siz bunu öz məqsədlərinizlə necə uyğunlaşdırırsınız?**

- Əlbəttə, biz təəssüflənirik ki, mülki şəxslər qətlə yetirilir. Sözsüz ki, bu hücumu biz törətməmişik, hücumun mənbəyi olmamışıq. Çünki bu, sentyabrın 27-də səhər onların etdiyi ilk iş oldu. Onlar bizim şəhər və kəndlərimizə hücum etdilər və biz cavab verməli olduq. Lakin bizim cavabımız əsasən və başlıca olaraq onların hərbi mövqelərinə, tanklarına və silahlarına oldu. Bizim döyüş meydanında etdiklərimiz internetdə var. Bizim dronlarımız və digər avadanlıqlarımız yalnız işğal olunmuş ərazilərdə hərbi hədəfləri məhv edir. Əfsuslar ki, Ermənistan yerlərdə daha çox adamın olması üçün mülki şəxslərdən istifadə edir. Çünki onların demoqrafik vəziyyəti çox pisdir və bizdə, sadəcə, silahların yanında mülki şəxslərin olması ilə bağlı videolar var və əlbəttə ki, əgər şəxs oradadırsa...

**- Sözünüzü kəsdiyimə görə üzr istəyirəm, cənab Prezident. Ermənistan deyə bilər ki, bu döyüşdə onlar tərəfdən mülki şəxslər qətlə yetirilib və onlar bu zorakılığın niyə yenidən sentyabrın 27-də alovlandığını mübahisə edərlər. İcazə verin, Xarici İşlər nazirinizin ötən il verdiyi vədi qeyd edim. Deyilmişdi ki, xalqları sülhə hazırlamaq üçün konkret tədbirlərin görülməsi vacibdir. Bizim hazırda gördüklərimiz bunun əksidir. Siz mülki şəxslərin əzablarını necə məhdudlaşdırmağa çalışırsınız?**

- Bilirsiniz, biz müharibənin başlanmasına görə məsul deyilik. Dediyim kimi, biz Azərbaycanın işğal edilmiş ərazilərində yerləşən Ermənistan ordusunun fiziki hücumuna məruz qalmışdıq. Bundan əlavə, Ermənistandakı indiki rejim danışıqlar prosesini məhv etmək üçün hər bir şeyi etmişdir. Düz bir il bundan əvvəl Ermənistanın baş naziri Azərbaycanın işğal olunmuş ərazisində keçirilən aksiyada “Qarabağ Ermənistandır” bəyan etmişdir. Bu bəyanat faktiki olaraq danışıqlar prosesini məhv etdi. Çünki danışıqlar masasında olan və münaqişənin həlli üçün əsas təşkil edən prinsiplər işğal altındakı ərazilərin Azərbaycana qaytarılmasını tələb edir. Ermənistanın baş naziri Azərbaycana bir santimetr torpağın belə qaytarılmayacağını, “Qarabağ Ermənistandır” deyəndə, onlar Cenevrə Konvensiyasının kobud pozuntusu sayılan əcnəbi şəxslərin işğal olunmuş ərazilərdə məskunlaşmasını təşkil edəndə danışıqlar prosesini məhv edirlər. Bundan sonra bizi buna görə günahlandırmaq üçün onlar bizə üç dəfə - iyul, avqust və sentyabr aylarında hücum edirlər. Biz onları döyüş meydanında məğlub etdikdə onlar Azərbaycanı dayandırmaq üçün hər kəsə zəng edir və hər kəsə yalvarırlar. Biz dayanmaq istəyirik, lakin biz işğalın dayanmasını istəyirik. Buna görə Ermənistanın ünvanına əsas mesaj ondan ibarət olmalıdır ki, biz Ermənistanın torpağında deyilik, biz öz torpağımızdayıq. Bizim torpağımız 27 il ərzində...

**- Ermənistan Türkiyənin burada ciddi təsir göstərdiyini, o cümlədən hərbi yardım kimi məsələlərdə sizi təchizatla təmin etdiyini deyəcək. Siz Türkiyənin bu münaqişədə ölkənizə nə dərəcə təsir göstərdiyini və hərəkətlərinizi sürətləndirdiyini deyə bilərsiniz?**

- Bu, tamamilə yanlış informasiyadır. Türkiyə bizim üçün güclü müttəfiq, tərəfdaş və qardaş ölkədir. Əlbəttə ki, onların verdiyi bəyanatlar onların mövqeyini ifadə edir və biz bu dəstəyə görə Türkiyə hökumətinə, Türkiyə Prezidentinə və Türkiyə xalqına minnətdarıq. Lakin Türkiyə heç bir digər şəkildə bu münaqişəyə cəlb olunmayıb. Ermənistan mediaya belə feyk xəbərlər yaymaqla Azərbaycan Ordusunun bacarığını azaltmaq istəyir. Biz özümüz savaşırıq. Bəli, biz Türkiyədən silahlar alırıq, lakin biz təkcə onlardan almırıq. Bizim əsas silah təchizatçımız Türkiyə deyil. Yəqin bu barədə hər kəs bilir. Beləliklə, bizim müasir türk avadanlığını, o cümlədən döyüş dronlarını almağımız faktı heç kim üçün problem olmamalıdır. Çünki Ermənistan silahları pulsuz əldə edir. Biz onlara görə pul ödəyirik, Ermənistan pulsuz alır. Türkiyə heç bir digər şəkildə münaqişəyə cəlb olunmayıb.

**- Biz burada silahlar və döyüş barədə danışmağa davam edirik. Diplomatiya Sizin üçün hələ də bir seçim yoludurmu? Bu münaqişədən fərqli çıxış yolunu tapmaq üçün Siz Ermənistanın baş naziri ilə bir araya gəlib danışıqları apararsınızmı?**

- Sizə deyə bilərəm ki, prezidentlik müddətimdə Ermənistanın iki sabiq prezidenti və indiki baş naziri ilə bəlkə də onlarca danışıq aparmışam. Əvvəlki debatlar ərzində biz danışıqlar masasında əsaslı irəliləyişə nail olmuşduq. Biz bugünkü münaqişənin həlli üçün prinsipləri işləyib hazırlamışdıq. Biz konstruktiv idik. Danışıqlar 1992-ci ildən bəri davam edirdi. Təsəvvür edirsiniz? Demək olar ki, 30 il müddətində biz ümidlərlə yaşayırdıq. Vasitəçilər bizə “bir az gözləyin, Ermənistan tərəfindən daha konstruktiv yanaşma olmalıdır” - deyirdilər. Lakin iki il bundan əvvəl dövlət çevrilişi nəticəsində bu baş nazir hakimiyyətə gələndən sonra danışıqlar prosesini tamamilə məhv etdi. Mənim onunla dəfələrlə görüşlərim olmuşdur, lakin bu görüşlər tamamilə mənasız idi. O, mənə əraziləri geri qaytarmayacaqlarını dedi, onlar Dağlıq Qarabağın Ermənistana birləşməli olduğunu deyirdi. Beləliklə, bunlar mənim üçün tamamilə qəbuledilməz tələblər idi və onlar vasitəçilər üçün də qəbuledilməz idi. Ermənistan hökuməti mövqeyini dəyişməlidir, maksimalist mövqeyindən çəkinməlidir, “Qarabağ Ermənistandır” deməyi dayandırmalıdır. Çünki bu, həqiqət deyil, danışıqlar prosesini məhv edir və əlbəttə ki, biz geriləyirik. Yeri gəlmişkən, sabah bizim Xarici İşlər nazirimiz Minsk qrupunun səfirləri ilə görüşmək üçün Cenevrədə olacaq. Mən bildiyim qədər, Ermənistanın xarici işlər naziri oraya ayın əvvəlində getməli idi, lakin o, buna məhəl qoymadı. O, orada deyil. Bizim Xarici İşlər nazirimiz oradadır. Bu, kimin danışıqlar aparmaq istədiyini, kiminsə, sadəcə, Azərbaycanı günahlandırmaq istədiyini nümayiş etdirir.

**- Prezident İlham Əliyev, “Euronews”un xüsusi buraxılışında bizə qoşulduğunuz üçün Sizə təşəkkür edirəm. Bizə vaxt ayırdığınız üçün çox sağ olun.**

- Təşəkkür edirəm.



## Küveyt Dövlətinin Əmiri Əlahəzrət Şeyx Nəvaf əl-Əhməd əl-Cabir əs-Sabaha

Əlahəzrət!

Küveyt Dövlətinin Əmiri kimi taxta çıxmağınız münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Küveyt arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin xalqlarımızın mənafelərinə uyğun olaraq inkişafı və genişlənməsi yolunda birgə səylər göstərəcəyik.

Bir daha Sizə təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, dost Küveyt xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 oktyabr 2020-ci il*

## Azərbaycan Avrasiyada münasibətlərin möhkəmlənməsi istiqamətində qardaş Türkiyə ilə birgə ardıcıl fəaliyyət göstərməkdədir

### XXIII Avrasiya İqtisadi Zirvə Toplantısının iştirakçılarına

Hörmətli sammit iştirakçıları!

Sizi səmimi-qəlbdən salamlayır və “Mərmərə Qrupu” Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkilatçılığı ilə gerçəkləşdirilən növbəti Avrasiya İqtisadi Zirvə Toplantısının öz işinə başlaması münasibətilə təbrik edirəm. Vəqfin sülh və dialoqun təşviqinə, regional və qlobal əməkdaşlığın genişləndirilməsinə töhfələrini yüksək qiymətləndirirəm.

Avrasiya İqtisadi Zirvə toplantıları Avrasiya bölgəsində iqtisadi, siyasi münasibətlərin inkişafı və xalqlar arasında əlaqələrin dərinləşməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Regional əməkdaşlığın mühüm platformalarından birinə çevrilmiş bu ənənəvi görüşlərdə zamanın yeni çağırışlarının və müasir inkişaf meyillərinin daim diqqət mərkəzində saxlanılması təqdirə layiqdir. XXIII sammitin gündəliyində postpandemiya dövrünün əsas prioritetləri və beynəlxalq miqyasda böyük təhlükə təşkil edən terrorizm problemlərinin geniş müzakirəsinin nəzərdə tutulması bunun bariz nümunəsidir.

Azərbaycan uzun illərdən bəri Avrasiyada münasibətlərin möhkəmlənməsi, ölkələrin iqtisadi potensialının və təbii ehtiyatlarının xalqların rifahına və tərəqqi məqsədlərinə yönəlməsi istiqamətində region dövlətləri, o cümlədən qardaş Türkiyə ilə birgə ardıcıl fəaliyyət göstərməkdədir. Türkiyənin artan gücünün təzahürü olaraq enerji təhlükəsizliyi sahəsində atdığı önəmli addımlar bizi sevindirir.

Bununla yanaşı, Avrasiya məkanında sabitliyi təhdid edən mühüm amil Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin indiyədək öz həllini tapmamasıdır. Avantürist Ermənistan rəhbərliyi dünyanın diqqətinin pandemiya ilə mübarizəyə yönəlməsini də fürsət bilərək ölkəmizə qarşı hərbi təxribatları gücləndirmişdir. Sentyabrın 27-də törədilmiş təxribat Ermənistanın məhz dövlət səviyyəsində otuz ildən artıq yürütdüyü terrorizm və işğalçılıq siyasətinin davamıdır.

Bir daha bəyan edirəm ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi, əzəli tarixi torpağımızdır. Münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü, suverenliyi və sərhədlərimizin toxunulmazlığı çərçivəsində həll olunmalıdır. Müasir dünyada sülhün və əmin-amanlığın qorunmasına layiqli töhfələr verən qardaş Türkiyə həmişə olduğu kimi bu gün də bizimlə həmrəydir, qətiyyətli mövqeyini ifadə edərək torpaqlarımızın işğaldan azad olunması naminə haqq işimizi dəstəkləyir. Bizə böyük mənəvi güc verən bu misilsiz dəstəyinə görə Türkiyə Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğana və Türkiyə xalqına bir daha dərin minnətdarlığımı bildirirəm. Qələbə bizimdir. Qarabağ Azərbaycandır!

İnanıram ki, bu toplantıda aparacağınız fikir mübadiləsi və müzakirələr qarşılıqlı əməkdaşlıq üçün yeni perspektivlərin müəyyənləşməsində faydalı olacaqdır.

Zirvə Toplantısının işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 oktyabr 2020-ci il*

## Nazirlər Kabineti yanında Operativ Qərargah koronavirusla mübarizə tədbirlərini müzakirə edib

Oktyabrın 7-də Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədovun sədrliyi ilə Nazirlər Kabineti yanında Operativ Qərargahın pandemiya ilə mübarizəni gücləndirmək və karantin rejiminə daha ciddi əməl olunması üçün tədbirlərə həsr edilmiş geniş müşavirəsi keçirilib.





Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirədə müharibə şəraitində ölkədə koronavirusla mübarizənin vəziyyəti və görüləcək tədbirlər müzakirə olunub.

Əli Əsədov qeyd edib ki, koronavirusla mübarizədə qazanılmış nailiyyətləri qoruyub saxlamaq və bütün resursları cəbhəyə yönəltmək üçün karantin rejiminin qaydalarına nəzarəti gücləndirmək lazımdır.

Baş Nazir bildirib ki, xüsusilə iş yerlərində, ictimai nəqliyyatda, ticarət mərkəzlərində və təhsil müəssisələrində qaydalara əməl olunmasına daha ciddi nəzarət edilməlidir.

Müşavirə iştirakçıları karantin rejiminin tələblərinə daha ciddi əməl olunması üçün tədbirləri gücləndirəcəklərini bildiriblər.

Tədbirdə bütün qurumlara koronavirusla mübarizənin gücləndirilməsi üçün müvafiq göstərişlər verilib.

Müşavirədən sonra Baş Nazir Əli Əsədov məsələ ilə bağlı vətəndaşlara müraciət edib.

## Baş Nazir Əli Əsədov əhaliyə müraciət edib

**Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov oktyabrın 7-də əhaliyə müraciət edib. AZƏRTAC müraciəti təqdim edir.**

“Məlum olduğu kimi, sentyabrın 27-də Ermənistan Azərbaycana qarşı növbəti hərbi təxribata əl atıb. Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutub. Bu təcavüzə cavab olaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişi ilə Azərbaycan Ordusu əks-hücum əməliyyatına başlayıb.

Sentyabrın 28-dən başlayaraq ölkənin bir neçə regionunda hərbi vəziyyət və komendant saatı elan edilib. Düşmən qadağan edilmiş üsullardan istifadə edərək müharibə cinayətlərinə əl atır, dinc əhalini hədəfə alır, münaqişə zonasından uzaq olan şəhər və rayonlarımızı raket atəşinə tutur.

Buna baxmayaraq, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi ilə Azərbaycanın rəşadətli Ordusu uğurla irəliyə gedir. Şanlı Ordumuzun apardığı əməliyyatlar nəticəsində işğal altındakı torpaqlarımızın azad olunmasına başlanıb.

Bütün Azərbaycan xalqı Ordumuza dəstək nümayiş etdirir və bu uğurlara sevinir. Biz hamımız, bütün Azərbaycan xalqı Prezident, Ali Baş Komandanın ətrafında sıx birləşmişik və işğal olunan torpaqlarımızın azad ediləcəyinə tam əminik.

Xalqımız cəbhədən gələn qələbə xəbərlərini çox böyük coşqu və fərəh hissi ilə qarşılayır, şanlı Ordumuza dəstək vermək, sevinclərini bir-biriləri ilə bölüşmək üçün insanlar bir yerə toplaşırlar. Təbii ki, bu, başadüşüləndir.

Operativ Qərargah adından vətəndaşlarımıza müraciət edərək bildirirəm ki, koronavirus pandemiyası ilə əlaqədar ölkəmizdə tətbiq olunan xüsusi karantin rejimi davam edir.

Vətəndaşlarımız arasındakı emosional ruh yüksəkliyi təmasların artması ilə müşayiət olunur ki, bu da davam edən koronavirus xəstəliyi fonunda insanların sağlamlığına böyük təhlükələr yarada bilər. Məlum olduğu kimi, Azərbaycanla qonşu olan, həmçinin dünyanın digər ölkələrində xəstəlik sürətlə yayılmaqdadır və ekspertlər bunu hətta ikinci dalğanın başlaması kimi qiymətləndirirlər. Bu, bizi daha ehtiyatlı olmağa sövq edir.

İndiyədək vətəndaşlarımız xüsusi karantin qaydalarına ciddi şəkildə riayət ediblər və bunun nəticəsində hazırda xəstəlik nəzarət altındadır. İndiyə qədər pandemiya ilə mübarizədə qazandığımız nailiyyətləri itirməmək üçün karantin rejiminin qaydalarına əməl olunması zəruridir. Eyni zamanda dövlətimiz, xalqımız və milli təhlükəsizliyimiz üçün belə bir mürəkkəb dövrdə karantin qaydalarına əməl olunması virusla mübarizədən daha böyük əhəmiyyətə malikdir. Bu işdə hər bir vətəndaşımızın töhfəsi təqdirəlayiqdir.

Bununla belə, xəstəliyin yayılmasına, karantin rejiminin qaydalarının pozulmasına məsul olan şəxslər və mülkiyyət formasından asılı olmayaraq müəssisə sahiblərinin nəzərinə çatdırırıq ki, karantin rejiminin tələblərinə riayət edilmədiyi hallarda aidiyyəti qurumlar tərəfindən müvafiq tədbirlər görüləcəkdir. Bununla əlaqədar aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib və onlar nəzarət tədbirlərini daha sərt və ciddi şəkildə davam etdirməlidirlər.

Belə mürəkkəb dövrdə torpaqlarımızın azad olunması uğrunda göstərdiyimiz birlik, vətəndaş həmrəyliyi və intizamın görünməz düşmən olan koronavirus xəstəliyi ilə mübarizədə də göstərilməsi olduqca vacibdir.

Odur ki, hər bir vətəndaşa müraciət edərək karantin rejiminin tələblərinə daha ciddi əməl etməyə, bununla da bütün gücümüzü işğalçı düşmənlə mübarizə üçün səfərbər etməyə çağırırıq”.

## *Rusiya Prezidenti:* “Döyüş əməliyyatları Ermənistan ərazisində aparılmır”

“Məlumdur ki, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür, bu müqavilə çərçivəsində bizim Ermənistan qarşısında müəyyən öhdəliklərimiz var. Lakin biz çox təəssüflənirik ki, döyüş əməliyyatları indiyədək davam edir, bu əməliyyatlar Ermənistan ərazisində aparılmır”.

AZƏRTAC xəbər verir ki, Rusiya Prezidenti Vladimir Putin bu barədə “Rossiya-1” telekanalına müsahibəsində bildirib. Rusiya Prezidenti Dağlıq Qarabağ ətrafındakı son hadisələri necə dəyərləndirir sualının cavabında deyib: “Bu, faciədir, biz çox narahatıq. Azərbaycan da, Ermənistan da, Dağlıq Qarabağ da - bütün bu ərazilərdə yaşayan insanlar bizə yad deyillər. Bunu demək kifayətdir ki, bizim hesablamalara görə bizdə, Rusiyada təqribən 2 milyon azərbaycanlı və 2 milyondan çox erməni yaşayır. Rusiyanın çoxsaylı vətəndaşları hər iki respublika ilə sıx dostluq və hətta qohumluq əlaqələri saxlayır.

Əlbəttə, bu, böyük faciədir. İnsanlar həlak olur, hər iki tərəf böyük itkilər verir. Biz ümid edirik ki, ən yaxın zamanda bu münaqişə dayandırılacaq. Lakin əgər münaqişə tamamilə başa çatmasa, - hər şeydən görünür ki, bu, hələ tezliklə olmayacaq, - hər halda biz atəşkəsə çağırırıq, bunu bir daha demək istəyirəm, çağırırıq. Özü də bunu mümkün qədər tezliklə etmək lazımdır”.

Rusiya lideri xatırladıb ki, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür və bu müqavilə çərçivəsində Rusiyanın Ermənistan qarşısında müəyyən öhdəlikləri var. Prezident Vladimir Putin deyib: “Lakin biz çox təəssüflənirik ki, döyüş əməliyyatları indiyədək davam edir, bu əməliyyatlar Ermənistan ərazisində aparılmır. Rusiyanın bu müqavilə çərçivəsində öz öhdəliklərini yerinə yetirməsinə gəldikdə isə, biz öz öhdəliklərimizi həmişə yerinə yetirmişik, yetiririk və yetirəcəyik. Bildiyiniz kimi, mən Ermənistanın baş naziri ilə daim canlı əlaqə saxlayıram, Rusiyanın öz müttəfiqlik öhdəliklərini nə dərəcədə yerinə yetirməsi ilə əlaqədar Ermənistan rəhbərliyinin heç bir sualı yoxdur”.

## Kanadanın “The Globe and Mail” qəzetində dərc olunan məqalədə Hikmət Hacıyevin Ermənistanın hərbi təxribatları ilə bağlı fikirlərinə yer verilib

Kanadanın “The Globe and Mail” qəzetində Mark Makkinnonun müəllifliyi ilə “Ermənistan və Azərbaycan Dağlıq Qarabağ uğrunda döyüşlərə başlayır” adlı məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Prezidentin köməkçisi Hikmət Hacıyevin fikirlərinə yer verilib.

Müsahibə zamanı Gəncəyə hücumların Ermənistan ərazisindən həyata keçirildiyini qeyd edən H.Hacıyev Dağlıq Qarabağın hüdudlarından kənarda münaqişə zonasının genişlənməsi təhlükəsinin olduğunu xüsusilə vurğulayıb. Eyni zamanda Azərbaycanın su anbarı və elektrik stansiyasının yerləşdiyi Mingəçevir şəhərinin də hədəfə alındığını bildirib.

Prezidentin köməkçisi Ermənistanın öz ərazilərindən Azərbaycanın mülki vətəndaşlarına hücum etməsinin münaqişəyə daha təhlükəli bir ölçü əlavə etdiyini vurğulayıb.

H.Hacıyev qeyd edib ki, atəşkəs çağırışı, həmçinin Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasına dair çağırış ciddi bir siyasi mesajla müşayiət olunmalıdır.

Eyni zamanda o, Azərbaycan hərbçilərinin Xankəndidəki və onun ətrafındakı yalnız hərbi obyektləri hədəf aldığını bildirib.

# “Cənab Prezident, Sizin qətiyyətiniz hər bir Azərbaycan vətəndaşında qürur hissi doğurur”

**Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinə qarşı həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatları vətəndaşlarımızda qələbə əzmini, ruh yüksəkliyini daha da artırıb. Bu, Azərbaycan vətəndaşlarının Prezident, Ali Baş Komandan İlham Əliyevə göndərdiyi təbrik və təşəkkür məktublarından da aydın görünür.**



Qeyd edək ki, Azərbaycan vətəndaşlarından əlavə, bir sıra xarici ölkələrin vətəndaşları da dövlətimizin başçısına məktublar ünvanlayırlar.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.

Türkiyənin İstanbul şəhərindən **Mümin Kıvanc** yazır: “Hörmətli cənab Prezident, uzun illərdir özümə Vətən bildiyim, burada ailə qurduğum Azərbaycanla və övladlığa götürdüyüm balamın qürurla daşıdığı Azərbaycan Respublikasının pasportu ilə qürur duyuram. Bu hisslər üçün Sizə minnətdarlıq edirəm. Bilmənizi istəyirəm ki, Sizin rəhbərliyinizlə bütün Azərbaycan xalqı bu günlərdə Vətənimiz Qarabağ uğrunda mücadilə aparır. Bizi özündən ayrı görməyən böyük Azərbaycan xalqının qonaqpərvərliyi və əbədi qardaşlığımız naminə əlimdən, ürəyimdən gələn hər bir köməyi Sizə və Azərbaycan xalqına verməyə hazırıq. Allah bu işdə Azərbaycan Ordusuna kömək olsun. Yaşasın Azərbaycan! Yaşasın Türkiyə!”

Ankara şəhərindən **Rövşən Bərduxanov** yazır: “Möhtərəm cənab Prezident, dünyanın bir neçə ölkəsində fəaliyyət göstərən və yüksək hərbi texnologiyalara sahib olan “FDI GROUP” şirkəti olaraq, ilk növbədə, Sizə salamlarımızı çatdırır və ehtiramımızı bildiririk. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı olaraq erməni faşistlərinə qarşı apardığınız mübarizəni dəstəkləyir, Qarabağ uğrunda başladığınız uğurlu əməliyyatları davam etdirməyinizi arzulayır və Azərbaycanın işğal altında olan bütün torpaqlarının azad olunacağına inanırıq. Biz “FDI GROUP” şirkəti olaraq bütün potensialımız və texnoloji imkanlarımızla Şanlı Ordumuzun yanında olmaqdan və Azərbaycan xalqı ilə bərabər erməni qəsbkarlarından şəhid qardaşlarımızın intiqamını almaqdan şərəf duyardıq. Cənab Ali Baş Komandan, Sizin əmrinizdəyik və hər zaman Sizin yanınızda olmağa hazırıq. Allah Sizi və Azərbaycan xalqını qorusun. Xalq Sizinlədir və zəfər Sizinlədir. Biz, Türkiyədə yaşayan azərbaycanlılar və böyük Türk xalqı həmişə Sizin yanınızdayıq”.

Rusiyanın Sankt-Peterburq şəhərindən **Eldar Əliyev, Natəvan Əliyeva, Səbinə Əliyeva** və **Toğrul Əliyev** yazırlar: “Cənab Ali Baş Komandan, Sizin rəhbərliyiniz altında Azərbaycan ordusunun qələbələri, həmçinin Cəbrayıl şəhərinin və ətraf kəndlərin azad edilməsi münasibətilə Sizi və xalqımızı ürəkdən təbrik edirik. İnanırıq ki, Sizin komandanlığınız altında tezliklə Azərbaycan Ordusu tarixi ədaləti bərpa edəcək və Vətənimizin ərazi bütövlüyü təmin olunacaqdır. Yaşasın Azərbaycan! Var olsun Ali Baş Komandanımız və onun rəhbərliyi altında Azərbaycanın müzəffər Ordusu! Qarabağ Azərbaycandır!”

Sumqayıt şəhərindən **Yekaterina Məmmədova:** “Çox hörmətli cənab Prezident, Sizin torpaqlarımız uğrunda apardığınız bu əzmkar mübarizəni uzun illərdir Azərbaycanda yaşayan rus xalqının bir nümayəndəsi kimi sonadək dəstəkləyəcəyəm. Otuz ildir yağı düşmənin əsarətində olan torpaqların tezliklə azad edilməsini səbirsizliklə gözləyirəm. Cənab Ali Baş Komandan, Sizin və Ordumuzun əməyi, davamlı səyləri nəticəsində hər gün yeni qələbə xəbərləri alırıq. Fəxr edirəm ki, belə əzmli Ali Baş Komandanımız və yenilməz Ordumuz var. Bu tarixi günləri bizə yaşatdığınız üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Cənab Prezident, ürəyim bütün Azərbaycan Ordusu ilə bir döyünür. Bütün əsgər analarının ağrısı mənim də ağrımdır, sevinci mənim də sevincimdir. Əziz Prezidentim, mən Sizinlə fəxr edirəm. Qoy, Ulu Tanrı bu haqq yolunda Sizi və Azərbaycan xalqını qorusun!”

Bakı şəhərindən **Hədiyyə Balacayeva:** “Çox hörmətli cənab Prezident, bizim ailəmiz dəfələrlə doğma yurd-yuvasından köçkün düşüb. Keçən əsrin ortalarında Dərələyəz mahalından, 1993-cü ildə isə Kəlbəcər rayonundan məcburi köçkün həyatı yaşamaq məcburiyyətində qalıb. Sizin hazırkı mövqeyiniz bizim ailə tərəfindən dərin rəğbətlə qarşılanıb. Sizin düzgün siyasətiniz həm dünya, həm də Azərbaycan ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Sizin tutduğunuz bu haqq yolunda Allah Sizə yar olsun. Öz adımdan və ailəmiz adından Sizin apardığınız bu haqq işini dəstəkləyirəm. Cənab Prezident, mən 2018-ci il Məkkə şəhərində Ümrə ziyarətində olarkən Sizin şəklinizi aparıb Allah evinin üzərinə qoyub dualar etmişdim. İnşallah ki, mənim dualarım qəbul olar. Allah Sizi qorusun. Allah ailənizi qorusun. Allah bu işdə Sizə yardımçı olsun. Azərbaycan bayrağı tezliklə işğaldan azad olunmuş torpaqlarda dalğalansın!”

Biləsuvar rayonundan **Rəşad Qasımov:** “Möhtərəm cənab Prezident, Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqın təkidi ilə yenidən hakimiyyətə qayıtmış dünya şöhrətli siyasətçi, Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində atəşkəs rejiminə nail olmaqla, ölkə iqtisadiyyatının inkişafı istiqamətində həyata keçirilən demokratik islahatlar Azərbaycanın Cənubi Qafqazda lider dövlət olması ilə yanaşı, dünya siyasi arenasında da öz sözünü deyən ölkəyə çevrilməsinə zəmin yaratdı. Beləliklə, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsinə, milli təhlükəsizliyinin təmin olunmasına və sosial-iqtisadi tərəqqisinə nail olduq. Ulu Öndər Heydər Əliyevin Azərbaycanın xarici siyasət kursunda ciddi dəyişikliklər etməsi, Azərbaycan-Türkiyə, Azərbaycan-Pakistan, Azərbaycan-Rusiya, Azərbaycan-ABŞ tərəfdaşlığı Azərbaycanın digər dünya dövlətləri ilə münasibətlərində keyfiyyətcə yeni bir mərhələnin başlamasına təkan verdi. Sağlam təməllər üzərində qurulmuş ikitərəfli əməkdaşlıq əlaqələri bu ölkələr arasında münasibətləri inkişaf etdirdi. Hazırda Türkiyə Azərbaycanın ən etibarlı siyasi müttəfiqidir. Azərbaycan-Türkiyə münasibətləri bölgədə və dünyada sülhün bərqərar olması, təhlükəsizliyin təmin edilməsi işinə öz töhfəsini verir. Möhtərəm cənab Prezident, yüksək beynəlxalq nüfuza malik, Cənubi Qafqazın lider dövləti olan Azərbaycan Sizin apardığınız rasional və balanslaşdırılmış xarici siyasət nəticəsində BMT Baş Məclisinin plenar iclasında gizli səsvermənin nəticələrinə əsasən, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Sizin Azərbaycan Respublikasına rəhbərlik etdiyiniz dövrdə ölkəmiz qlobal informasiya məkanında mövqeyini möhkəmləndirmiş, erməni diasporunun, lobbisinin, Ermənistan dövlətinin və onun havadarlarının ölkəmizə qarşı apardığı informasiya müharibəsinə fəal müqavimət göstərmiş, hətta son dövrlərdə tam üstünlüyü ələ almışdır. Ölkəmizin beynəlxalq nüfuzunun artması isə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına əlavə imkanlar yaradır. Möhtərəm cənab Prezident, bu il sentyabrın 27-dən erməni separatçılarının Azərbaycan Ordusunu və mülki şəxsləri hədəfə alması, danışıqlar prosesini yenidən pozması qarşılığında erməni vandallarına dərs verərək, torpaqlarımızı işğaldan azad etmək qərarınız tərəfindən ruh yüksəkliyi ilə qarşılandı. Xalqımızın övladları Vətən yolunda canlarından keçməyə hazırdırlar. Şəxsən mən özüm də erməni vandalları ilə vuruşmağa hazıram. Bu uğurlu yolda hər zaman, son damla qanımıza kimi Sizin yanınızdayıq. Siz çox gözəl qeyd etdiniz ki, geriyə yol yoxdur. 30 il biz onlara şans verdik, artıq bəsdir. Sizin “Rossiya-1” telekanalına verdiyiniz müsahibədə çox sərrast və düzgün mövqe tutmağınız bütün dünyanın gözü qarşısında erməni tərəfinin haqsız olduğunu açıq-aydın göstərdi. Cənab Prezident, ölkəmizin ərazi bütövlüyünün bərpası yolunda Sizə və Ali Baş Komandanı olduğunuz şanlı Ordumuza yeni uğurlar diləyirik. Şəhidlərin qanı yerdə qalmayacaq, Milli Ordumuz Sizin komandanlığınızla onların qisasını alacaq. Yaşasın Azərbaycan! Yaşasın İlham Heydər oğlu Əliyev!”

Qəbələ rayonundan **Ayvver Nasibov:** “Hörmətli cənab Prezident, Cəbrayıl şəhərinin erməni işğalçılardan azad olunması münasibətilə Sizi və bütün Azərbaycan xalqını Udi xalqı adından ürəkdən təbrik edirəm. Arzu edirik və inanırıq ki, bütün Qarabağı azad edəcəyik. Azərbaycanda yaşayan azsaylı xalqlar və milli azlıqlar bir ailə kimi, tolerantlıq şəraitində yaşayırlar. Necə deyərlər, bir-birilərinə can deyib, can eşidirlər. Bütün dünya da bunu görür və Azərbaycanı tolerant, multikultural dəyərlərə sahib olan bir ölkə kimi tanıyır. Bircə bu bədnam qonşularımız ermənilərlə yola gedə bilmirik. Çünki onların niyyətləri məkrlidir. Həmişə kiminsə varına, mülkünə, torpağına göz dikiblər. Bələlərini torpaqlarımızdan qovub çıxarsaq yaxşıdır. Cənab Prezident, Sizə Qarabağ Qələbəsi arzulayıram”.

Qazax rayonunun sakini **Söylü Xəlilova:** “Hörmətli Prezidentimiz, cənab Ali Baş Komandan, bütün xalqımız kimi, biz - Qazax rayonu Araz Əmilov adına Daş Salahlı kənd 1 saylı tam orta məktəbin kollektivi də Sizin qətiyyətli rəhbərliyinizlə rəşadətli Azərbaycan əsgərlərinin qazandığı uğurlarla fəxr edirik. Sizə sonsuz minnətdarlığımızı bildiririk. İnanırıq ki, Sizin əzmkar komandanlığınız, Azərbaycan Ordusunun dönməz iradəsi, igidliyi və şücaəti sayəsində yaxın günlərdə ən böyük qələbəyə nail olacağıq. Tanrı Sizi qorusun”.

Ağcabədi rayonundan **Çingiz Hüseynov:** “Hörmətli cənab Prezident, Siz dünyanın ən savadlı, ən vətənpərvər və uzaqgörən dövlət başçısısınız. Mən Sizə bütün ağcabədililər adından təşəkkür edirəm. Düşmənin son günlər ağır artilleriya hücumuna biz ağcabədililər də məruz qalmışıq. Lakin bu, bizi qorxutmur, çünki arxamızda Sizin kimi mərd, qürurlu sərkərdə, sərhədimizdə heç nədən çəkinməyən, mətin, qəlbi Vətən eşqi ilə döyünən cəsur igidlərimiz var. Sizə cansağlığı arzu edirəm. Allah Ordumuzu qorusun. Allah Sizi və bütün türk millətini qorusun. Türkün türkdən başqa dostu yoxdur”.

Bakı şəhərinin sakini **Vidadi Xəlilov:** “Hörmətli cənab Prezident, qədim və zəngin tarixi, görkəmli elm və dövlət xadimləri ilə tanınan Cəbrayıl şəhərinin işğaldan azad olunması ilə əlaqədar cəbrayıllılara, bütövlükdə, xalqımıza müraciətiniz, təbrikiniz məni, ailəmi, qohumlarımı və dostlarımı qəlbən sevindirdi. Çox sağ olun. Əzminiz, qüdrətiniz var olsun. Allah Azərbaycan xalqına böyük Qələbənin sevincini yaşamağı nəsib etsin. Allah Sizi qorusun!”

Naxçıvandan **Şölə Süleymanova:** “Xalqının məğrur, igid və əvəzolunmaz Ali Baş Komandanı, Sizin bu şücaətiniz qarşısında bütün varlığımızla ehtiramımızı bildiririk. Siz bir qəhrəmanlıq tarixi yazırsınız. Ulu Öndərimiz Heydər Əliyevin və şəhidlərimizin ruhunu şad eləyirsiniz. Qələbə sevinci əsrlər boyu Azərbaycan xalqının ürəyində yaşayacaq silinməz izlər qoydu. Azərbaycan xalqına Sizin kimi parlaq bir günəş bəxş etdiyi üçün Ulu Öndərimizin yeri cənnət olsun. Biz Sizinlə öyünməyə haqlıyıq. Bütün varlığımızla Sizə bağlıyıq. Var olun. Allah Sizi düşmən fitnəsindən, bədnəzərdən qorusun!”

Sumqayıt şəhərindən **Əvəz Həsənov:** “Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizin rəhbərliyinizlə Ordumuzun apardığı uğurlu əməliyyatlar nəticəsində torpaqlarımızın müəyyən bir hissəsi işğaldan azad olunub. Bu münasibətlə Sizi və xalqımızı təbrik edirik. Hörmətli cənab Prezident, biz Sizinlə fəxr edirik. İnanırıq ki, rəşadətli Ordumuz Sizin rəhbərliyinizlə tezliklə bütün torpaqlarımızı işğaldan azad edəcək. Hörmətli cənab Prezident, Qubadlı rayonundan olan məcburi köçkünlər Sizin xarici və daxili siyasətinizi dəstəkləyir, ətrafınızda sıx birləşir. Xalqımızın rifahı naminə gördüyünüz bütün işlərdə Sizə yeni uğurlar arzulayırıq. Ulu Tanrı Sizi və ailənizi qorusun!”

Oğuz rayonundan **İlqar Çələbiyev:** “Möhtərəm cənab Prezident, bütün Azərbaycan xalqı kimi, mən də Sizinlə fəxr edirəm. Allah Sizə uzun ömür, cansağlığı versin. Sizin apardığınız uğurlu daxili və xarici siyasəti bəyənir və dəstəkləyirik. Siz bizim qürur mənbəyimizsiniz. Azərbaycan Ordusunun nail olduğu qələbələri bizlərə çatdıran zaman, gözlərinizdəki o sevinci görmək bizin üçün əvəzolunmaz bir duyğudur. Allah Sizin gözlərinizdən o sevinci heç zaman əksik etməsin. Mən və ailəm Sizə bu haqq yolunda yeni böyük uğurlar arzu edirik”.

Bakı sakini **Sevda Həşimova:** “Hörmətli cənab Prezident, Sizin rəhbərliyinizlə qüdrətli Ordumuzun qəhrəmanlığı ilə son günlər işğal altında olan doğma torpaqlarımızın bir hissəsinin mənfur düşməndən azad edilməsi xəbərləri bizdə qürur hissi yaradır. Buna görə Sizə minnətdarıq və bu haqq yolunda bütün Azərbaycan xalqı Sizin arxanızdadır. İnanırıq ki, çox tezliklə Sizdən Şuşanın azad olunması xəbərini eşidəcəyik. Sizə və bütün xalqımıza Qələbə əzmi yaşamağı arzu edirəm. Allah Sizi və ailənizi qorusun. Var olun, cənab Ali Baş Komandan!”

Şəmkirdən **İlkin Musayev:** “Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizin Rusiya Federasiyasının Soçi şəhərində keçirilən Valday forumunda səsləndirdiyiniz “Qarabağ Azərbaycandır!” kəlməsi bu gün bir daha müzəffər Ordumuz tərəfindən öz təsdiqini tapmaqdadır. İşğal olunmuş ərazilərimizin erməni quldurlarından ard-arda təmizlənməsi Sizin məqsədyönlü və uzaqgörən siyasətinizin nəticəsidir. Cənab Ali Baş Komandan, Sizi əmin etmək istəyirəm ki, biz şəmkirli gənclər Ordumuzun qələbələrindən ruhlanaraq, hər an döyüşə hazırıq. Yaşasın Müstəqil Azərbaycan! Yaşasın cənab Ali Baş Komandan!”

Füzulidən **Məhərrəm Orucovun** məktubunda deyilir: “Hörmətli Prezident, cənab Ali Baş Komandan, uzun illərdir ki, erməni qəsbkarlarının torpaqlarımızı işğal altında saxlaması xalqımızın, eləcə də Azərbaycan hökumətinin səbir kasasını doldurmuşdur. Son günlər işğal altında olan ərazilərimizin geri qaytarılması və beləliklə, ərazi bütövlüyümüzün bərpa olunması istiqamətində apardığınız daxili və xarici siyasəti dəstəkləyir və alqışlayıram. Hər an qələbə müjdəsi gözləyirəm. Bu gün, demək olar ki, siyasi mənsubiyyətindən asılı olmayaraq, hər bir kəs Sizin ətrafınızda sıx birləşib. Seçdiyiniz yol haqq yoludur. Ən qısa zamanda Qarabağın azad olunması xəbərini gözləyirik. Siz xalqımızın qürur mənbəyisiniz. Allah Sizi qorusun”.

Gəncə şəhərindən **Səbinə Əlizadə:** “Əziz Prezidentim cənab İlham Əliyev, Sizi və müzəffər Ordumuzu zəfərlər münasibətilə təbrik edir, bununla bağlı çox böyük minnətdarlığımı çatdırıram. Eşitdiyim hər zəfər xəbəri, inanın ki, məni sanki göylərə qaldırır. Suqovuşanın qayıdışı, Cəbrayılın 27 illik həsrətinin sonu gələcək uğurlarımızın müjdəçisidir. Tarix hər zaman igidlər və ərənlər yetişdirir. Hansı igidlər ki, onlar, sözün əsl mənasında, tarix yazırlar. Siz, əziz Prezidentim, bu gün Türkün şanlı tarixini yazırsınız. Qoy, Tanrı Sizi və səngərdə olan igidlərimizi qorusun. Qafqazın incisi Qarabağımıza qayıdışa doğru, İnşallah. Biz Sizə və aslan ürəkli igidlərimizə güvənirik və inanırıq. Tanrı Sizləri qorusun”.

Zaqataladan **Səfər Ramazanov:** “Hörmətli cənab Prezident, Azərbaycan xalqı qəhrəman xalqdır. Xalqımız Sizin kimi vətənpərvər övladlar yetişdirib. Sizin qətiyyətiniz hər bir Azərbaycan vətəndaşında qürur hissi doğurur. Bu gün hər birimiz torpağımızın bütövlüyü uğrunda canımızdan belə keçməyə hazırıq. İnanırıq ki, qəhrəman Azərbaycan Ordusu zəfər çalacaq, üçrəngli bayrağımızı doğma Qarabağımızda dalğalandıracaq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

Göyçaydan **Orxan Aslanov:** “Möhtərəm cənab Prezident, torpaqlarımızın geri qaytarılması üçün apardığınız uğurlu siyasətə görə Sizə Göyçay gəncləri adından böyük minnətdarlığımı bildirirəm. Cənab Prezident, bir neçə gündür ki, işğal altında olan torpaqlarımızın azad edilməsi xəbərini alır və qürur hissi keçiririk. Ümid edirik ki, şanlı Ordumuz mənfur düşmən üzərində qələbə çalacaq və işğal olunmuş torpaqlarımız geri qaytarılacaq. Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan Ordusu!”

Cəbrayıl sakini **Səbuhi Hüseynov:** “Hörmətli cənab Prezident, Sizə Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin çoxsaylı üzvləri və Cəbrayıl rayon sakinləri adından dərin minnətdarlığımızı bildirir və təbriklərimizi çatdırırıq. Sizin rəhbərliyinizlə Azərbaycanın ərazi bütövlüyü, sözün əsl mənasında, qorunur və torpaqlarımız düşmən tapdağından azad olunur. Məhz bu münasibətlə Siz başda olmaqla, bütün əsgər və zabitlərimizə cansağlığı, möhkəm iradə və xalqımıza qələbə sevinci bəxş edəcək bir yürüş, qalibiyyət arzulayırıq. Fəxr edirik ki, Sizin kimi dövlət başçımız var və gələcəyimiz etibarlı əllərdədir. Bir daha Sizi Vətən uğrunda canını və sağlamlığını qurban verən müharibə əlilləri adından təbrik edirik. İnşallah, Sizinlə Cəbrayılda görüşüb, ayağınız altında qurban kəsərik. Tanrı Sizi qorusun”.

Şamaxıdan **Əlixan Babayev:** “Möhtərəm cənab Prezident, Ordumuzun Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarının qarşısını uğurla alması, düşmənə sarsıdıcı zərbələr endirməklə qazandığı qələbələr xalqımız tərəfindən böyük sevinc və ruh yüksəkliyi ilə qarşılanır. Azərbaycan Ordusuna torpaqlarımızın azad olunması barədə əmr verdiyinizə görə Sizə təşəkkür edirəm. İnanırıq ki, Sizin rəhbərliyiniz altında tezliklə Azərbaycan Ordusu üçrəngli bayrağımızı doğma Qarabağımızın hər bir guşəsində dalğalandıracaq. Allah Sizi və xalqımızı qorusun!”

# Prezident Administrasiyası ilə Milli Məclisin deputatları arasında görüş keçirilib



Oktyabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə Milli Məclisin deputatları arasında “Dövlət idarəçiliyində siyasi-hüquqi islahatlar və icra hakimiyyəti ilə qanunverici hakimiyyət arasında əməkdaşlığın yeni mərhələsi” mövzusunda videokonfrans formatında görüş keçirilib.

Parlamentin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Milli Məclisin Sədri Sahibə Qafarovanın və Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin iştirakı ilə keçirilən görüşə parlamentə ilk dəfə seçilmiş deputatlar qatılıblar.

Tədbiri giriş sözü ilə açan Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə Ermənistanın son günlərdə cəbhə xəttində törətdiyi hərbi təxribatlar və Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatları barədə məlumat verib. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun əks-hücum əməliyyatları zamanı əldə olunan möhtəşəm qələbələrin hər birimizdə fəxarət və qürur hissi yaratdığını deyən Spiker bildirib: “Düşmənin bütün təxribatlarının qarşısı alınır, onlara layiqli şəkildə cavab verilir. Eyni zamanda diplomatiya sahəsində də Azərbaycan dövləti erməni təxribatlarının beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində məqsədyönlü iş aparır. Milli Məclis olaraq biz də bu məsələdə üzərimizə düşən vəzifələri yerinə yetirməyə çalışırıq. Ötən günlər ərzində Milli Məclis adından beynəlxalq parlament təşkilatlarına və milli parlamentlərə müraciətlər göndərilib, Milli Məclisin Sədri kimi mənim bir sıra ölkələrin parlament rəhbərləri ilə çoxsaylı telefon danışıqlarım olub”.

Konfransda müzakirə olunan mövzu ilə bağlı fikirlərini bölüşən Milli Məclisin Sədri qeyd edib ki, son illərdə Azərbaycanda bir çox sahələri əhatə edən geniş islahatlar həyata keçirilir. Xüsusilə ötən il Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan sistemli, kompleks xarakterli islahatlar ölkəmizin dinamik inkişafını təmin edib. Azərbaycanın iqtisadi imkanları genişlənib, buna paralel olaraq sosial sahədə inqilabi qərarlar qəbul olunub. Bu qərarlar vətəndaşların həyat standartlarının əsaslı şəkildə yüksəlməsinə imkan verib. Qlobal pandemiyanın tüğyan etdiyi cari ildə də Azərbaycan dövləti sosial dövlət fəlsəfəsinə sadiq qalaraq vətəndaşlarının yanında olub, heç bir sosial proqramı ixtisar etməyib.

Azərbaycanda siyasi və iqtisadi islahatların paralel şəkildə aparıldığını vurğulayan Spiker bildirib ki, bu islahatlar həm konseptual, həm də struktur xarakteri daşıyır. Sahibə Qafarovanın sözlərinə görə, islahatlar çərçivəsində siyasi sistemin təkmilləşdirilməsi də diqqət mərkəzində saxlanılır. Ölkəmizdə demokratik təsisatların möhkəmləndirilməsi, siyasi plüralizmin və çoxpartiyalı demokratik siyasi sistemin inkişaf etdirilməsi əsas məqsədlərdən biridir. Hazırda ölkəmizdə yeni siyasi konfiqurasiya yaranıb. Siyasi palitrada təmsil olunan siyasi qüvvələr arasında müsbət dialoq mühiti formalaşıb. Altıncı çağırış Milli Məclisdə aparılan islahatlar da siyasi sistemin yeni konfiqurasiyasının meydana çıxmasını şərtləndirib.

Spiker həmçinin Milli Məclisə ilk dəfə seçilən deputatların parlamentin işində, qanun yaradıcılığı prosesində fəal iştirak etdiklərini, seçicilərlə işin düzgün əsaslarda qurulmasında fəallıq göstərdiklərini də bildirib. Sahibə Qafarova Milli Məclisə ilk dəfə seçilən deputatlar arasında gənclərin də üstünlük təşkil etdiyini bildirərək deyib ki, bu da ölkəmizdə gənc kadrlara geniş imkanların yaradılması, onların idarəetmədə irəli çəkilməsi ilə bağlı atılan addımların daha bir uğurlu nəticəsidir.

Sonra Prezident Administrasiyasının şöbə müdiri Ədalət Vəliyev çıxış edərək Azərbaycan Respublikasının Prezidenti tərəfindən ölkədə davamlı surətdə aparılan siyasi-hüquqi islahatlar barədə danışıb, yeni siyasi konfiqurasiyanın qurulması istiqamətində indiyədək görülmüş işlər haqqında ətraflı məlumat verib. O, dövlət başçısının bilavasitə təşəbbüsü və rəhbərliyi ilə milli birliyə nail olmaq üçün atılan addımları qeyd edib, siyasi partiyalarla müntəzəm iş aparıldığını və sağlam əməkdaşlıq qurulduğunu, ölkədə yeni siyasi mədəniyyətin təşəkkül tapdığını diqqətə çatdırıb. Həmçinin qeyd olunub ki, bu gün siyasi partiyalar dövlətçiliyimizin təməl prinsiplərinin müdafiəsi və ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə milli birlik və həmrəylik nümayiş etdirir. Azərbaycanda siyasi partiyaların 32 illik fəaliyyəti tarixində 51 partiyanın ilk dəfə olaraq vahid təşəbbüslə çıxış etməsi, ölkə Prezidentinin Vətənin müdafiəsi, torpaqlarımızın işğaldan azad olunması uğrunda fəaliyyətini birmənalı dəstəkləməsi, onun haqlı mövqeyini və həyata keçirdiyi bütün tədbirləri sonadək müdafiə edəcəklərini yekdilliklə ifadə etməsi xüsusi vurğulanıb.

Qanunvericilik hakimiyyəti ilə əlaqələrin mövcud vəziyyətinə toxunan Ə.Vəliyev VI çağırış Milli Məclisin formalaşmasında qeydə alınmış mütərəqqi yeniliklərə diqqət çəkərək, ötən müddət ərzində parlamentə sağlam, demokratik mühit gətirildiyini, onun işində dönüş yarandığını və nüfuzunun həm ölkə daxilində, həm də beynəlxalq miqyasda kifayət qədər yüksəldiyini qeyd edib. Qanunverici orqanın fəaliyyətinin icra hakimiyyəti ilə qarşılıqlı əlaqələndirilməsinin daha da təkmilləşdirilməsi istiqamətində indiyədək görülmüş işlər və qarşıda duran vəzifələr barədə danışan şöbə müdiri deputatların yerlərdə vətəndaşlarla işinin yüksək səviyyədə təşkili üçün icra hakimiyyəti orqanlarına aidiyyəti tapşırıqların verildiyini bildirib. Eyni zamanda vətəndaş məmnunluğunun daha da yüksəldilməsi məqsədilə deputatlar tərəfindən seçicilərlə fəal iş aparılması ilə bağlı mövcud gözləntiləri diqqətə çatdırılıb.

Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun ölkəmizin ərazi bütövlüyünün bərpası üçün qətiyyətlə irəlilədiyi bu günlərdə hər kəsin milli birlik, ruh yüksəkliyi və döyüş əzmi nümayiş etdirməsi barədə danışan natiq ölkə Prezidenti ilə yanaşı, Birinci vitse-prezident xanım Mehriban Əliyevanın xalq-dövlət birliyinə, həmrəyliyimizə önəmli töhfələr verdiyini vurğulayıb. Ə.Vəliyev həmçinin dövlət başçısının müxtəlif çıxışları, bəyanatları, müsahibələri ilə Ermənistanın işğalçı siyasətini dünya birliyi qarşısında tutarlı faktlarla ifşa etdiyini bildirərək, vətəndaş məsuliyyəti hiss edən hər kəsin bu istiqamətdə son dərəcə təəssübkeş davranmasının vacibliyini xatırladıb.

Daha sonra deputatlar Əminə Ağazadə, Elnur Allahverdiyev, Nigar Arpadarai, Kamal Cəfərov, Elşad Mirbəşiroğlu, Etibar Əliyev, Tural Gəncəliyev, Nurlan Həsənov, Arzu Nağıyev, Afət Həsənova və Fatma Yıldırım çıxış ediblər. Çıxışlarda son illər dövlət başçısı tərəfindən ölkəmizdə aparılan siyasi-hüquqi, institusional və kadr islahatları, bu islahatların səbəb olduğu müsbət dəyişikliklər, habelə Milli Məclisin bu prosesdə yeri və rolu, fəaliyyətinin perspektivləri, eləcə də qanunverici hakimiyyət ilə icra hakimiyyəti arasında əlaqələrin daha da təkmilləşdirilməsi istiqamətləri təhlil edilib, aidiyyəti təkliflər verilib. Deputatlar həmçinin ərazi bütövlüyümüzün bərpa edildiyi bu şərəfli günlərdə Ali Baş Komandanın yanında olduqlarını, onun atdığı bütün addımlara dəstək verdiklərini və bu işi bütün imkanlarını səfərbər etməklə inamla davam etdirəcəklərini diqqətə çatdırıblar.

Tədbirin sonunda belə görüşlərin davamlı təşkilinin faydalı olacağı qeyd edilib.

# Pakistanın ölkəmizdəki yeni səfiri Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti və hərbi təxribatları barədə məlumatlandırılıb

**Oktyabrın 7-də Azərbaycan Respublikasının Milli Məclisinin Sədri Sahibə Qafarova Pakistan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bilal Haye ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Spiker Sahibə Qafarova səfir Bilal Hayeni ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edib. Milli Məclisin Sədri Pakistanın Azərbaycan üçün dost və qardaş ölkə olduğunu vurğulayaraq, ölkələrimiz arasında münasibətlərin dinamik inkişaf etdiyini bildirib. Sahibə Qafarova bir neçə gün əvvəl onun Pakistan İslam Respublikası Senatının Sədri Məhəmməd Sadiq Sancrani ilə telefon danışığı olduğunu məmnunluqla xatırladıb.

Görüşdə ölkələrimizin parlamentləri arasında da əlaqələrin hazırkı səviyyəsindən razılıq ifadə olunub. Spiker əmin olduğunu bildirib ki, səfir Bilal Hayenin fəaliyyəti ölkələrimiz arasında münasibətlərin bütün sahələr üzrə daha da inkişafına, o cümlədən parlamentlər arasında əlaqələrin daha da genişlənməsinə töhfə verəcək.

Səmimi görüşə görə minnətdarlığını bildirən səfir Azərbaycanda özünü çox xoşbəxt hiss etdiyini bildirib. O deyib ki, ölkəmizdə şahidi olduğu qonaqpərvərlik və xoş münasibət xalqlarımız arasında yaxınlığın və səmimi münasibətlərin göstəricisidir.

Görüşdə Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti və hərbi təxribatları barədə də məlumat verilib. Spiker Sahibə Qafarova qeyd edib ki, Ermənistan silahlı qüvvələri sentyabrın 27-də növbəti dəfə kəndlərimizə, hərbi mövqelərimizə hücum etməyə başlayıb. Buna cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatı keçirib və artıq işğal altındakı bəzi ərazilərimiz azad edilib.

Milli Məclisin Sədri qeyd edib ki, Ermənistan mülki şəxsləri və cəbhə xəttindən aralıda yerləşən şəhər və rayonlarımızı da hədəf alır. Bu, bir daha Ermənistanın cinayətkar rejiminin faşist mahiyyətini nümayiş etdirir.

Səfir ölkəsinin qardaş Azərbaycan xalqını Dağlıq Qarabağ məsələsində həmişə dəstəklədiyini bir daha bəyan edib.

Spiker ədalətli mövqeyinə və Azərbaycana göstərdiyi dəstəyə görə Pakistan İslam Respublikasına minnətdarlığını bildirib.

Sonda səfir Pakistan Milli Assambleyasının sədri Əsəd Qayser tərəfindən Milli Məclisin Sədrinə ünvanlanmış Pakistana səfərə dəvət məktubunu Sahibə Qafarovaya təqdim edib.

# Milli Məclisdə Almaniyanın Azərbaycandakı səfiri ilə görüş keçirilib

Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova oktyabrın 7-də Almaniya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Volfqanq Maniq ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Spiker Azərbaycanla Almaniya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, ticarət, turizm və digər sahələrdə uğurla inkişaf etdiyini bildirib. Sədr deyib ki, Almaniya Azərbaycanın vacib iqtisadi tərəfdaşlarından biridir. Humanitar, mədəniyyət, təhsil sahələrində münasibətlərin də inkişaf etdiyini söyləyən Sahibə Qafarova 200 il bundan əvvəl Azərbaycanda məskunlaşmış almanların mədəni irsinə dövlətimiz tərəfindən qayğı göstərildiyini bildirib.

Görüşdə iki ölkənin parlamentləri arasında əlaqələrin də inkişaf etdiyi vurğulanıb.

Səfir Volfqanq Maniq Azərbaycanın Almaniya üçün mühüm iqtisadi tərəfdaş olduğunu vurğulayaraq, ölkəsinin həm Azərbaycan hökuməti, həm də parlamenti ilə əməkdaşlığı genişləndirmək niyyətində olduğunu bildirib. O deyib ki, Almaniya mövcud olan möhkəm baza üzərində münasibətlərin daha da inkişafında maraqlıdır.

Spiker görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə geniş məlumat verib. O, Dağlıq Qarabağın tarixi Azərbaycan ərazisi olduğunu bildirib və əlavə edib ki, beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bununla bağlı bütün nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən müvafiq qərar və qətnamələr qəbul olunub.

Sahibə Qafarova münaqişənin uzun illərdir həll olunmamasının səbəbinin Ermənistanın işğalçılıq siyasəti və bu ölkənin törətdiyi təxribatlar olduğunu vurğulayıb. O xatırladıb ki, iyul ayında Ermənistan silahlı qüvvələri Tovuz rayonunda kəndlərimizi və hərbi mövqelərimizi atəşə tutub. Azərbaycan Ordusunun cavab tədbirləri nəticəsində düşmənin təxribatının qarşısı alınıb. Lakin Ermənistan təxribatlarını davam etdirib. Milli Məclisin Sədri deyib ki, Azərbaycan Prezidenti İlham Əliyev hətta BMT Baş Assambleyasında çıxışı zamanı Ermənistanın yeni müharibəyə hazırlaşdığını və onun dayandırılmalı olduğunu bildirmişdi.

Sahibə Qafarova sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti dəfə hərbi təxribatlara əl ataraq müxtəlif istiqamətlərdən bizim kəndlərimizə və hərbi mövqelərimizə hücum etdiyini deyib. O, qeyd edib ki, Azərbaycan Ordusu əks-hücum əməliyyatı həyata keçirərək düşmənin bu təxribatının qarşısını alıb, işğal altında olan bəzi ərazilərimizi azad edib. O, xüsusilə bildirib ki, beynəlxalq hüquqi prinsiplərə əməl etməyən Ermənistan mülki vətəndaşları hədəfə alır. Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə, digər böyük şəhəri olan Mingəçevir Ermənistan tərəfindən raketlərdən atəşə tutulub. Bu isə beynəlxalq hüquqa ziddir və Ermənistan tərəfindən Azərbaycana qarşı növbəti təcavüz aktıdır. Sahibə Qafarova qeyd edib ki, Azərbaycan Ordusu öz torpaqlarında döyüşür və Azərbaycanın heç kəsin torpağında gözü yoxdur. Azərbaycan xalqı torpaqlarımızın işğaldan tam azad olunmasını istəyir.

# *Xilas edilərək döyüş bölgəsindən təxliyə olunmuş Ermənistan vətəndaşı: "Azərbaycanda mənimlə çox yaxşı rəftar etdilər"*

**Bu gün xilas edilərək döyüş bölgəsindən təxliyə olunmuş Ermənistan vətəndaşı Aznif Baqdasaryan mətbuat konfransı keçirib.**



AZƏRTAC xəbər verir ki, mətbuat konfransında iştirak edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aynur Sofiyeva bildirib ki, Düşənbədə anadan olmuş Aznif Baqdasaryanın nənəsi Bakıda yaşayıb və o da hər yay Bakıya nənəsinin yanına gəlib.

A. Sofiyeva deyib ki, onunla söhbətdə Aznif Baqdasaryana da bildirilib ki, Azərbaycan xalqının erməni xalqı ilə heç bir işi yoxdur, sadəcə, məqsəd işğal altındakı torpaqlarımızı azad etməkdir. Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, Azərbaycan Ordusunun dinc əhali ilə heç bir işi yoxdur.

A. Baqdasaryan deyib: "Mənim üçün pis xalq və pis insan olmayıb. Biz də müharibə istəmirik. Biz də övladlarımızın yetim, evsiz qalmasını istəmirik. Sovet İttifaqında olduğu kimi, bir yerdə yaşamaq istəyirik. Biz, əsasən, sülhpərvər əhaliyik. Bombalardan mülki insanlar əziyyət çəkir. Onlardan biri də mənəm. Bomba zərbəsi zamanı huşumu itirmişdim, ayılanda gördüm ki, təkcəyəm, heç kim qalmayıb. Üç sutka ərzində mağazada kimsəsiz, tək qaldım. Məni hər zaman qorxudurdular ki, azərbaycanlıların əlinə düşsəm, öldürüləcəyəm. Ona görə qorxurdum. Ancaq tam əksinə oldu, mənimlə çox yaxşı rəftar etdilər".

A. Baqdasaryan iki xalqın uzun müddət dostluq şəraitində yaşadığını bildirib: "Biz yüz illərlə müharibə aparmalı deyilik. İstəmirik ki, analar uşaqlarının ölümünə ağlasın, uşaqlar isə yetim qalsın".

A. Baqdasaryan Azərbaycanda mülki şəxs kimi ona isti münasibət göstərildiyini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələrinin də onunla mehriban davrandıqlarını deyib: "Mənə xoş xatirələrimin olduğu Bakını göstərdilər, nənəmgilin yaşadığı evi göstərdilər. Çay içdik, qutab, paxlava yedik. Sizin qutab, paxlava mənim xoşuma gəlir, dünyanın ən yaxşı qutab və paxlavası sizindir. İki xalqın yenə dostluq və sülh şəraitində yaşamasını istəyirəm".

# Ermənistanın müharibə cinayətləri davam edir - Ağdam rayonundan görüntülər









Ermənistan silahlı qüvvələri Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələri, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından atəşə tutmağa davam edir.

AZƏRTAC xəbər verir ki, düşmən oktyabrın 7-də gecə saatlarından başlayaraq rayonun işğal altında olmayan yaşayış məntəqələrini intensiv atəşə tutub. Nəticədə Xındırıstan kənd sakini 1945-ci il təvəllüdlü Əliyeva Zərifə Qamboy qızı həlak olub, vətəndaşlara məxsus 1 ev dağılıb, 10 evə, 4 yardımçı tikiliyə, 114 nömrəli köçkün ümumi məktəbinə, elektrik və qaz təsərrüfatlarına ziyan dəyib. Dörd baş iribuynuzlu, 41 baş xırdabuynuzlu heyvan, 2 baş at tələf olub.

Erməni vəhşiliyinin izlərini fotolarda təqdim edirik.

# Füzulidə dinc sakinlərin məskunlaşdığı yaşayış məntəqələri hədəf alınır

Azərbaycan əsgəri ilə üz-üzə döyüşməkdən qaçan erməni faşistləri mülki əhalini hədəf almaqda davam edirlər. Bu təxribatın törədilməsində məqsəd dinc sakinləri təşvişə salmaqdır.





AZƏRTAC xəbər verir ki, hədəf alınan yaşayış məntəqələrimiz arasında Füzuli rayonunun kəndləri də var. Düşmən bu gün yenidən Füzulidə dinc sakinlərin məskunlaşdığı kəndləri ağır artilleriyadan atəşə tutub, evlər dağılıb, infrastruktura ciddi ziyan dəyib.

Kənd sakinləri bildirirlər ki, əsgərlərimiz düşmənə layiqli cavab verirlər. Öz mövqelərini, silah-sursatlarını, hərbi texnikalarını atıb qaçan ermənilər təşviş içində dinc sakinləri hədəf alırlar.

Mərmilər evlərə ciddi ziyan vursa da, sakinlər qorxmurlar və Azərbaycan Ordusuna güvənirlər. Onlar Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Şuşada, Xankəndidə üçrəngli bayrağımızı dalğalandıracağına əmindirlər.

Qeyd edək ki, sentyabrın 27-si səhər saatlarından Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub. Dinc sakinlər hədəf alınıb, onların evlərinə, əmlaklarına və infrastruktura ciddi ziyan dəyib. Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhəboyu əks-hücum əməliyyatına başlaması barədə qərar verilib.





# Cəbrayılın işğaldan azad edilmiş Şükürbəyli kəndindən ilk fotolar







**AZƏRTAC işğaldan azad olunan Cəbrayıl rayonunun Şükürbəyli kəndindən çəkilmiş ilk fotoları təqdim edir.**

Azərbaycan əsgəri oktyabrın 4-də Cəbrayıl şəhərini, rayonun bir neçə yaşayış məntəqəsini, o cümlədən Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan, Decal kəndlərini işğalçılardan təmizləyib. Ondan bir gün əvvəl - oktyabrın 3-də isə Tərtər rayonunun Talış kəndi, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndləri, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi azad olunub. İndi bu kəndlərdə Azərbaycan bayrağı dalğalanır. Qarabağ Azərbaycandır!

Qeyd edək ki, sentyabrın 27-si səhər saatlarından Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub. Dinc sakinlər hədəf alınıb, onların evlərinə, əmlaklarına və infrastruktura ciddi ziyan dəyib. Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhəboyu əks-hücum əməliyyatına başlaması barədə qərar verilib.

# Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Dağlıq Qarabağ məsələsində Fransanın mövqeyinə dair bəyanat yayıblar

**Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Dağlıq Qarabağ məsələsində Fransanın mövqeyinə dair bəyanat yayıblar. AZƏRTAC bəyanatı təqdim edir:**

Fransa prezidenti Emmanuel Makron sentyabrın 30-u Latviyanın paytaxtı Riqada Ermənistan-Azərbaycan münaqişəsi və cəbhədə baş verənlərə toxunaraq həqiqətə uyğun olmayan qeyri-ciddi açıqlamalar verib. Daha sonra Fransa kimi dövlətin prezidenti olaraq saxta məlumatlar və şayiələr əsasında, heç bir dəlil-sübutsuz ölkəmizə qarşı böhtan atıb. Bu açıqlamalar Azərbaycan ictimaiyyətinin kəskin etirazına səbəb olub və biz qəti əminik ki, Fransa ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi tərəfsizliyini qoruya bilmir.

1993-cü ildə Fransa özü BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasını tələb edən məlum dörd qətnaməsinin lehinə səs verən ölkədir.

İndi isə Fransa təcavüzkar Ermənistan ilə işğala məruz qalmış Azərbaycan arasında fərq qoymur və qərəzli surətdə işğalçı Ermənistanı müdafiə edir.

Fransa işğalçı Ermənistanı dəstəkləyir, obyektiv deyil, işğalçının yanındadır və vasitəçilik missiyasını yerinə yetirmir. Ona görə də Fransanın Minsk qrupu həmsədrliyindən çıxarılması müzakirə edilməlidir.

Biz əminik ki, vasitəçi tərəfsiz və ədalətli olmalıdır. Azərbaycan işğalçıya qarşı Vətən müharibəsi aparır. Ölkəmiz Ermənistanın işğal etdiyi torpaqlarını azad etmək üçün bütün hallarda beynəlxalq hüquqa əsaslanır.

Fransa Əlcəzairdə, Vyetnamda, Cibutidə, Çadda, Qabonda, Tunisdə soyqırımları törətmiş bir ölkədir.

Biz qəti əminik ki, beynəlxalq dəyərlərə fərqli münasibət göstərmək olmaz. Makrona məsləhət görərik ki, Azərbaycana Dağlıq Qarabağla bağlı məsləhətlər verib uca bəyanatlar səsləndirməkdənsə, Korsika xalqının millətlərin öz müqəddəratını müəyyən etmək prinsipinə necə yanaşırsa, Dağlıq Qarabağ mövzusuna da eyni münasibət göstərsin.

E.Makron 21-ci əsrdə Ermənistan Azərbaycanı "yeni torpaqlar üçün yeni müharibə" ilə hədələyəndə, beynəlxalq humanitar hüquqa zidd olaraq işğal olunmuş ərazilərimizdə qanunsuz məskunlaşdırma siyasəti aparanda və bunu internetdə nümayişkarcasına göstərəndə açıqlamalar verməli idi. Lakin bunu etmədi. Halbuki həmsədr ölkə kimi bu məsələlər birbaşa Fransanı da narahat etməliydi. Bu, açıq şəkildə Fransanın qərəzini sübut edir.

Azərbaycana qərəzli mövqe göstərmək əvəzinə, Fransa prezidenti öz tarixlərinə nəzər yetirərək ölkəsinin müstəmləkəçi siyasətini yada salmalıdır. Azərbaycan öz torpağında işğalçıya qarşı mübarizə aparır.

Azərbaycanın işi haqq işidir. Bizim mövqeyimiz həm beynəlxalq hüquqa, həm də tarixi ədalətə əsaslanır. Qarabağ Azərbaycandır!

Azərbaycanda bütün siyasi qüvvələr Qarabağ məsələsi ilə bağlı Ali Baş Komandan İlham Əliyevin yanındadır. Biz Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Prezident İlham Əliyevin münaqişəyə son qoyulması ilə bağlı bütün şərtlərini dəstəkləyirik. Münaqişənin həlli üçün Ermənistan ordusu işğal etdiyi bütün Azərbaycan torpaqlarından çıxmalı və Vətənimizin ərazi bütövlüyü tam olaraq bərpa edilməlidir. Bu, Azərbaycan xalqının tarixi haqqıdır və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələbidir. Yalnız bu halda regionda dayanıqlı sülhə nail olmaq mümkündür.

Biz siyasi partiyalar olaraq bəyan edirik ki, bu açıqlamaları ilə Fransa prezidenti Azərbaycan-Fransa münasibətlərinə ciddi zərbə vurmuşdur. Biz açıq-aşkar işğalçını dəstəkləyən Fransanı bundan sonra ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi görmürük.

1. Yeni Azərbaycan Partiyası - Əli Əhmədov
2. Vətəndaş Həmrəyliyi Partiyası - Sabir Rüstəmxanlı
3. Ana Vətən Partiyası - Fəzail Ağamalı
4. Böyük Quruluş Partiyası - Fazil Mustafa
5. Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası - Qüdrət Həsənquliyev
6. Demokratik İslahatlar Partiyası - Asim Mollazadə
7. Vəhdət Partiyası - Tahir Kərimli
8. Vətəndaş Birliyi Partiyası - Sabir Hacıyev
9. Azərbaycan Demokratik Maarifçilik Partiyası - Elşən Musayev
10. Milli Cəbhə Partiyası - Razi Nurullayev
11. ReAL Partiyası - İlqar Məmmədov
12. Azərbaycan Ümid Partiyası - İqbal Ağazadə
13. Milli Dirçəliş Hərəkatı Partiyası - Fərəc Quliyev
14. Azərbaycan Demokrat Partiyası - Sərdar Cəlaloğlu
15. Azərbaycan Xalq Partiyası - Pənah Hüseyn
16. Ədalət Partiyası - İlyas İsmayılov
17. Klassik Xalq Cəbhəsi Partiyası - Mirmahmud Fəttayev
18. Azad Demokratlar Partiyası - Sülhəddin Əkbər
19. Azərbaycan Liberal Partiyası - Əvəz Temirxan
20. Azərbaycan Milli İstiqlal Partiyası - Arzuxan Əlizadə
21. Aydınlar Partiyası - Qulamhüseyn Əlibəyli
22. Azərbaycan Respublikaçılar Partiyası - Sübut Əsədov
23. Azərbaycan Sosial Demokrat Partiyası - Araz Əlizadə
24. Azərbaycan Sosial Rifah Partiyası - Əsli Kazımova
25. Böyük Azərbaycan Partiyası - Elşad Musayev
26. Milli Vəhdət Partiyası - Yunus Oğuz
27. AĞ Partiya - Tural Abbaslı
28. Müasir Müsavat Partiyası - Hafiz Hacıyev
29. Azərbaycan Liberal Demokrat Partiyası - Fuad Əliyev
30. Azərbaycan Yurddaş Partiyası - Mais Səfərli
31. Azadlıq Partiyası - Əhməd Orucov
32. Azərbaycan Naminə Alyans Partiyası - Abutalıb Səmədov
33. Azərbaycan Azad Respublikaçılar Partiyası - Kamil Seyidov
34. Cümhuriyyət Xalq Partiyası - Bədrəddin Quliyev
35. Demokratik Azərbaycan Dünyası Partiyası - Əlisahib Hüseynov
36. Yeni Zaman Partiyası - Musa Ağayev
37. Vətəndaş və İnkişaf Partiyası - Əli Əliyev
38. Azərbaycan Xalq Demokratik Partiyası - Rafiq Turabxan
39. Azərbaycan Kommunist Partiyası - Hacı Hacıyev və Rauf Qurbanov
40. Milli Konqres Partiyası - İxtiyar Şirinov
41. Müstəqil Xalq Partiyası - Əflan İbrahimov
42. Vahid Azərbaycan Milli Birlik Partiyası - Hacıbaba Əzimov
43. Azərbaycan Milli Demokrat Partiyası - Tufan Kərimov
44. Azərbaycan Təkamül Partiyası - Teyyub Əliyev
45. Birlik Partiyası - Xudadat Xudiyev
46. Gələcək Azərbaycan Partiyası - Ağasif Şakiroğlu
47. Azərbaycan Milli Hərəkat Partiyası - Samir Cəfərov
48. Azərbaycan Mübarizləri Partiyası - Ağadur Müslümov
49. Qorqud Partiyası - Firudin Kərimov
50. Milli Demokrat İdrak Partiyası - Osman Əfəndiyev.

# Britaniya parlamentinin üzvü Bob Bləkmən Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qətnamə irəli sürüb

Böyük Britaniya parlamentinin İcmalar Palatasının üzvü, Azərbaycanla dostluq qrupunun sədri Bob Bləkmən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamə irəli sürüb.

AZƏRTAC xəbər verir ki, qətnamədə Ermənistanın 27 sentyabr tarixindən başlayaraq Azərbaycana qarşı təcavüzkarlıq aktları həyata keçirdiyi və bunun Ermənistan ilə Azərbaycan arasında silahlı münaqişəni daha da gərginləşdirdiyi qeyd olunur. Sənəddə bu silahlı münaqişənin kökündə Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ona bitişik yeddi rayonu qanunsuz hərbi nəzarəti altında saxlamasının dayandığı bildirilir. Qətnamədə 1990-cı illərin əvvəlində bu münaqişə nəticəsində 30 min insanın həyatını itirdiyi, bir milyondan çox insanın öz doğma yurd-yuvalarını tərk edərək məcburi köçkün vəziyyətinə düşdüyü vurğulanır.

İcmalar Palatası Böyük Britaniya hökumətini 1994-cü ildə imzalanmış atəşkəs sazişini kobud şəkildə pozduğuna, Azərbaycanın silahlı qüvvələrinin mövqelərinə və mülki şəxslərə qarşı intensiv hücumlar edərək iriçaplı silahlardan, minaatanlardan və artilleriyadan istifadə etdiyinə görə Ermənistanı qınamağa çağırır. Bundan əlavə, sənəddə Böyük Britaniya hökuməti BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrdə də qeyd olunduğu kimi, Ermənistandan hərbi qüvvələrini Azərbaycanın qanunsuz olaraq işğal edilmiş ərazilərindən çıxarmasını tələb etməyə çağırılır.

# Ədliyyə naziri xarici həmkarlarına müraciət edib

Azərbaycan Respublikasının Ədliyyə naziri Fikrət Məmmədov Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi təxribatı ilə bağlı xarici ölkələrin Ədliyyə nazirlərinə rəsmi müraciət ünvanlayıb.

Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müraciətdə 30 ildən artıq davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin milyondan çox insanın taleyinə ciddi təsir göstərmiş faciəvi nəticələri qeyd olunub.

Azərbaycanın tarixi torpaqlarına ərazi iddiaları irəli sürən Ermənistanın 90-cı illərin əvvəllərində hərbi təcavüzə başladığı, Azərbaycan əhalisinin etnik təmizləməsini həyata keçirərək Dağlıq Qarabağı və ətraf yeddi rayonunu işğal etdiyi, bir milyon insanın qaçqın və məcburi köçkünə çevrildiyi bildirilib.

Qeyd edilib ki, 1994-cü ildə atəşkəs rejiminə nail olduqdan sonra münaqişənin sülh yolu ilə həlli istiqamətində vasitəçilik missiyası - ATƏT-in Minsk qrupu tərəfindən danışıqların aparılmasına baxmayaraq, Ermənistan müxtəlif bəhanələrlə davamlı olaraq münaqişənin sülh yolu ilə həllini uzatmış və ona sərf edən status-kvonu davam etdirərək özgə torpaqlarını işğal altında saxlamaqla bu günədək orada qanunsuz iqtisadi fəaliyyət göstərməyi və bu ərazilərin qanunsuz məskunlaşdırmasını həyata keçirir. Bununla da o, kobud şəkildə beynəlxalq hüquq normalarını, xüsusilə 1949-cu il Cenevrə Konvensiyalarını pozur.

Eyni zamanda Ermənistanın hazırkı rəhbərliyinin hakimiyyətə gəldiyi andan açıq-aşkar danışıqlar prosesini pozmağa başlayaraq Dağlıq Qarabağın statusu məsələsinin danışıqların predmeti olmasına baxmayaraq, hərbi təxribatlara və müharibəyə açıq təhrik edən "Qarabağ Ermənistandır və nöqtə" və "Yeni ərazilər üçün yeni bir müharibə" şüarları ilə çıxışlar etdiyi vurğulanıb.

Təəssüflə qeyd olunub ki, beynəlxalq ictimaiyyətin heç bir reaksiya göstərməməsi təcavüzkarın əl-qolunu açaraq sərhəd bölgələrində hərbi təxribatları intensivləşdirib.

Müraciətdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin Baş Assambleyasının 75-ci sessiyasında çıxışı zamanı bu məsələləri ətraflı şəkildə və dəqiq faktlarla dünya ictimaiyyətinin diqqətinə çatdırması qeyd olunub.

Hadisələrin pik həddi isə bu il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin hərbi mövqelərimizi və ən dəhşətlisi, yaşayış məntəqələrimizi və dinc sakinlərimizi qəsdən və məqsədyönlü şəkildə ağır artilleriya qurğularından atəşə tutmağa başlaması olub.

Hücum nəticəsində bu günlər ərzində təkcə hərbçilərimiz deyil, eyni zamanda 7 qadın və 3 uşaq olmaqla 27 dinc sakin həlak olub, 140-dan çox mülki şəxs yaralanıb. Bundan əlavə, doğum evi, uşaq bağçası, məktəb, rayon məhkəməsinin binası və sair daxil olmaqla 450-dək yaşayış binası və mülki obyekt dağıdılıb və ya ciddi ziyan dəyib.

Hərbi təcavüz nəticəsində cəbhə xəttində yaranmış vəziyyətlə bağlı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciət etdiyi vurğulanaraq ölkəmizin BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq özünümüdafiə hüququna əsaslanmaqla Ermənistanı sülhə məcbur etmək məqsədilə əks-hücum əməliyyatlarını aparmağa vadar olduğu qeyd edilib.

Doğma torpaqları uğrunda və yalnız öz ərazilərində vuruşan ordumuzun uğurlu əks-hücumunu görən Ermənistan tərəfi beynəlxalq hüquq normaları ilə istifadə olunması qadağan edilmiş kasset bombaları ilə dinc şəhər və kəndləri güclü atəşə tutmaqdadır.

Beləliklə, təmas xəttindən onlarca kilometr məsafədə yerləşən paytaxtdan sonra ikinci böyük, qədim şəhər olan Gəncə ciddi raket atəşinə tutulub. Bundan əlavə, hərbi əməliyyatlar aparılan yerdən 100 kilometrdən çox məsafədə yerləşən böyük bir sənaye mərkəzi və ərazisində iri su anbarı və enerji obyekti olan Mingəçevir şəhərinə raket zərbəsi endirilib.

Nazir xüsusilə qeyd edib ki, Ermənistan ərazisindən endirilən bu zərbələr ölkəmizi cavab zərbəsinə təhrik edərək üçüncü ölkələri hərbi əməliyyatlara cəlb etmək məqsədi daşıyır.

Ermənistan beynəlxalq normalara zidd olaraq xarici ölkələrdən hərbi muzdluları cəlb edir və onlardan istifadə edir, bundan əlavə, beynəlxalq arenada sosial şəbəkələrdən geniş istifadə olunmaqla Azərbaycana qarşı terror və digər cinayət əməllərinə çağırışlar edilir.

Mülki infrastrukturun atəşə tutulması və dağıdılması nəticəsində dinc sakinlərin həlak olması ilə bağlı beynəlxalq humanitar hüququn pozulmasına dair Azərbaycanın Baş Prokurorluğu tərəfindən onlarca cinayət işinin açılması barədə məlumat verilib.

Erməni silahlı qüvvələrinin işğal altında olan ərazilərimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT-nin Təhlükəsizlik Şurasının (822, 853, 874 və 884 nömrəli) dörd qətnaməsinin və Qoşulmama Hərəkatı, ATƏT, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı kimi aparıcı beynəlxalq təşkilatların digər analoji qərarlarının artıq təxirəsalınmadan dərhal icra edilməsinin və ədalətin bərpa edilməsi üçün beynəlxalq hüququn tam gücünü tətbiq etməsinin zəruriliyi diqqətə çatdırılıb.

Ədliyyə naziri davam edən təcavüz nəticəsində yaranmış vəziyyəti nəzərə alaraq, mövcud beynəlxalq hüquq mexanizmlərinin reallaşdırılması və ədalət, sülh və əmin-amanlığın bərpa olunması naminə həmkarlarını real əməllər görməyə, xüsusilə muzdlu hərbçilərin münaqişə zonasına göndərilməsi üçün qanunsuz cəlb olunmasının və onların ölkələrinin ərazisində digər qanunsuz hərəkətlərin qarşısının alınması məqsədilə müvafiq preventiv tədbirlər həyata keçirməyə çağırıb.

Müraciətin sonunda ədalət mühakiməsinə və ədliyyəyə məsul şəxs olaraq həmkarlarının bu məsələdə iştiraksız qalmayacaqlarına və beynəlxalq hüququn görünməmiş pozuntularına qarşı öz səlahiyyətləri çərçivəsində müvafiq tədbirlər görəcəklərinə əminlik ifadə olunub.

# Azərbaycanın Ali Məhkəməsi Ermənistanın hərbi təxribatları ilə əlaqədar dünya ölkələrinin Ali məhkəmələrinə bəyanat göndərib

Azərbaycan Respublikasının Ali Məhkəməsi Ermənistanın Azərbaycana qarşı hərbi təxribatlarının qarşısının alınması məqsədilə görülən tədbirlərlə bağlı bəyanat qəbul edib.

Ali Məhkəmənin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bəyanat dünya ölkələrinin, o cümlədən Avropa Şurasının üzv dövlətlərinin Ali məhkəmələrinə göndərilib.

Bəyanatda deyilir: "Ermənistan Respublikasının silahlı qüvvələri 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini, eləcə də yaşayış məntəqələrini intensiv atəşə tutaraq təmas xətti boyunca Azərbaycan Respublikasına qarşı genişmiqyaslı hərbi əməliyyatlara başlayıb.

Bu hərbi təcavüzə cavab olaraq Azərbaycanın Silahlı Qüvvələri özünümüdafiə hüququna və beynəlxalq humanitar normalara əsaslanaraq, Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 51-ci maddəsinə tam uyğun surətdə Ermənistanın işğalçı qüvvələrinə qarşı əks-hücum əməliyyatlarını davam etdirir.

Sentyabrın 27-dən etibarən təmas xəttindən 50-250 kilometr məsafədə yerləşən şəhər və kəndlərimizdə - Gəncə, Biləsuvar, Tərtər, Ağcabədi, Bərdə, Xızı və digər yaşayış məntəqələrimizdə azərbaycanlı mülki əhalinin davamlı olaraq atəşə tutulması nəticəsində üçü uşaq olmaqla 29 mülki şəxs həlak olub və 144-dən çox şəxs müxtəlif dərəcəli xəsarətlər alıb.

Həmçinin əhalinin 500-ə yaxın mülkü, o cümlədən xüsusi mülkiyyət, su anbarı və Mingəçevirdəki Elektrik Stansiyası, Xəzər dənizindən Avropaya xam neft və təbii qaz tədarük edən enerji boru kəmərləri (Bakı-Tbilisi-Ceyhan boru kəməri və Cənubi Qafqaz Boru Kəməri) və Tərtər bölgəsindəki regional məhkəmə binası Ermənistan silahlı qüvvələrinin atəş hədəfləri olub.

Bu son hadisələr Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzünün və Azərbaycana qarşı son təxribatlarının davamıdır. Belə ki, 2020-ci ilin iyulunda Ermənistan silahlı qüvvələri təcavüzkar ekspansionist siyasətini Dağlıq Qarabağ bölgəsindən şimala doğru dəyişdirərək Azərbaycanın Tovuz rayonu istiqamətində hərbi qulluqçuları və mülki şəxsləri öldürərək hərbi mövqelərə və mülki obyektlərə ağır artilleriya zərbələri endirib.

İndiki Ermənistan-Azərbaycan silahlı qarşıdurmasının kökündə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış və tarixən Azərbaycan torpaqları olan Dağlıq Qarabağ bölgəsi və ona bitişik yeddi rayonun qanunsuz işğalı ilə bağlı erməni siyasəti dayanır.

Bu gün Azərbaycan ərazilərinin təxminən 20 faizi qeyri-qanuni erməni işğalı altındadır və Azərbaycanın mülki əhalisinə qarşı aparılan etnik təmizləmə nəticəsində 1 milyondan çox qaçqın və məcburi köçkün evlərindən qovulub, 20 min insan öldürülüb, 50 min insan yaralanıb və ya əlil olub, təxminən 5 min nəfər Azərbaycan vətəndaşı hələ də itkindir.

1992-ci ilin fevralında Xocalı şəhərində azərbaycanlı mülki əhaliyə qarşı misli görünməmiş bir qırğın törədildi. Fevralın 25-dən 26-sına keçən gecə Ermənistan silahlı qüvvələri 106 qadın, 63 uşaq və 70 qoca olmaqla 613 mülki şəxsi qətlə yetirib. Bundan başqa, 1275 sakin girov götürülüb, 150 nəfərin taleyi bu günə qədər bilinmir. Bəşəriyyətə qarşı bu dəhşətli cinayəti törədənlər indiyədək tutulmayıb və məsuliyyətə cəlb olunmayıblar.

Mövcud silahlı münaqişənin sülh yolu ilə həlli üçün ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar da daxil olmaqla bütün beynəlxalq diplomatik səylərin Ermənistan hökuməti və rəhbərliyinin qeyri-konstruktiv yanaşması səbəbindən bu günə qədər uğursuz olduğu xüsusi olaraq vurğulanmalıdır.

Ermənistan hökuməti Dağlıq Qarabağı və ona bitişik rayonları Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyan və Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını nəzərdə tutan Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874, 884 saylı qətnamələrini, Qoşulmama Hərəkatı, Avropa Şurası və Avropa Birliyi kimi aparıcı beynəlxalq təşkilatların bir sıra qətnamələrini açıq şəkildə yerinə yetirməyib.

Bundan əlavə, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "Çıraqov və başqaları Ermənistana qarşı" qərarında (№ 13216/05, 16 iyun 2015) qeyd olunur: "Dağlıq Qarabağ münaqişəsinin ilk günlərindən etibarən Ermənistanın "Dağlıq Qarabağ respublikası" üzərində əhəmiyyətli və həlledici təsiri olub. Bu iki qurumun praktik olaraq bütün vacib məsələlərdə yüksək səviyyədə inteqrasiyası bu günə qədər davam edir. Başqa sözlə desək, "Dağlıq Qarabağ respublikası" və onun rəhbərliyi Dağlıq Qarabağ və ətraf ərazilər üzərində təsirli nəzarəti həyata keçirən Ermənistanın ona verdiyi hərbi, siyasi, maliyyə və digər dəstək sayəsində yaşayır..."

Azərbaycan Respublikasının sərhədlərinin xarici təhdidlərə qarşı toxunulmazlığını qoruması və ərazilərindəki hər kəsin insan hüquq və azadlıqlarını təmin etməsi 1949-cu il Cenevrə Konvensiyaları və onların Əlavə protokolları da daxil olmaqla, beynəlxalq hüquqa dair bütün vəzifələrinə və öhdəliklərinə uyğundur. Azərbaycan hökuməti hər zaman silahlı qüvvələrin döyüşçülərlə mülki şəxsləri, hərbi obyektlərlə mülki obyektləri ayırd etməsini tələb edən beynəlxalq humanitar hüququn təməl prinsipinə əməl etdiyini bəyan edir. Bundan əlavə, Azərbaycan Silahlı Qüvvələri mülki insanları hədəfə alma və ya mülki insanların əmlakına zərər vuran hücumlara qarşı mütləq qadağaya hörmət etmək öhdəliyini təsdiqləyir.

Biz Azərbaycan hökumətinin ərazi bütövlüyünü bərpa etmək və bütün məcburi köçkünlərin hüquqlarını bir daha təsdiq edərək öz evlərinə qayıtmalarını təmin etmək səylərinin tərəfdarıyıq. Bununla bölgədə həqiqi və davamlı sülhə kollektiv şəkildə nail olmaq mümkündür.

Qanunun aliliyinin gücləndirilməsinə, insan hüquqlarının və əsas azadlıqlarının qorunmasına yönəlmiş çoxtərəfli səylərimizi dəstəkləməyinizi gözləyirik".

# Azərbaycandakı xristian icmalarının rəhbərləri Fransa Prezidentinə müraciət ünvanlayıblar

Azərbaycandakı xristian icmaları rəhbərləri Fransa Prezidenti Emmanuel Makrona müraciət ünvanlayıblar.

AZƏRTAC müraciətin mətnini təqdim edir:

"Sizin Latviyaya son səfəriniz zamanı etdiyiniz çıxışla tanış olduq. Biz - Azərbaycanda yaşayan xristian icmalarının rəhbərləri təmsil etdiyimiz icma üzvlərinin iradə və istəyi ilə Sizə müraciət edir, həmin çıxışda bizi narazı salan, heysiyyatımıza toxunan fikirlərlə bağlı etirazımızı diqqətinizə çatdırmaq istəyirik.

Azərbaycan bizim Vətənimizdir və biz xristianlar əsrlər boyunca burada öz dini ibadət və tələbatlarımızı heç bir maneə olmadan həyata keçiririk, öz mənəvi dəyər və mədəni ənənələrimizi yüksək səviyyədə yaşatmaq imkanlarına malikik. İcmalarımız və dini ibadət məkanlarımız Azərbaycan dövləti tərəfindən həmişə diqqət və qayğı ilə əhatə olunmuşdur. Tarixən səmavi dinlərin məskəni olmuş, xristianlığın erkən məkanlarından biri olan, Qafqaz Albaniyası dövlətinin mövcudluğu zamanında İsa Məsihin apostolları Fadey və Varmolofey tərəfindən ilk xristian icmalarının formalaşdığı Azərbaycan hazırda dünya miqyasında dinlərarası əməkdaşlığın mərkəzlərindən biri kimi tanınır. Biz multikulturalizmi dövlət siyasəti qismində həyata keçən dövlətimizlə və Azərbaycan milli kimliyinin ayrılmaz hissəsi olmağımızla fəxr edirik.

Biz vətəndaşı olduğumuz Azərbaycan Respublikasının dünya birliyi tərəfindən tanınan sərhədləri daxilində öz torpaqlarının işğaldan azad edilməsi, ərazi bütövlüyünün bərpası uğrunda apardığı haqlı mübarizəsinə dair yanlış fikirlərin səsləndirilməsinə etirazımızı bildiririk. Azərbaycanın ictimai-mədəni həyatında yaxından iştirak edən biz - xristian icma üzvləri Vətənimizə Ermənistan tərəfindən edilən təcavüz və işğal faktını beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması kimi qiymətləndiririk. Qonşu Ermənistan 30 ildən artıq müddət ərzində Dağlıq Qarabağı və ona bitişik 7 rayonu işğal etmişdir, bir milyondan artıq azərbaycanlını - xristian və digər dinlərin nümayəndələri də daxil olmaqla - qaçqın, köçkün taleyi yaşamağa vadar etmişdir. İşğal altında olan ərazilərdə digər dini məbədlərlə yanaşı, xristian dini abidələri də vandalizmə məruz qalmışdır. Bununla belə, biz Azərbaycanda xeyli sayda erməni millətinin nümayəndələrinin sərbəst yaşadığının şahidiyik. Paytaxt Bakının mərkəzində erməni kilsəsinin binası nəfis şəkildə təmir etdirilərək qorunur. Dünya Dini Liderlərinin I Bakı Sammiti zamanı Bakıya səfər etmiş erməni katolikosu bu kilsədə ibadət etmiş, burada erməni millətinin nümayəndələri ilə görüş keçirmişdir.

Bütün bunları Sizin diqqətinizə çatdıraraq, Fransadakı böyük siyasi, iqtisadi imkanlara, o cümlədən təbliğat resurslarına malik erməni diasporunun qızışdırıcı fikirlərinə istinadən Azərbaycan barədə yanlış fikirlər səsləndirmənizə qəti etiraz edirik. Belə ki, xristianlar olaraq Azərbaycanda digər dinlərin nümayəndələrinə, o cümlədən xristianlara heç vaxt ayrı-seçkilik, habelə ermənilərə düşmənçilik mövcud olmamışdır və indi də yoxdur. Erməni tərəfinin ərazi iddiaları səbəbindən başlamış Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini dini müstəvidə təqdim edərək, beynəlxalq səviyyədə xristian-müsəlman qarşıdurması kimi qələmə vermək istəyən rəsmi Yerevanın əsas məqsədi xristian təəssübkeşliyinə nail olmaq, özlərinə tərəfkeş, qaxmar çıxacaq dövlətlər aramaqdan ibarətdir.

Fransa kimi inkişaf etmiş demokratik dəyərlərin bünövrəsində duran bir ölkənin Prezidenti kimi Sizin çıxışlarınızda tarixi həqiqətləri, bugünkü reallıqları təhrif edən fikirlər eşitmək üzücüdür. Fransa dövlətinin separatçı Qarabağ rejimini dəstəkləyən Ermənistanın yalanlarına, uydurmalarına, siyasi liderlərinin ambisiyalarına dəstək verməsi dövlətinizin dünyadakı imicinə xələl gətirir. İslam dininin daxilində böhranla bağlı səsləndirdiyiniz fikirlər islamofobiya meyillərinə rəvac verir. Ümumən, dinin dövlətdən ayrı olduğu dünyəvi, demokratik dövlət rəhbərlərinin, siyasi liderlərin dini məsələlərə birbaşa müdaxiləsi beynəlxalq müstəvidə sivilizasiyalararası qarşıdurmaya səbəb olur.

Ümid edirik ki, Siz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair beynəlxalq qurum - ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərindən birinin rəhbəri olaraq, vasitəçi statusuna layiqli tərəfsizlik nümayiş etdirərək, beynəlxalq hüququn prinsip və normalarına riayət olunması üçün daha artıq səy göstərəcək, BMT-nin 4 məlum qətnaməsinin yerinə yetirilməsinə yardımçı olacaqsınız. Bununla, Siz dünyada sülhün bərqərar olması işinə böyük töhfə vermiş olarsınız".

# Azərbaycan öz ərazisində beynəlxalq hüququ bərpa edir

## Əli ƏHMƏDOV: "Azərbaycan Qarabağı azad etməklə Cənubi Qafqaza sülh, bütün dünyada haqqı pozulanlara ümid və inam bəxş edir"

**Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov özünün rəsmi "Facebook" səhifəsində "Azərbaycan Qarabağı azad etməklə Cənubi Qafqaza sülh, bütün dünyada haqqı pozulanlara ümid və inam bəxş edir" sərlövhəli məqalə yayıb. AZƏRTAC məqaləni təqdim edir:**



Azərbaycan 30 il hüququn gücünə inandı, dözdü, səbirlə gözlədi. Lakin dünyanın hər addımda bəhs etdiyi hüququn gücünün onun haqq işinə heç bir faydası olmadı. Ermənistanın bütün beynəlxalq hüquq normalarını pozmaqla havadarlarının köməyi ilə zəbt etdiyi ərazilərimiz işğaldan azad edilməmiş qaldı. Erməni silahlı qüvvələrinin Azərbaycanın ərazilərindən çıxarılmasına dair BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnaməyə, digər mötəbər beynəlxalq təşkilatların qərar və bəyanatlarına, ATƏT-in Minsk qrupunun vasitəçilik missiyasına rəğmən münaqişəyə son qoyulması, Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsi, bir milyon məcburi köçkünün öz yurd-yuvalarına dönməsi istiqamətində səylər gözlənilən nəticəni vermədi. Həyat göstərdi ki, müasir beynəlxalq münasibətlərin əsasını təşkil edən beynəlxalq hüquq heç də həmişə hüququn gücü missiyasını yerinə yetirə bilmir və ya sadəcə bunu istəmir.

Hüquq, ən sadə şəkildə desək, hamı üçün ümumi və yerinə yetirilməsi zəruri olan davranış çərçivələrinin müəyyən edilməsidir. Onun seçmə qaydasında tətbiq edilməsi apriori hüquq sisteminin çökməsi deməkdir. Eynilə də, beynəlxalq hüququn seçmə qaydasında tətbiqi qədər onun gücünə inamı sarsıdan ikinci nəyisə düşünmək çox çətindir. Lakin beynəlxalq hüququn seçmə qaydada tətbiq edilməsi müasir dünyanın acı reallığına çevrilib. Nəticə isə göz qabağındadır: bütün dünyada baş alıb gedən terrorizm, separatizm, işğalçılıq, etnik təmizləmə, ölkəsi və yurd-yuvası dağılan yüz minlərlə günahsız insanın acınacaqlı qaçqın həyatı, saysız-hesabsız insan faciələri, şiddət və zorakılıq.

Beynəlxalq hüququn seçmə qaydada tətbiqinin fəsadlarını Azərbaycan 30 il öz təcrübəsində yaşamalı oldu. Və bundan düzgün nəticə çıxardı. Pozulmuş hüquqlarını bərpa etmək, işğal olunmuş ərazilərini geri qaytarmaq, əhalisinin təhlükəsizliyini təmin etmək, ədaləti bərqərar etmək üçün özünə, öz gücünə, Ali Baş Komandanının qətiyyəti və müdrikliyinə, xalqın iradəsinə və dəyanətinə, Qəhrəman Ordusunun şücaətinə sığındı. 30 il beynəlxalq hüququn gücünə inanmaqdan fayda görməyib öz gücünün hüququnu həyata keçirməli oldu. Zira, hər kəsin özünü müdafiə haqqı olduğu kimi, hər xalqın da hüquqlarını, torpaqlarını və təhlükəsizliyini təmin etmək haqqı var.



Sentyabr ayının 27-dən etibarən Azərbaycan xalqı tarixinin yeni mərhələsini yaşayır, qədim və möhtəşəm tarixinin yeni şərəf və ləyaqət səhifəsini yazır. Müasir tariximizin yeni xilaskarlıq mərhələsi başlayır. Onun adı Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq və Qurtuluş missiyasının davamı olan Prezident İlham Əliyevin Qarabağın azadlığı missiyasıdır. İndiki nəsillərə xalqımızın taleyində ən həyəcanlı və ən əhəmiyyətli anları yaşamaq xoşbəxtliyi nəsib olur. Gözlərimizin önündə Azərbaycan xalqının yeni qəhrəmanlıq epopeyası yaradılır. Milli ruhu alov püskürən xalqını inamla və qətiyyətlə müqəddəs Qələbəyə aparan Liderin, onun tarixinin böyük, möhtəşəm, əzəmətli və əyilməz Milli Qəhrəmanına çevrildiyinin şahidi oluruq.

Qarabağ addım-addım azadlığına qovuşur. Düşmən nə qədər təxribatlar törətməyə çalışsa, yalnız münaqişə bölgəsində deyil, ondan çox-çox uzaqlarda olan yaşayış məskənlərini və dinc sakinləri hədəfə alsa da, prosesin qarşısını kəsmək qeyri-mümkündür. Qarabağın işğaldan azad edilməsi, ilk növbədə, Azərbaycanın ərazi bütövlüyünün bərpası, ədalətin təntənəsi deməkdir. Lakin Azərbaycanın öz haqq işi uğrunda müqəddəs savaşının tarixi mənasını yalnız bununla məhdudlaşdırmaq düzgün olmazdı. Bu savaş daha böyük məna və dəyər kəsb edir. Azərbaycan Qarabağı işğaldan azad etməklə, əslində, Cənubi Qafqazda sülh və əmin-amanlığın daha etibarlı dayaqlar üzərində qərar tutmasına əhəmiyyətli töhfə verir. Azərbaycanın azadlıq savaşı, həmçinin bütün dünyada haqqı tapdalanan xalqlara inam və ümid bəxş edir.

Müasir dünyada nə qədər insanların və xalqların haqqı pozulur, ölkələr viran qoyulur, dövlətlər çökdürülür. On minlərlə günahsız insan, uşaqlar, qadınlar, qocalar qətlə yetirilir. Nəinki beynəlxalq hüquq, hətta insana xas olan yaşamaq hüququ ayaqlar altına atılır, tapdalanır. Beynəlxalq təşkilatlar isə ya susur, ya da ən yaxşı halda kəsərsiz bəyanatlar verməklə öz işini bitmiş hesab edir. Buna görə də Azərbaycanın işğal olunmuş torpaqlarını azad etmək uğrunda apardığı ədalətli və uğurlu savaşı əvvəla, bütün haqqı pozulan xalqlara inam və ruh verir. İkincisi isə, beynəlxalq təşkilatların dünyada sülh və təhlükəsizliyin qorunması sahəsində fəaliyyətində, bütövlükdə beynəlxalq təhlükəsizlik konsepsiyasında ciddi dəyişikliklərin aparılmasını obyektiv zərurətə çevirir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, indi həqiqət anıdır. İndi kimin haqq, kimin nahaq olduğu bütün çılpaqlığı ilə üzə çıxır. İndi kimin dost, kimin düşmən olduğunun sübuta yetirildiyi zamandır. Ümummilli Lider Heydər Əliyevin müdrikcəsinə söylədiyi "bir millət, iki dövlət" formulu növbəti dəfə tarixin sınağından ləyaqətlə çıxır. Qarabağın azadlığı uğrunda şərəf və ləyaqət savaşında qardaş Türkiyənin Azərbaycanın yanında olması, ona siyasi və mənəvi dəstək verməsi gücümüzü daha da artırır. Bu birlik və həmrəylik habelə torpaqlarımızı işğal edənlərə və onların havadarlarına mesajdır: Azərbaycan tək deyil, onun haqq işini müdafiə edən neçə-neçə dövlət var. Pakistan, Ukrayna, Əfqanıstan və digər dövlətlər qəti və birmənalı şəkildə ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda apardığı mübarizəsini dəstəkləyiblər.

İndi, eyni zamanda, özünü ədalətin, beynəlxalq hüququn müdafiəçisi kimi təqdim edən beynəlxalq təşkilatların, dünya düzəninə təsir edə bilən dövlət liderlərinin öz missiyalarına sədaqətinin sınağa çəkildiyi tarixi məqamdır. Nə yazıq ki, heç də hamı bu sınaqdan üzüağ çıxa bilmir.

Otuz ilə yaxındır ATƏT-in Minsk qrupu BMT-nin mandatı əsasında Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə məşğuldur. Dağlıq Qarabağın məhz rəşadətli Azərbaycan Ordusunun sayəsində addım-addım öz azadlığına qovuşması vasitəçilərin "fəaliyyəti"nin (yəni, fəaliyyətsizliyinin) ən bariz ifadəsi sayıla bilər. Həyat göstərir ki, bu illər ərzində BMT-nin üzvü olan müstəqil dövlətin ərazilərinin 20 faizinin işğal altında qalması, bir milyon Azərbaycan vətəndaşının məcburi köçkün həyatının məhrumiyyətlərini yaşamağa məhkum olması onları azacıq da olsa narahat etmirmiş. Azərbaycan öz gücü ilə Qarabağ torpaqlarını azad etməyə başladıqda isə vasitəçilik missiyasını öz üzərinə götürən dövlətlərdən biri olan Fransanın prezidentinin narahatlığı özünü çox gözlətmədi. Düşünmək olardı ki, o bu vaxta qədər münaqişənin nizama salınmamasından vicdan əzabı çəkərək buraxılmış imkanları bərpa etməyə çalışacaq. Lakin bütün sağlam məntiqin əksinə olaraq, Makron açıq şəkildə işğalçının yanında olduğuna heç bir şübhə yeri qoymayan mövqe sərgilədi. Nə qədər təəccüblü və inanılmaz görünsə də, Fransa prezidenti sərgilədiyi bu anlaşılmaz mövqeyi ilə Fransa inqilablarından bəşəriyyətə miras qalmış bərabərlik, humanizm, ədalət ideyalarına xəyanət etdiyinin, vasitəçilik missiyasına xas olan tərəfsizlik və qərəzsizlik prinsipinə ölümcül zərbə vurduğunun fərqində belə olmadı. Anlamaq belə istəmədi ki, onun açıq şəkildə işğalı və işğalçını dəstəkləməsi Minsk qrupuna ölüm hökmü oxumaqdır.

Qarabağ münaqişəsinin nizama salınması kimi haqq işinə məsul edilənlər, müxtəlif beynəlxalq təşkilatlar və sairlər on illər ərzində unutdular ki, Azərbaycan heç zaman müharibə ideologiyasının daşıyıcısı olmayıb və deyil. Əksinə, Ermənistanın müharibə partiyasının hədəfinə çevrilib, böyük məhrumiyyətlər yaşamalı olub. Ancaq indi zaman artıq dəyişib. Onların 30 il boyunca etməli olduğu, lakin etmədiyi işi ordumuz edir və Ermənistanın müharibə partiyasına layiq olduğu dərsi verir və verəcək.

Azərbaycanın Qarabağın azad edilməsi uğrunda mübarizəsi Ordumuzun rəşadət nümunələri olmaqla yanaşı, xalqın milli ruhunun və iradəsinin təntənəsi kimi tarixə düşmək şansına sahibdir. Azərbaycanın müasir tarixində heç zaman indiki qədər milli birlik və həmrəylik müşahidə olunmamışdı. Bu birlik və həmrəylik Azərbaycanın və onun Silahlı Qüvvələrinin erməni qəsbkarlarına qarşı ləyaqət və şərəf savaşının zəfər ruhunun nüvəsini təşkil edir. Millətin özünə inamını və bu inamdan qaynaqlanan böyüklüyünü, əzəmətini nümayiş etdirir. Yenilməz dağı, püskürən vulkanı xatırladan milli birliyin və həmrəyliyin kökündə Qarabağın azadlığı kimi hamılıqla dərk olunan vahid milli maraqlarımızın və Prezident İlham Əliyevin şəxsində hamının qəbul etdiyi və ətrafında sıx birləşdiyi milli Liderimizin dayandığı ayrıca vurğulanmalıdır. Yaşadığımız günlərdə Liderin bütün xalqı milli ideya ətrafında yumruq kimi birləşdirmək qüdrətinin canlı şahidi oluruq. Həqiqi tarix yaşayır, bu tarixin yaradılmasına şəhadət edirik.

Cəbrayılın işğaldan azad olunması münasibətilə Prezident İlham Əliyevin xalqa müraciətində dediyi kimi, biz indi tariximizin ən şərəfli anını yaşayırıq. Biz yeni tariximizi yazırıq. Biz tarixi ədaləti bərpa edirik. Biz Azərbaycan xalqının ümidlərini doğrulduruq.

Xalqımız, hər bir azərbaycanlı Azərbaycan Ordusunun zəfər yürüşünün Qarabağın işğaldan tam azad edilməsi ilə nəticələnəcəyinə dərindən inanır. Bu inam Ali Baş Komandanın müdrikliyindən və qətiyyətindən, əsgərimizin Vətən sevgisindən qidalanır.

İrəli, igid əsgər, irəli! Sən tarix yazırsan. Tarix isə sənin adını öz əbədi səhifəsinə yazır.

# "Qarabağ biz ermənilərin axı nəyinə lazımdır?"

## Ermənilər bölgəni kütləvi tərk edirlər













**Azərbaycan Ordusunun ən qısa zamanda işğal altındakı ərazilərimizi azad etmək iqtidarında olmasını bütün dünya davam edən döyüşlərin gedişatında aydın görməkdədir. Bunu işğalçı ölkənin hərbi-siyasi rəhbərliyində təmsil olunanlar da görür və atəşkəsə nail olmaq üçün aciz şəkildə beynəlxalq təşkilatlara və ayrı-ayrı dövlət rəhbərlərinə yalvarırlar.**

Cəbhədəki döyüşlər isə gündən-günə Ermənistana baha başa gəlməkdədir. Ölkəni həm də böyük köç dalğası bürüyüb. KİV-in məlumatına görə, son 10 gün ərzində Qarabağdan Ermənistana köç edənlərin sayı on minlərlədir.

### Azərbaycan inkişafda, biz isə geriləməkdəyik

Rusiyanın "znak.com" saytı xəbər verir ki, ermənilərin Azərbaycanın işğal edilən torpaqlarından qaçışı davam edir, daha aktiv köç Xankəndidə müşahidə edilir. Vurğulanır ki, Qarabağdakı ermənilər birbaşa Ermənistana - paytaxt Yerevana və Gorusa üz tuturlar. Artıq şəhərdəki bütün mehmanxanalar Qarabağdan gələnlərlə dolub.

"4rd.am" saytının Xankəndiyə ezam olunan xüsusi müxbiri yazır ki, vəziyyət olduqca ağırdır. Şəhərdə nadir hallarda adamla rastlaşmaq olar. Bütün mağazalar bağlıdır, ərzaq yoxdur: "Qaldığımız mehmanxananın yaxınlığında yaşayış binası var. Sakinlərlə söhbət etmək üçün zirzəmiyə düşdüm. Onlardan Ovik Baqdasaryan dedi ki, 30 ildən sonra biz özümüzə sual verməliyik: Qarabağ biz ermənilərin nəyinə lazımdır? Bir xeyir belə görməmişik. Əksinə, həmişə ziyanını çəkirik. Oturub zirzəmidə sonumuzu gözləyirik. Rütubətdən insanlar artıq xəstəlik tapıb. Qarabağ məsələsinə görə bölgədə rahat yaşaya bilmirik. İqtisadi cəhətdən ölkəmiz uçuruma yuvarlanır. Paşinyanın siyasəti bu gün Ermənistanı hər şeydən məhrum edib. Düşmən olsa da, düzünü demək lazımdır. Azərbaycan inkişafda, biz isə geriləməkdəyik. Xankəndiyə çatmaqlarına bəlkə də saatlar qalıb. Bizə bu əziyyət lazımdırmı? Lənət olsun belə rəhbərə, bu cür yaşayışa..."

### Xankəndidə həyat tam sönüb

"İravnuk" qəzeti yazır ki, Xankəndidə həyat ölüb. Hər gün avtobuslarla minlərlə insan buradan qaçır. Ermənistanın paytaxtı Yerevanda və digər şəhərlərdə qohumları, tanışları olmayanlar isə acı sonluğu gözləyirlər. Həmsöhbət olduğumuz insanlar deyirlər ki, Paşinyanın rəhbərliyi altında indiyədək Ermənistan hər sahədə məğlub olub, vətəndaşlarımız Artsaxdan (Qarabağ-red.) qaçırlar. Onun rəhbərliyi altında erməniləri parlaq gələcək yox, tam məhvolma gözləyir.

Müəllif onu da qeyd edir ki, qurumun "rəhbəri" A.Arutyunyanın hər gün cəbhəyə baş çəkdiyi bildirilir. Lakin onun saxta təbliğatı artıq sıravi erməniləri bezdirib. "Böyük iş olub, yalançı rəhbər hər gün cəbhədə olur. Onu hansısa hərbi hissədə görən olub? Qorxusundan xalqın arasına çıxmır. Vaxt var idi Paşinyan kimi onu da küçələrdən yığmaq olmurdu" deyə onlar bildirirlər.

### "Biz uduzuruq..."

"Joxovurd" qəzetinin Xankəndiyə ezam olunmuş əməkdaşı hazırladığı reportajda Miqran Markaryan adlı sakinin fikirlərini olduğu kimi oxuculara çatdırıb. Sakin cibindən müharibədə bu günlərdə həlak olmuş qardaşı oğlunun şəklini çıxardaraq nümayiş etdirib və deyib: "Bilirik ki, Azərbaycanda Artsaxdakı proseslər çox maraqla izlənilir. Ona görə də, həqiqəti söyləyirik. Paşinyan nə qədər yalan desə də, həqiqət budur: biz uduzuruq. Artıq Qarabağdan qaçırıq. Acı etiraf olsa da, deməliyik ki, Azərbaycan Qarabağı tam tutacaq. Sosial şəbəkələrdən də izləyirik. Azərbaycanlılar Prezidentləri ilə fəxr edirlər. Biz isə Paşinyana, Arutyunyana görə utanırıq. Oturub sonumuzun nə vaxt çatacağını gözləyirik".

### "Azərbaycan Ordusu Şuşaya kimi gələcək"

"Qraparak" qəzeti yazır ki, Qarabağda yaşayan ermənilər əvvəlkindən fərqli olaraq gördüklərini açıq şəkildə etiraf etməkdən artıq çəkinmirlər. Görünən həm də budur ki, onlar uduzduqlarını qəbul edirlər. Nəşr yazır ki, müharibə hamıda böyük qorxu yaradıb. Erməni əsgərlərinin səngərlərdə silahlarını qoyub qaçmaları əlavə şərhə ehtiyac yaratmır.

1990-cı illərin əvvələrində Qarabağdakı döyüşlərdə iştirak edən veteranlardan Vardan Qasparyan deyib ki, orduya xidmətdən yayınmaq məqsədilə ölkəni tərk etməkdən təngə gəlmişik: "Bunun ən böyük səbəbkarı hakimiyyətdir. Orduda korrupsiya, ölüm halları durmadan artır. Bu yaxınlarda cəbhə xəttində qulluq edən bir qohumum vəziyyətin çox acınacaqlı olduğunu bildirdi. Onların səngərinə günlərlə yemək, su getmir. Deyir ki, bu postu azərbaycanlılar gəlib tutsa, onları öldürsə, heç bir həftə Ermənistanda qərargahın xəbəri olmaz. Davam edən müharibə və onun nəticələri Azərbaycan Ordusunun Şuşaya kimi rahat gələcəyini göstərir. Orduya çağırışdan yayınan əsgərlərin sayının durmadan artması isə acı reallıqdır. Biz deyilənlərə yox, gördüklərimizə inanırıq".

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Vətən müharibəsi zəfərlə başa çatacaq!



# Haqq savaşımızın ən səmimi dostları



*"Mən fürsətdən istifadə edərək, bizim digər dost-qardaş ölkələrə də təşəkkürümü bildirmək istəyirəm. Türkiyədən sonra bizə ikinci dəstək verən ölkə Pakistan oldu, ondan sonra Əfqanıstan oldu, ondan sonra daha bir neçə ölkə bizə öz dəstəyini göstərdi. Onların hər birinə, o ölkələrin prezidentlərinə təşəkkürümü bildirirəm. Bu çətin dönəmdə təbii ki, onların həmrəyliyi, dəstəyi bizim üçün çox önəmlidir və bizə mənəvi güc verir". Bu fikirləri Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev qardaş Türkiyənin nüfuzlu media qurumlarından olan "TRT Haber"ə geniş məzmunlu müsahibəsində səsləndirib.*

Bəli, Ali Baş Komandanımızın da qeyd etdiyi kimi, qardaş, dost Türkiyə, Pakistan və Əfqanıstan son hadisələrdə birmənalı şəkildə Azərbaycanın yanında yer alan, onu qeyd-şərtsiz dəstəkləyən ölkələr oldu. Xatırladaq ki, Azərbaycan 1991-ci ildə ikinci dəfə müstəqilliyinə qovuşduqdan sonra da onu tanıyan ölkələr arasında ilk sırada qardaş Türkiyə və Pakistan dayandı. Türkiyə birinci, Pakistan müstəqilliyimizi tanıyan ikinci ölkə oldu. 32 ildən artıq davam edən Qarabağ münaqişəsində Azərbaycanı dəstəkləyən, Ermənistanın təcavüzkarlığını pisləyən, münaqişənin məhz Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tələb edən ilk iki ölkə məhz Türkiyə ilə Pakistandır.

Təcavüzkar Ermənistanla heç bir siyasi-diplomatik münasibətlər qurmayan 3 ölkədən ikisi yenə Türkiyə ilə Pakistandır. Həmçinin qardaş və dost Özbəkistan Ermənistanla heç bir siyasi-diplomatik münasibətlərə malik deyil. Eyni zamanda Pakistan, ümumiyyətlə, Ermənistanı bu günədək hələ müstəqil dövlət kimi tanımayıb. Dünyanın, 20-ci əsrin ən böyük insanlıq dramı olan Xocalı qətliamını ilk pisləyən, Ermənistanı mühakimə edən iki ölkə yenə Türkiyə və Pakistan oldu. Pakistan Senatı həm də Xocalı vəhşətini soyqırımı aktı kimi tanıyan ilk parlament, ilk dövlətdir.

İstər Azərbaycan, istər Türkiyə, istərsə də Pakistan ötən 29 il ərzində hər bir məsələdə eyni mövqedən çıxış edir, bütün platformalarda bir-birini müdafiə edir, bir-birinə dəstək verir. Azərbaycan illərdir terrorla üz-üzə olan Türkiyənin və Pakistanın yanındadır, onların terrora və terrorçulara qarşı bütün addımlarını istisnasız müdafiə edir, Türkiyə ilə Pakistan da daim Qarabağ, ərazi, torpaq bütövlüyü məsələsində Azərbaycanın yanındadır. Ötən 29 ildə bu məsələlərdə, bu mövqelərdə heç bir dəyişiklik yoxdur və ola da bilməz. Həm də ölkələrimizin liderləri arasında gözəl, səmimi dostluq və qardaşlıq münasibətləri var. Azərbaycan Prezidenti cənab İlham Əliyevlə Türkiyənin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan arasında olan münasibətlər isə dünyaya örnək, nümunə, model olacaq qardaşlıq münasibətləridir.

Hər iki lider bir-birinə "Qardaşım"-deyə, müraciət edir. Bu özü münasibətlərin hansı səviyyədə və hansı zirvədə dayandığını göstərir. Bu münasibətlər eyni şəkildə Pakistan rəhbərliyi ilə də mövcuddur. Həm Azərbaycan, həm Türkiyə bu gün dünyada söz və nüfuz sahibidirlər, dünyanın enerji təhlükəsizliyinin təmin olunmasında əsas aktorlardır. Onların iştirakı, icazəsi, razılığı olmadan bu bölgədə heç bir beynəlxalq, transmilli və regional lahiyələr icra olunmur. Yalnız onların birgə iştirakı və razılığı ilə istənilən layihənin rallaşması, icrası mümkündür. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP, "STAR" və sair məhz bu iki ölkənin əməkdaşlığının, dostluğunun, qardaşlığının, birgəliyinin, həmrəyliyinin nəticəsi, təcəssümüdür. Bu istiqamətdə növbəti zəfərlər yazılır, yazılmaqdadır və yazılacaq. Növbəti zəfər TAP olacaq.

Bəli, təcavüzkarlığından, murdar xislətindən, bəd əməllərindən əl çəkməyən Ermənistan, onun avantürist rəhbəri və rəhbərliyi son zamanlar daha da azğınlaşıb, daha da quduzlaşıb. Təxribatlar təxribatlar dalınca gəlir. Hər dəfə də Azərbaycan dövləti və Ordusu tərəfindən layiqli cavabları verilir. İstər iyul hadisələri zamanı, istərsə də sentyabrın 27-dən bu yana işğalçıya hərtərəfli, onun layiq olduğu cavablar verilib, verilir və verilməkdədir. İkinci Qarabağ savaşı, ikinci Vətən müharibəsi, Qarabağın və işğal altındakı digər yurd yerlərimizin bütövlükdə azad olunması uğrunda Zəfər yürüşü davam etməkdədir, yurd yerlərimiz addım-addım, qarış-qarış azad olunmaqdadır. Həm iyul hadisələri, həm son hadisələr zamanı yenə də yanımızda birinci yer alan, ilk dəstək verən iki ölkə məhz Türkiyə və Pakistan oldu. Hər iki dövlət birmənalı şəkildə Azərbaycanın Qarabağın işğaldan azad olunması yolunda atdığı bütün addımları birmənalı şəkildə dəstəkləməkdədirlər, Azərbaycana hərtərəfli dəstəklərini verməkdədirlər.

Heç təsadüfi deyil ki, ölkə Prezidenti yaralı hərbçilərlə görüşü zamanı açıq şəkildə dedi: "Azərbaycan tək deyil. Türkiyə Azərbaycanın yanındadır və Azərbaycan da hər zaman Türkiyənin yanındadır! Mən artıq demişəm, bir daha demək istəyirəm ki, bu qanlı döyüşlər bizim üçün, bütün Azərbaycan xalqı üçün həqiqət anıdır. Biz görürük kim kimdir. Biz görürük ki, bəzi hallarda yaxşı sözlər deyən, yaxşı bəyanatlar verən bəzi tərəflər öz sözünün arxasında durmur. Sözdə bir şey deyilir, əməldə başqa şey edilir. Amma Türkiyə, Pakistan, Əfqanıstan birmənalı şəkildə Azərbaycanı dəstəklədilər". Bəli, bu, əsl dostluq, əsl qardaşlıq nümunəsi, yanaşması, mövqeyidir. Bunun əksini düşünmək də olmaz. Bu, hər zaman belə olub, bu gün də belədir, bundan sonra da belə olacaq.

Bu üç ölkə birlikdə hələ çox Qələbələrə, Zəfərlərə imza atacaq, nail olacaq. Türkiyə onu təhdid edən terrordan qurtulacaq, Pakistan həm terroru bitirəcək, həm Kəşmir problemini həll edəcək, Azərbaycan isə Qarabağına qovuşacaq. Eyni zamanda 1979-cu ildən müharibələrdən, qırğınlardan başı açılmayan, terrordan əziyyət çəkən qardaş və dost Əfqanıstana sülh gələcək, bu ölkə dinc həyatına dönəcək. Bəli, Azərbaycan onun yanında olanları unutmur, unutmayıb və unutmayacaq. Azərbaycan yanında olanlarla birlikdə sözünü hələ çox deyəcək. Bu, birmənalıdır. Qoy bunu hər kəs bilsin və duysun!

Bizim işimiz Haqq işidir. Allah da Haqqın yanındadır, bizim yanımızdadır. Necə deyərlər, biz sussaq, tarix susmayacaq, tarix sussa, həqiqət susmayacaq. Qarabağ bizimdir, bizim olacaq!

**Eldar İBRAHİMOV,**
**Milli Məclisin İntizam komissiyasının sədri, professor**

# İLHAM ƏLİYEV Azərbaycan tarixinin ən şərəfli səhifəsini yazır

## Baş Sərkərdənin hərbi zəfərləri məmləkəti, milləti, vətəndaşı daha da böyüdür

Əvvəli 1-ci səh.

Günlərdir, Azərbaycan insanı bu duyğusunu paylaşır. Televiziyalarda, radioda, xəbər portallarında yayılan hər rəsmi xəbəri yaxşı mənada gözünə təpir. Kimi görürsən, kimə salam verirsən, dərhal söhbəti rəşadətli Ordumuzun əks-hücum əməliyyatları ilə rəzil düşmənə vurduğu sarsıdıcı zərbələrə gətirir, işğaldan ard-arda azad edilən ərazilərimizdən söz açır, gedişat haqqında daha çox bilmək istəyir, yaşadıqlarını mümkün qədər çox insanla bölüşməklə sevincini, məmnuniyyətini, qürurunu, ümidini daha da böyüdür elə bil...

Birinci Qarabağ savaşı zamanı televiziyadan cəbhə xəbərlərini elan edən hərbi diktor adətən hər xəbər təqdimatından sonra tamaşaçılarla bu cümlə ilə sağollaşardı: "Qələbə müjdəli sabahlaradək".

Bu adi cümlənin o qədər böyük enerjisi vardı ki, Azərbaycan tamaşaçısı hər axşam ondan yeni bir qələbə müjdəsi gözləyərdi, oxunan xəbərlərin, düşmən üzərində əldə edilən üstünlüklərin məzmunu gözləntilərindəkilərə uyğun olmayanda qüssələnərdi, ümidini növbəti sabaha bağlayardı, o müjdəli sabahların çox tezliklə açılacağına bütün varlığı ilə inanardı.

Hamımızın bildiyimiz obyektiv səbəblərdən əfsuslar olsun ki, o zaman qələbə ovqatını, məğlubiyyət duyğusunun ağır əhvalı əvəzlədi. Düşmən güclü havadarlarının əli ilə torpaqlarımızın 20 faizini işğal etdi. Bir milyona yaxın soydaşımız yurdundan-yuvasından perik düşüb Vətənin başqa səmtlərinə səpələndi, ailələr, həyatlar, talelər param-parça oldu.

Azərbaycan insanı içindəki inciklik, məyusluqla hətta yavaş-yavaş televiziya ekranı qarşısından da aralanmağa başladı, yaxud itkilərimizi bizə daha aydın xatırladan, xatirələrimizi, yurd yaddaşımızı ovxarında saxlayan proqramlara, görüntülərə, nişanələrə sarıldı.

Şuşadan olan bir dostumuz vardı, həmişə televiziya kanallarında gedən hava proqnozlarını mütləq izləyirdi. Deyirdi, işğal altındakı rayonlarımızın hava şəraitini hər dəfə efirdən elan edəndə xəyalən o torpaqlara yollanıram, oraların havasının istisini-sərinini, yağışını-qarını bir neçə dəqiqə canımda hiss edirəm və ümidlənirəm ki, ora nə zamansa qayıdacağam.

Hətta ümidsizliyin adamın əhədini kəsən vədələrində də Azərbaycan insanı Qələbə müjdəli o sabahlardan əl üzmədi. O sabahın bir gün açılacağına inandı. Biz o sabahın açılmasını düz 27 il gözlədik. Və bundan sonrakı nəsillərimizin də minilliklər ərzində həmişə qürurla xatırlayacaqları gözəl bir payız günü o sabahın dan yeri sökülməyə başladı. Şanlı Ordumuzun cəbhə bölgəsində azğın düşmən üzərində qazandığı hər zəfər, azad etdiyi hər qarış torpaq o sabahın sərin meh kimi ruhumuza vuran, bizi 27 illik qorxulu röyadan oyadan yeni bir qələbə müjdəsidir.

Bu qələbənin üç müəllifi var: bütün çətinliklərə, acılara rəğmən işğalla bir an belə barışmayan, düşmənə qarşı içindəki nifrəti getdikcə böyüdən, ümidini heç zaman itirməyən, seçimini düzgün müəyyənləşdirərək taleyini dürüst əllərə tapşıran və həmrəyliyi, daimi dəstəyi ilə bu əlləri polad kimi sarsılmaz edən Azərbaycan xalqı...

Bu xalqın düşmənə nifrət, Vətənə sevgi hissi ilə yetirib boya-başa çatdırdığı qeyrətli övladlarından təşkil olunmuş müzəffər Ordumuz...

Və ömrünün heç bir məqamında bu Vətənin, xalqın, dövlətin maraqlarını zərrə qədər də olsun yadlara güzəştə getməmiş və Əyyub peyğəmbər səbri ilə bizi Böyük Zəfərə yetirməyə müvəffəq olmuş Ali Baş Komandan cənab İlham Əliyev!..

❖ ❖ ❖

Müharibə dövrünün, təbii ki, öz qayda-qanunları var. Bu, aparılan əməliyyatlar, əldə edilən nəticələr haqqında məlumatların mümkün qədər "xəsislikə", hərbi dilə xas qısa, lakonik tərzdə çatdırılmasına da aiddir.

Biz Şanlı Ordumuzun kəndlərimizi, böyük yaşayış məntəqələrimizi, strateji yüksəkliklərimizi işğaldan sadəcə azad etməsi haqqında hələlik ancaq qısa, yığcam xəbərlərlə tanış ola bilirik. Geniş təfərrüatlar, Azərbaycan əsgərinin, zabitinin torpaqlarımızın azadlığına doğru hər addımında yaranan qəhrəmanlıq hekayələrinin çoxu hələ böyük qələbədən sonra bəlli olacaq, dildən-dilə dolaşacaq.

Azad edilən hər kənd, şəhər də hələlik cəbhə xəbərlərində sadəcə statistika kimi görünür. Amma hər yeni bir kəndin işğaldan azad edilməsi nə deməkdir?! Bu, illərdir ağır yük kimi daşıdıqları məcburi köçkün adından qurtulduqları üçün bir-birinə gözaydınlığı verən insanların qəlbindəki toy-büsatdır.

Bu günün həsrəti ilə dünyadan köçən, bəlkə nə vaxtsa sümükləri o torpaqlara qovuşub rahatlıq tapar deyə, doğmalarının əksər hallarda dəmir tabutlarda Vətənin başqa məzarlıqlarında əmanət qəbir kimi torpağa gömdükləri mərhumların şadman ruhudur.

İşğal altındakı qərib yurdlarımızda illərdən bəridir yaxınlarının ziyarətinə, əlinin tumarına, dilinin duasına, gözlərinin yaşına həsrət nigaran qəbirlərin intizarını bitirən ilk cığırlardır.

İllərdir o yerləri heç olmasa bircə dəqiqə görmək ümidi ilə yaşayan ixtiyarların gözlərindəki nisgilin silinərək yerini ümid işığına verməsidir.

Azad edilən hər kəndin hər qarış torpağı onun uğrunda canını fəda edən Azərbaycan əsgərinin qanı ilə yazılmış qəhrəmanlıq dastanıdır.

❖ ❖ ❖

Bu dastanın bir boyu artıq doğma Azərbaycanla yanaşı, Vətən tarixinin ən qədim qatlarından gələn doğma Suqovuşan adına da qovuşmuş cənnət məkanımızda Azərbaycan əsgərinin dövlət bayrağımızı ucaltması anında yazıldı. Hamı kimi qürurla, sevinc dolu göz yaşları ilə izlədim o anları.

Qalib hərbçinin üzü görünmürdü, yaşı, rütbəsi bəlli deyildi, ona sadəcə Azərbaycan əsgəri kimi baxırdım və o anda düşüncələrimdə o əsgərdən güclü kimsə, mənsəb olaraq onun daşıdığı əsgər rütbəsindən üstün nəsə yox idi. Hansı ata-ananın bioloji övladı olmasından, hərbi xidmətə hansı evdən, eldən yollanmasından asılı olmayaraq, o anda o əsgər balamız bütün Azərbaycan xalqına bir övladın öz valideynlərinə yaşadacağı ən böyük fəxarəti yaşatdı, bütün Azərbaycan ailələrinin qürur yerinə çevrildi.

Rəzil düşmənin bayrağını yerə salandan sonra onu təpiklə kənara tullayaraq illərdən bəri ürəyimizdə toplanmış dərd yükünü bir təpiklə yerlə-yeksan etdi, qəlbimizin başında qövr edən yaraya məlhəm qoydu, düşmən bayrağının yerində ucaltdığı üçrəngli aylı-ulduzlu bayrağımızın işığı ilə göstərdi ki, səbrin sonu səlamətmiş, haqq davası aparanların qisası qiyamətə qalmazmış.

Açığını deyəcəm ki, o əsgərin boyuna sevinəndə, mərd duruşundan, cəsur hərəkətlərindən öz qürur payımı alanda özlüyümdə bir qədər də utandım. Niyəsini deyəcəm: yaşlı nəslin nümayəndələri olaraq nə vaxtsa çoxumuzun belə bir əndişəmiz vardı ki, ixtiyarlar dünyadan köçdükcə işğal altındakı yurdlarımızla bağlı xatirələr də korşalacaq, işğal yaraları zaman-zaman sağalacaq və nəsillər təzələndikcə o yurdları yada salanlar da az olacaq. Nə gizlədim, bu qorxu özümün də qəlbimə hakim idi, yeri düşəndə bu barədə düşüncələrimizi həmyaşıdlarımızla bölüşürdük. Amma ordumuzun 2016-cı ildəki Aprel zəfəri zamanı Azərbaycan gəncliyinin coşqusunu, düşmən üzərində qələbə əzmini görəndə bir vaxtlar belə düşündüyümə görə xəcalətimdən özümə yer tapmadım.

Suqovuşanda Ermənistan bayrağına ilişdirdiyi təpiklə ürəyimizdən tikan çıxaran Azərbaycan əsgəri o hissi yenidən xatırlatdı, o əsgərin təmsil etdiyi gənc nəsil haqqında nə vaxtsa belə düşündüyümə görə qəlbimin dərinliklərində o əsgərin timsalında bütün gənclərimizdən dönə-dönə üzr istədim.

Xəyalən onların Vətən qarşısındakı açıq alınlarından, silah tutan, bayraq qaldıran əllərindən, azad edilən torpaqlarımızın müqəddəs tozuna bulaşmış çəkmələrindən öpdüm.

❖ ❖ ❖

Ötən həftə sürücümdən xahiş etmişdim ki, məni Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Bakıdakı yerli qurumlarının, el dilində desək "vayenkomat"ların qarşısına aparsın. Hər birinin qarşısında gənclərin böyük qələbəliyi yaranmış bu qurumların çoxuna baş çəkdim. Azərbaycan bayrağı ilə bəzədilmiş avtomobillərdə, toy-bayrama gedirmiş kimi gəlib toplaşan və döyüşə yollanacağı anı sevinclə, fərəhlə, coşqu ilə gözləyən bu gəncləri gördükcə o binaların hər birinin qarşısında göz yaşları tökdüm...

Nə qədər insan var idi, düşməndən intiqam hissi ilə alışıb-yanan, qələbədə rolunun olmasını istəyən, dərhal əlinə silah alıb cəbhə xəttindəki döyüşçülərimizin köməyinə yetişmək istəyən nə qədər igid görürdüm...

Bir neçəsini söhbətə çəkdim. Aralarında əməlli-başlı narazılıq ovqatında olanları, hətta səbrinə hakim ola bilməyib səfərbərlik görəvliləri ilə mübahisə etmək istəyənləri də vardı. Səbəbisə bu idi ki, döyüşə getmək üçün gəlib könüllü yazılıblar, amma proses qismən səfərbərlik proseduruna uyğun aparıldığından onlara deyilib ki, hələlik gedib gözləyin, lazım olanda özümüz çağıracağıq.

Bu balalarımızın gözlərindəki parıltını, Vətən sevgisini görəndə o an əlimdən gələn yeganə şey onları bir-bir bağrıma basıb, alınlarından öpərək "Qeyrətinizə qurban" demək oldu.

Hamısının qeyrətinə qurban olum!

Hamısını Allah qorusun!

Gəl gör indi bu gənclik əyninə hərbi forma geyinib, əlinə silah alıb döyüş meydanlarında düşmənlə aslan kimi üz-üzə dayananda nələr edir. İllərdən bəri havadarlarına bel bağlayaraq bizə acılar yaşadan, əsəbilərimizlə oynayan düşmənə indi nələr çəkdirir, yağının qoparağını necə götürür, cənab Prezidentimizin də qeyd etdiyi kimi, onları torpaqlarımızdan iti qovan kimi necə qovur.

Əgər bir yurdun gənci onu döyüşə aparmadıqlarına görə etiraz edirsə, əgər bir yurdun gənci döyüşə toya-bayrama gedirmiş kimi yollanırsa, o yurd basılmaz, onun ordusuna qalib gəlmək mümkün olmaz.

İlham Əliyevin qurduğu Azərbaycan bax budur!

İlham Əliyevin formalaşdırdığı Azərbaycan Ordusu bax budur!

İlham Əliyevin milli dövlətçilik tarixinin ən qüdrətli mərhələsinə yetirdiyi Azərbaycanda yetişən gəncliyimiz bax budur!..



❖ ❖ ❖

Ali Baş Komandanın əmri ilə düşmən təxribatlarına qarşı əks-hücum əməliyyatları aparan Azərbaycan Ordusu qəhrəman balamız, qürur yerimiz Mübariz İbrahimovun bir zamanlar şəhid olduğu postu alıb burada bayrağımızı ucaltdı.

Cənab İlham Əliyev gör kimlərin ruhunu şad elədi, gör kimlərin qisasını aldı...

İlham Əliyev iki əsrdən bəridir ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımların qisasını aldı, iki əsrdir sürən tarixi dövranı dəyişdi. İlham Əliyev Xocalıda bir gecədə qətlə yetirilən yüzlərlə can parçamızın qisasını qiyamətə qoymadı.

İlham Əliyev həm də Ulu Öndər Heydər Əliyevin ruhunu bir daha şad etdi.

İllərlə davam edən danışıqlar prosesində işğalçı Ermənistanın xaricdəki havadarlarının yerbəyerdən bu çinar vüqarlı Liderin üzərinə yönələn təzyiqlərinin, ona çəkdirdikləri iztirabların, yuxusuz gecələrin, gərginliklərin qisasını gələcəyə buraxmadı. Ulu Öndər siyasət meydanını, bir neçə ay sonra isə fani dünyamızı cənab İlham Əliyevin onun yarım qalmış işlərini başa çatdıracağı ümidi ilə tərk etmişdi.

İlham Əliyev bu gün Ümummilli Liderin ən nisgilli arzusunu reallaşdırır, onun yarım qalmış ən vacib işini, planını tamama yetirir.

Heydər Əliyevin açdığı yeni səhifədə Azərbaycan tarixinin ən şərəfli sətirlərini yazır.

❖ ❖ ❖

Bir çox tarixi romanların müəllifi kimi özümdə zamanı şəxsiyyətlərlə birgə hiss etmək vərdişi formalaşdırmışam. Böyük şəxsiyyətlərimizin tarixdə hansı rolu oynadıqlarını aydın təsəvvür edirəm. Yaxşı bilirəm ki, Uzun Həsən, şah babamız Xətai, Nadir şah, onların sonrakı davamçıları Fətəli xan Xoyski, Məhəmməd Əmin Rəsulzadə, Əlimərdən bəy Topçubaşov və başqa cümhuriyyət qurucularımız, ötən əsrin 60-cı illərinin sonlarına doğru bu şəxsiyyətlərin mənəvi ideallarının tərcümanı kimi dövlətçilik tariximizdə ucalan Heydər Əliyev bu dövlət üçün nələr ediblər, kimdirlər.

İlham Əliyevin xalqımıza bəxş etdiyi bu tarixi qələbə də mahiyyət etibarilə Şah İsmayılın qurduğu mərkəzçi dövlətlə, müsəlman Şərqinin ilk demokratik cümhuriyyəti faktı ilə, Heydər Əliyevin uğurla həyata keçirdiyi müstəqil dövlət quruculuğu ilə bir sırada dayanan tarixi nailiyyətdir!

Günümüzün reallıqlarından baxanda isə, heç kəs inciməsin, onların hamısından daha üstün nəticədir!

Çünki o nailiyyətlərin hər birindən məhz bu nəticəyə doğru yol gəlirdi, İlham Əliyev bu nəticəni bütün böyük şəxsiyyətlərimizin mənəvi övladı kimi qazanıb, onların xeyir-duasını, hər nailiyyətimizdən şad olan ruhlarını duyaraq əldə edib.

❖ ❖ ❖

Orasını da nəzərə alaq ki, cənab İlham Əliyev adi bir düşmənə qalib gəlmir. O, arxasında böyük imperiyaların, dünyanı lərzəyə salan fövqəlgüclərin dayandığı və geopolitik maraqlarını həyata keçirmək üçün onların əlində maşa rolunu oynayan, mənəviyyatsızlığı, həyasızlığı sərhəd tanımayan, comərdlik nədir bilməyən son dərəcə rəzil bir düşmənə qalib gəlir. Bu, iki böyük imperiyaya arxalanan, onlardan dəstəvuz alan düşmən üzərində qazanılan qalibiyyətdir. Güclü yiyələrin üstümüzə qısqırtdıqları itlərin gəldikləri yerə tərəf qovulmasıdır.

İlham Əliyevin bu qələbəsi Azərbaycan tarixindəki böyük gözləntiləri reallığa çevirməklə möhtəşəmliyinə görə dünya siyasətində, dünya sərkərdəliyində, dünya hərb tarixində özünə daim parlaq yer tutacaq. Çünki bu ən incə detalına qədər düşünülmüş, hər bir məqamı böyük strateq səbri, müdrikliyi, əzmi və qətiyyəti ilə nəzərə alınmış bir döyüşün zəfəridir.

Açığını deyək, uzun illər ərzində hakimiyyətə qarşı tənqidlər də səslənirdi ki, niyə həlledici hücuma keçmirik, hər dəfə "Lazım gəlsə" deyirik, bəs nə zaman lazım gələcək. İlham Əliyevsə bizə yaşatdığı qələbələrlə bir daha sübuta yetirdi ki, dövlətin strateji addımları mənim, sənin, bir başqasının istəyinə bağlı deyil. Burada hər bir addımın öz vaxtı, vədəsi var, o məqamı tutmağı bacardınsa, zəfər səninkidir.

Böyük diplomatik səriştəsi ilə həlledici məqamlar ustası olan İlham Əliyev bu dəfə də bacardı. Və bizi özümüzə qaytardı. Azərbaycan xalqını özünəinama, qan yaddaşına, soy-kökümüzdən gələn mənəvi gücə qovuşdurdu.

Burasını da etiraf edək, uzun illərin işğal bədbinliyindən hamımız milli natamamlıq kompleksinə mübtəla olmuşduq. Hər birimizdə müəyyən inamsızlıq kompleksi vardı, elə bilirdik ki, daha o torpaqlar azad olunan deyil, bizə imkan verməzlər, gücümüz çatmaz, nə bilim daha nələr. Şükür dövlətimizin getdikcə artan sosial-iqtisadi imkanlarına, insanlarımızın yüksələn rifahına, bu sarıdan həyatımızda çox şey qaydasında olsa da, həmişə sanki nəsə çatışmırdı. Çatışmayan o dəyər itirilmiş torpaqlarımız, işğal yarasının heysiyyətimizdə zədələyib açdığı boşluqlar idi. Bunu açıq deyə bilməsək də, müəyyən yaxın dost çevrələrində danışırdıq, illərdir bu şəkildə davam edən durumdan gileylənirdik, heç olmasa bununla təsəlli tapmağa çalışırdıq.

İlham Əliyev isə son qətiyyətli addımları ilə bu təəssüratı büsbütün dəyişdi. Bizim özümüzə də, dünyaya da sübut etdi ki, biz əslində dünyanın ən döyüşkən xalqları sırasındayıq. Biz qalib gəlməyi bacaran xalqıq. Biz böyük mənəvi dəyərlərə malik xalqıq.

Neçə gündür Bakı küçələrində addımlayan insanlara baxıram, qalibiyyət sevinci ilə köksü atlanan həmvətənlərimizi seyr edirəm, elə bil adamların qəddi də düzəlib, indi hamımız on gün əvvələ qədər olduğundan da daha şax yeriməyə başlamışıq. Buna çox böyük ehtiyacımız vardı, bu qələbə bizi daha da böyüdəcək, başqa çatışmazlıqlarımızı da aradan götürəcək zaman-zaman...

❖ ❖ ❖

Hamı kimi cəbhə xəbərlərini az qala dörd gözlə izləyirəm. Artıq, demək olar ki, hər gün beş-altı kəndimizi düşməndən təmizləyirik.

Bilirəm ki, bu yazıya nöqtə qoyub əziz dostum Bəxtiyar Sadıqova göndərməyim və onun oxuculara çatması dövtündə də yeni kəndlərimiz işğaldan azad olunacaq. Bu artıq geriyə dönüşü olmayan bir prosesdir.

Artıq Qələbədən başqa yolumuz yoxdur...

Qeydlərimi Azərbaycanın müasir tarixi nailiyyətlərində misilsiz xidmətləri olan Mehriban xanım Əliyevanın bu duası ilə bitirirəm: "Uca Tanrı Ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun. Qarabağ Azərbaycandır!"

*Bu, bir ananın duasıdır...*
*Ana obrazında təcəlla tapmış Vətənimiz Azərbaycanın duasıdır...*
*Bu Vətənin hər bir övladının duasıdır...*
*Dualarımız başa varsın!*
*Qələbə bizimlədir!*
*Qarabağ Azərbaycandır!..*

**Hüseynbala MİRƏLƏMOV,**
**yazıçı-publisist**

# Müdafiə Nazirliyi xəbər verir

## Anar EYVAZOV: "Ordumuz qazandığı uğurları genişləndirmək üçün irəliləyərək yeni dayaq məntəqələrini azad edib"

**Ötən müddət ərzində bütün cəbhəboyu döyüşlər davam edib. Ordumuz əldə olunan nailiyyətləri genişləndirmək məqsədilə müxtəlif istiqamətlərdə irəliləyərək yeni dayaq məntəqələrini azad edib. Bölmələrimiz ərazini düşməndən təmizləyib, onların zirehli texnikalarını məhv edib.**




AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 7-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, eyni zamanda qarşılıqlı artilleriya atışları qeydə alınıb. Ordumuzun dəqiq artilleriya zərbələri ilə düşmənin müdafiə sahəsində bir tankı və üç topu məhv edilib. Beşinci alayın müdafiə sahəsində isə komanda-müşahidə məntəqəsi sıradan çıxarılıb. Düşmənin tərəfindən çoxlu sayda ölən və yaralananlar var. Əldə olunan məlumata görə, düşmənin 1-ci alayında ərzaq çatışmazlığı səbəbindən şəxsi heyətin qida təminatında ciddi problemlər yaranıb. Buna görə də şəxsi heyət döyüş mövqelərini özbaşına tərk edərək fərarilik edib.

Müdafiə Nazirliyinin mətbuat katibi vurğulayıb ki, düşmənin digər bölmələrində döyüş sursatları və yanacaq təminatında ciddi problemlər var. Bəzi istiqamətlərdə müdafiə sahəsində düşmən bölmələrinin öz arasında qarşılıqlı əlaqənin olmaması nəticəsində bir-birinə atəş açılıb, ölən və yaralananlar var. Əks-hücum əməliyyatı başlayandan bu günədək ordumuz tərəfindən Ermənistan silahlı qüvvələrinin 250-dək tank və digər zirehli texnikası, 270-dək artilleriya, yaylım atəşli raket sistemləri, minaatanı, 60-dək hava hücumundan müdafiə vasitəsi, 11 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 8 silah-sursat anbarı, 150-dək avtomobil texnikası və 1 ədəd "S-300" zenit-raket kompleksi və xeyli sayda şəxsi heyəti məhv edilib.

Diqqətə çatdırılıb ki, ordumuzun qətiyyətli əks-hücumu qarşısında aciz qalan qondarma rejimin və Ermənistan rəsmilərinin ziddiyyətli bəyanatları onların psixoloji durumunu aydın şəkildə əks etdirir. İtirilmiş mövqeləri dırnaqarası qaytaran işğalçı ordu Azərbaycanın dinc əhalisinin kompakt yaşadığı ərazilərdə, habelə Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Füzuli, Yevlax, Goranboy və Beyləqan və Cəbrayıl rayonlarını raket və artilleriya atəşinə tutub. Ordumuz tərəfindən düşmənə qarşı adekvat tədbirlər görülür. Ordumuzun və əsgərlərimizin qələbə əzmi tamdır. Ali Baş Komandan tərəfindən verilmiş bütün döyüş tapşırıqları müvəffəqiyyətlə icra edilir.

## Azərbaycanın Müdafiə Nazirliyi Ermənistan ordusunun məhv edilmiş döyüş texnikasının siyahısını açıqlayıb

*Düşmənin ümumilikdə:*

- **250**-dək tank və digər zirehli texnikası;
- **270**-dək artilleriya, yaylım atəşli raket sistemləri, minaatan;
- **60**-dək çox hava hücumundan müdafiə vasitələri;
- **11** komanda-idarəetmə və komanda-müşahidə məntəqələri;
- **8** silah-sursat anbarı;
- **150**-dək avtomobil texnikası;
- **1** ədəd "S-300" zenit-raket kompleksi



## Azərbaycan bayrağı Cəbrayılın mərkəzində

Azərbaycan bayrağı Cəbrayılın mərkəzində dalğalanır. AZƏRTAC bununla bağlı fotoları təqdim edir.

Xatırladaq ki, Cəbrayıl şəhəri oktyabrın 4-də işğaldan azad edilib.

## Azərbaycan Müdafiə Nazirliyi düşmənin döyüş texnikasının məhv edilməsinə dair növbəti videogörüntü yayıb

Azərbaycan Respublikası Müdafiə Nazirliyi Ermənistan ordusunun daha bir neçə döyüş texnikasının məhv edilməsinə dair növbəti videogörüntü yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla həmin videogörüntüləri təqdim edir. Xatırladaq ki, sentyabrın 27-dən oktyabrın 7-də saat 05.30-dək düşmənin 250-dək tank və digər zirehli texnikası, 270-dək artilleriya, yaylım atəşli raket sistemləri, minaatanı, 60-dək hava hücumundan müdafiə vasitəsi, 11 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 8 silah-sursat anbarı, 150-dək avtomobil texnikası və 1 ədəd "S-300" zenit-raket kompleksi Azərbaycan Ordusu tərəfindən məhv edilərək sıradan çıxarılıb.



## Erməni hərbçiləri bir neçə hərbi texnikanı və yanğınsöndürən maşını ataraq qaçıblar



Azərbaycan Ordusu ilə üz-üzə gəlməkdən qorxan düşmən əsgərləri hərbi texnikalarını ataraq qaçırlar.

AZƏRTAC xəbər verir ki, hərbçilərimizin uğurlu əməliyyatı nəticəsində düşmənin daha bir neçə hərbi texnikası - rabitə avtomobili olan "Ural", "Picap" və yanğınsöndürən maşın qənimət kimi ələ keçirilib.




## Azərbaycan MN: Ermənistan müdafiə nazirliyi rəsmilərinin fantaziyaları tükənmir

**"Ermənistan müdafiə nazirliyinin rəsmi nümayəndələrinin fantaziyaları tükənmir. İşğalçı ordunun uğursuzluqlarından çıxılmaz vəziyyətdə qalan Ermənistan rəsmiləri uydurma və fantastik məlumatlar yaymaqla təsəlli tapırlar".**

AZƏRTAC xəbər verir ki, bu fikir Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mətbuat xidmətinin məlumatında əksini tapıb.



Məlumatda qeyd olunub: "Görünən odur ki, Ermənistan ordusunun hər gün itirdiyi mövqeləri bu ölkənin müdafiə nazirliyinin nümayəndəsi virtual aləmdə "qəhrəmancasına geri qaytarmaqla" məşğuldur. Əslində isə onun hər dəfə bu və ya digər mövqeyin "geri qaytarılması" barədə fantastik məlumatlar verməsi Ermənistan ordusunun həmin mövqeləri itirdiyinin təsdiqidir. Qondarma rejimin və Ermənistan rəsmilərinin biri-birindən fərqli və ziddiyyətli məlumatlar yayması isə ermənilərin bu gün nə qədər acınacaqlı durumda olduğunu bir daha sübut edir.

## Ermənistan ordusunun tankları öz artilleriya bölmələrinin atəşinə məruz qalıb

Məlum olduğu kimi, düşmənin 3 tankından ibarət tank kolonu gecə vaxtı Xankəndidən çıxaraq ön xəttə doğru irəliləyib. Lakin zirehli texnika kolonu ön xətt bölmələrinə çatmadan öz artilleriya bölmələrinin atəşinə məruz qalıb.

Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, alınan məlumatlara görə, "dəqiq" zərbə ilə bir tank ekipajla birlikdə tamamilə məhv edilib, qalanları isə sıradan çıxarılıb.

## Ermənistan ordusunun hərbçilərinin qaçarkən döyüş meydanında tərk etdiyi texnikaların videogörüntüsü yayılıb



Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistan ordusu hərbçilərinin qaçarkən döyüş meydanında tərk etdikləri texnikaların videogörüntüsünü paylaşıb.

AZƏRTAC nazirliyin Mətbuat xidmətinə istinadla həmin videogörüntüləri təqdim edir.



## Ermənistana məxsus PUA məhv edilib

**Oktyabrın 7-si saat 22.00 radələrində Ermənistana məxsus pilotsuz uçuş aparatı (PUA) Ermənistan-Azərbaycan dövlət sərhədinin Ağstafa rayonu sahəsində uçuş keçirməyə cəhd göstərib.**

AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib ki, Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunan düşmən PUA-sı dərhal məhv edilib.

## Baş Prokurorluq Ermənistanın qadağan olunan bombadan istifadə edərək Bakı-Tbilisi-Ceyhan boru kəmərini hədəfə alması ilə bağlı məlumat yayıb

Təcavüzkar Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini, o cümlədən "Silahlı münaqişələr zamanı mülki şəxslərin müdafiəsinə dair" 1949-cu il tarixli Cenevrə Konvensiyasının və Konvensiyaya olunmuş Əlavə protokolların tələblərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin silahlı birləşmənin üzvləri mühüm dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə etməklə oktyabrın 6-da saat 18:30 radələrində Azərbaycan Respublikasının Yevlax rayonunun silahsızlaşdırılmış zonaları, habelə hərbi hədəf olmayan, aydın görünən, fərqləndirilən və xam neft və kondensat ixrac edən kəmərləri hədəfə almaqla, eləcə də döyüşlərdə iştirak etməyən, hərbi əməliyyatlar aparılan ərazidən ən azı 50 kilometrdən artıq məsafədə yerləşən Yevlax rayonunun Aran qəsəbəsi istiqamətində beynəlxalq hüquqla qadağan edilmiş silahları, müharibə vasitələrini və üsullarını tətbiq edib mülki obyektlərə əhəmiyyətli zərər vura bilən qurğulara raketlə hücum etməklə 9M525 qəlpəli "Smerç" nəslindən olub böyük dağıdıcı qüvvəyə malik, içərisində 300 ədəd 9N235 bombacıqları olan reaktiv yaylım atəşli raketdən atəş açıb. Raketin Azərbaycan Silahlı Qüvvələri tərəfindən havada zərərsizləşdirilməsi nəticəsində onun içərisində olan bombacıqlardan bir hissəsi Yevlax rayonunun Aran qəsəbəsindən keçən, diametri 42 düym olan Cənub Qafqaz Genişlənmiş Boru kəmərinin boru xəttinin üzərinə, bir hissəsi həmin ərazidən keçməklə xam nefti Qara dəniz sahilinə nəql edən Qərb İxrac Boru kəmərindən 120 metr məsafəyə, digər hissələri isə həmin qəsəbədən keçən Bakı-Tbilisi-Ceyhan neft kəmərindən 100 metr məsafəyə səpələnib. Bununla da neft ixrac edən və dağıdılması əhəmiyyətli əmlak ziyanının vurulmasına səbəb ola bilən böyük ötürücülü xam neft və kondensat ixrac edən kəmərlər üçün təhlükəli şərait yaratmaqla infrastruktur obyektlərinə və digərlərinə məxsus xüsusilə külli miqdarda əmlakların qəsdən məhv edilməsinə cəhd olunub, Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibə planlaşdırılaraq aparılıb, terrorçuluq cinayəti törədilib. Göstərilən cinayət faktları ilə bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən oktyabrın 6-da Cinayət Məcəlləsinin 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma), 116.0.1, 116.0.6, 116.0.7 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 117.2 (silahlı münaqişə zamanı cinayətkar əmr vermə), 214.2.1, 214.2.3 (terrorçuluq), 218.3 (cinayətkar birlik (təşkilat) yaratma), 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri yaratma) və 186.3-cü (xüsusilə külli miqdarda ziyan vurmaqla əmlakı qəsdən məhv etmə və ya zədələmə) maddələri ilə cinayət işi başlanıb. İstintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə edilib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən hadisə yerində zəruri istintaq tədbirləri və prosessual hərəkətlər həyata keçirilir.

Ermənistanın işğalçı mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi, işğalçı dövlətə qarşı beynəlxalq hüquqla nəzərdə tutulmuş sanksiyaların tətbiq olunması məqsədilə Baş Prokurorluq tərəfindən bütün beynəlxalq qurumlara müraciət ediləcək.

## Ermənistan ordusunun dinc əhalini hədəfə alması nəticəsində 30 nəfər həlak olub, 143 nəfər xəsarət alıb

Azərbaycan Respublikasının Baş Prokurorluğu beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirən təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyinin bilavasitə göstərişi ilə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məntəqələrini atəşə tutması nəticəsində həlak olan və xəsarət alan mülki şəxslərin, eləcə də infrastruktura dəyən ziyanın yeni statistikasını açıqlayıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində 7 oktyabr saat 18:00-a olan məlumata görə, həlak olmuş şəxslərin sayı 30-a, xəsarət alanların sayı isə 143-ə çatıb. Bundan başqa, Ermənistanın ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 427 evə və 66 mülki obyektə ciddi ziyan dəyib.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

## Düşmənin Bakı-Tbilisi-Ceyhan neft kəmərini hədəf alaraq atdığı "Smerç" raketinin bombacıqlarından 242-si ərazidən daşınıb

**Ermənistan silahlı qüvvələrinin regionun ən böyük strateji layihəsi, Avropanın enerji təhlükəsizliyi sahəsində mühüm yer tutan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Yevlax rayon ərazisindən keçən hissəsinə endirdiyi raket zərbəsi "Smerç" reaktiv yaylım atəşi sistemindən həyata keçirilib.**

ANAMA-nın əməkdaşı Qədir Namazalıyev AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, "Smerç" tipli raketin tərkibində olan 300 bombacıq ətrafa səpələnib. Həmin bombacıqlardan 2-si düşərkən partlayıb. Bombacıqlardan 242-si ANAMA tərəfindən daşınıb. Ərazidə qalan 56 ədəd bombacığın daşınması təhlükəli olduğundan yerindəcə zərərsizləşdiriləcək.

*AZƏRTAC*

## FHN düşmənin yaşayış məntəqələrini atəşə tutması nəticəsində baş vermiş fəsadlarla bağlı məlumat yayıb

Məlum olduğu kimi, sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək Azərbaycan əhalisinin sıx yaşadığı məntəqələri - döyüş bölgələrindən kənarda yerləşən şəhər və kəndlərdəki mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından və raketlərdən atəşə tutaraq mülki obyektlərdə dağıntı və yanğınlar törədir.

Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, bu dövrdə ümumilikdə 21 fərdi evdə, 2 mənzil, 20 təsərrüfat, 2 ticarət və 1 infrastruktur obyektində, habelə qəbiristanlıq, qamışlıq, açıq sahə və Ağgöl Milli Parkı kimi ərazilərdə baş vermiş 10 yanğın hadisəsinin qarşısının alınması məqsədilə FHN-in müvafiq qüvvələri səfərbər edilib. Bir sıra hallarda yanğın baş vermiş ərazi düşmən tərəfindən intensiv atəş altında saxlanıldığından yanğınsöndürmə qüvvələrinin hadisələrə operativ müdaxiləsi mümkün olmayıb. Bundan əlavə, xəsarət almış 9 nəfər və 2 cəsəd düşmənin raket atəşləri nəticəsində dağılmış evlərin dağıntıları altından çıxarılaraq aidiyyəti üzrə təhvil verilib.

Qeyd edək ki, əhalinin fövqəladə hallara hazırlığı məqsədilə nazirlik tərəfindən fövqəladə hallarla bağlı davranış qaydalarına dair mütəmadi maarifləndirmə işləri aparılır. Ümumtəhsil, orta ixtisas və ali təhsil, tibb, istehsalat, turizm və digər müəssisələrdə, habelə KİV və sosial şəbəkələr vasitəsilə aparılan maarifləndirmə işləri sayəsində fövqəladə hallarla bağlı müvafiq davranış vərdişlərinin formalaşması təmin olunur. Həmçinin əhalinin mülki müdafiə sahəsində hazırlığı və maarifləndirilməsi məqsədilə nazirlik tərəfindən mülki müdafiə kursları və məşğələləri təşkil edilir, kompleks mülki müdafiə təlimləri, cəbhəboyu zonalarda yerləşən yaşayış məntəqələrində yaşayan əhalinin təhlükəsizliyinin təmin olunması sahəsində maarifləndirmə tədbirləri və digər tədbirlər həyata keçirilir.

Qeyd edək ki, Fövqəladə Hallar Nazirliyi hazırda gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Baş verən hər hansı fövqəladə hadisə ilə əlaqədar nazirliyin 112 - "Qaynar" telefon xəttinə dərhal məlumat verilməsi xahiş olunur.

# Xalq orduya və Komandana güvənir, arxalanır



## Ön cəbhədə Ali Baş Komandan və onun əsgəridir

### Qələbələrin rəhni birliyimizdədir

**30 ildir yağı tapdağındakı torpaqlarının azad edilməsi uğrunda mübarizəyə qalxmış xalqımız bu haqq savaşında öz Prezidentinə arxalanır, ondan güc alır. Döyüş meydanında düşmənə qalib gələn və qazandığı qələbələrin sayını getdikcə artıran ordumuz özünün Ali Baş Komandanının rəhbərliyi ilə Qarabağı faşistlərdən tam azad edəcəyinə əmindir. Bu günlərdə bütün xalq öz rəhbəri ətrafında bir yumruq kimi daha sıx birləşib.**

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev də Vətən, torpaq müdafiəçilərinin mərdliyini, hünərini yüksək qiymətləndirir. Sıravi əsgərdən ən yüksək rütbəli zabitədək hamısının vətənpərvərliyi, qəhrəmanlığı dövlət başçısının diqqət mərkəzindədir. Onların hər birinin həyatı Ali Baş Komandan üçün əzizdir. Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərimizlə görüşəndə bu münasibətin bir daha şahidi olduq. Prezident onlara Vətən uğrunda canla-başla vuruşduqları üçün ən layiqli sözlər dedi, sağlamlıqları ilə maraqlandı, bundan sonra da qayğı ilə əhatə olunacaqlarını bildirdi: "Siz gənc yaşlarınızda böyük qəhrəmanlıq, şücaət göstərib, Vətən uğrunda şərəflə vuruşub öz adlarınızı Azərbaycan tarixinə yazdırırsınız. Eyni zamanda, sizi belə vəziyyətdə görmək mənim üçün, hamımız üçün ağırdır. Amma əmin ola bilərsiniz ki, sizin sağlamlığınız üçün nə lazımsa, biz onu edəcəyik... Bir arzumuz var ki, siz tezliklə sağalıb, normal həyata qayıdıb öz şərəfli missiyanızı davam etdirəsiniz. Gənclər üçün siz nümunə olmalısınız, örnək olmalısınız, Azərbaycan xalqı qəhrəman xalqdır ki, sizin kimi övladlar yetişdirib".

Dövlət başçısı, həmçinin qəhrəman oğullar böyütmüş valideynlərə də təşəkkür etdi: "Bu gün bütün digər yaralı hərbçilərimizin, eyni zamanda, şəhid olmuş hərbçilərimizin valideynləri qarşısında baş əyirəm. Onlara öz adımdan, Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm. Qəhrəman övladlar yetişdiriblər. Əminəm ki, onlar və bütün Azərbaycan xalqı sizinlə qürur duyur".

Prezident əsgər və zabitləri hər qələbə münasibətilə təbrik edir. Oktyabrın 4-də xalqa müraciətində demişdir: "Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm".

Bütün bunlar beynəlxalq ictimaiyyətin də nəzərindən yayınmır. Təsadüfi deyil ki, Türkiyənin "TRT Haber" televiziya kanalının müxbiri bu nüansı qeyd edərək Prezidentimizin ordu komandirlərinə zəng vurduğunu, onları təbrik etdiyini vurğulayıb. "TRT Haber"ə müsahibəsində dövlətimizin başçısı bunun təbii olduğunu söyləyib. Çünki onlar tarixi ədaləti bərpa edirlər, öz həyatlarını risk altına atırlar. Onlar qəhrəmandırlar və torpaqlarımızı işğaldan azad edirlər, özümüzə qaytarırlar.

Oktyabrın 3-də Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Dövlət başçısı dərhal bu məkanın tarixi adını bərpa edərək onun Suqovuşan adlandırıldığını bəyan etdi. Həmin gün ordumuz tərəfindən Tərtər, Cəbrayıl və Füzuli rayonlarının daha 8 kəndi azad olundu. Prezident 1-ci Ordu Korpusunun komandiri Hikmət Həsənovu təbrik etdi. Ona tapşırıq verdi ki, Ali Baş Komandanın təbriklərini korpusun bütün şəxsi heyətinə çatdırsın.

Növbəti gün Azərbaycan Ordusu Cəbrayıl şəhərini və rayonun bir neçə kəndini işğaldan azad etdi. Bu münasibətlə də Ali Baş Komandan hərbçilərə təbrik ünvanladı. Birlik komandirləri - general-mayor Mayis Bərxudarovu, general-mayor Hikmət Mirzəyevi və onların rəhbərlik etdikləri şəxsi heyəti təbrik etdi.

Təbriki alan generallar Ali Baş Komandana təşəkkürlərini bildiriblər, qarşıya qoyulmuş bütün vəzifələrin bundan sonra da şərəflə yerinə yetiriləcəyini deyiblər.

Belə də olmalıdır. Çünki biz haqq yolundayıq, erməni faşistlərindən öz ata-baba yurdlarımızı, doğma torpaqlarımızı azad edirik. Azad edirik ki, yağı əli ilə pərən-pərən düşmüş ellərimiz öz obalarına, ev-eşiklərinə qayıtsın. O yerlərdə yenidən çıraqlar yansın, sular axsın, ocaqlar qalansın, qazanlar qaynasın. Odur ki, bu müqəddəs missiyanı yerinə yetirən Azərbaycan əsgəri belə əzizdir. Xalqı, dövləti, Ali Baş Komandanı üçün...

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Vur, Komandan, vur!

## Ordunun gücü, sərkərdənin qüdrəti

**Bu gün Azərbaycan hərb tarixinin ən şanlı səhifələrini yazır. İşğalçı Ermənistanın Dağlıq Qarabağda sonsuz terror aktlarından nəşələnən qanunsuz hərbi quldur dəstələrinə qarşı müqəddəs müharibədə Milli Ordumuz hər gününü yeni qələbələrlə başa vurur. İşğaldan azad olunan kənd və qəsəbələrdə göylərə Azərbaycan bayrağı yüksəlir. Bu bayraqlar durna qatarı kimi Xankəndiyə doğru sarı sıralanır.**

Oktyabrın 4-də Prezident İlham Əliyev xalqa müraciətində belə dedi: "Bilirsiniz, bir həftədir ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni yerinə oturdur, düşməni torpaqlarımızdan qovur, canı-qanı bahasına. Bu şərəfli missiya tarixdə öz yerini tapacaqdır".

Sorosun dığası Paşinyan indi başa düşür ki, Cıdır düzündə göbək atıb əmbiz oynatmaq, Şuşada quldur rejiminin başçısının inauqurasiyasını keçirmək və terrorçu rejimin icmasının paytaxtını Xankəndidən Şuşaya köçürməklə bir xalqın milli mənliyinə, şərəf və ləyaqətinə toxunanların cəzası da əməllərinə uyğun olacaq. Paşinyanın bu həqarətli və təhqiramiz diplomat "lambada"sını nə Azərbaycan xalqı, nə də dövlət başçısı qəbul edəcək. Azərbaycan Ordusu isə nəyə qadir olduğunu düşmənə bir neçə günün içində anladacaq. Dünən poza verən Paşinyan bu gün ağı deyir, haray qoparır ki, erməni xalqının sonu çatıb. O, neçə gündür ki, üzünü Avropaya tutub yalvararaq havadarlarını çağırır.

"İt yatıb qaya kölgəsində, elə bilir öz kölgəsidir". Erməni yaraqlıları da arxalarında duran var deyə, elə bilirdilər ki, qurdbasandırlar. Amma indi Azərbaycan Ordusunun gücündən və əzəmətindən qaçaraq gizlənməyə siçan deşiyi axtarırlar.

Azərbaycan Ordusu işğalçı Ermənistanı diz çökdürəcək, Qarabağ işğaldan azad ediləcək. Ona görə ki, Azərbaycanda aparılan islahatlarda ordu quruculuğu həmişə birinci yerdə olub, müasir dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirilib. 2003-cü ildən Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar bu gün Milli Ordumuzu dünyanın ən qüdrətli ordularından birinə çevirmişdir. Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasındadır. Bu yeri tutmaq isə hərbi potensialın gücləndirilməsi, qoşun birləşmələrinin döyüş hazırlığının müasir standartlar səviyyəsində qurulması sayəsində mümkün olmuşdur.

Azərbaycan Ordusu həm də böyük təcrübə qazanmışdır. Onun sülhməramlı kontingenti müxtəlif illərdə Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri əməliyyatlarında, Kabil şəhərində yerləşən televiziya qülləsinin, İSAF-ın mərkəzi silah-sursat anbarının təhlükəsizliyinin təmin edilməsində iştirak etmişdir. Silahlı Qüvvələrimizin sülhməramlı bölüyü şəxsi heyətlə İraqda Beynəlxalq Koalisiya Qüvvələri tərkibində fəaliyyət göstərmiş, müxtəlif illərdə NATO-nun Əfqanıstanda keçirdiyi "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasında iştirakçı olmuşdur.

1999-cu ildən üzübəri müxtəlif regionlarda keçirilən sülhməramlı əməliyyatlarda Azərbaycan Ordusunun 3000-dən artıq hərbi qulluqçusu iştirak etmişdir. Ordumuz neçə illərdir ki, Beynəlxalq ordu yarışlarına qatılır və demək olar ki, hər il birincilərin sırasında yer alır. Türkiyə Silahlı Qüvvələri ilə birlikdə keçirilən hərbi təlimlər isə onun püxtələşməsində, döyüş qabiliyyətinin artaraq indiki səviyyədə formalaşmasında əvəzsiz rol oynamışdır.

Bu gün ordumuzun Qarabağda apardığı müharibə hərb tarixində ən son təcrübəyə, ən müasir texnologiyalara söykənir və demək olar ki, bəşər tarixində indiyədək aparılan bütün müharibələrdən strateji və taktiki baxımdan fərqlənir. Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatı elə dəqiq və sürətlidir ki, ermənilərin qanunsuz silahlı dəstələri göz açmağa macal tapmır.

Bu gün Azərbaycan xalqının iradəsi, ordunun vuran əli və Prezident, Ali Baş Komandan İlham Əliyevin mətin sərkərdə qətiyyəti bir hədəfə tuşlanıb. Hamı qələbəyə köklənib. Hər kəs işğal altındakı torpaqların azad olunması uğrunda canından keçməyə hazırdır. Hamı əsgərdir. Ən başlıcası, heç kimin gözündə qorxu yoxdur.

Prezident belə deyir: "Biz bütün şəhərləri bərpa edəcəyik. Ermənilər tərəfindən dağıdılmış bütün məscidlərimizi bərpa edəcəyik. Bu bölgələrə həyat qayıdacaq. Biz ermənilər tərəfindən bizim tarixi adlarımızı dəyişdirib tarixi saxtalaşdırmaq, eyni zamanda, Azərbaycan xalqının tarixi-mədəni irsini silmək cəhdlərinə son qoyduq. Bizim yaşayış məntəqələrinin tarixi adları bərpa edilir və bərpa ediləcəkdir. Biz öz torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir".

Qələbəni təmin edən ən güclü amillərdən biri də ordunun, döyüşən əsgərin ruh yüksəkliyi, qələbəyə inanmasıdır. İlham Əliyev Ali Baş Komandan kimi atdığı addımlarla bu inamı hər bir əsgərin qəlbində alova, atəşə çevirə bilib.

Əgər yadınızdadırsa, 1992-ci ildə də orduyabənzər batalyonlar var idi. Amma onlara etibar edib inanan yox idi. Haraya bir qrad mərmisi düşürdüsə, oradan əhali təşviş içində çıxırdı. 1992-ci ildə gecə Bərdəyə 29 mərmi düşəndə biz də oradaydıq. İnsanlar küçələrə axışmışdı, hamı şəhərdən çıxmaq üçün maşın axtarırdı, onu da tapa bilmirdi. İndi də cəbhə bölgələrindəki yaşayış məntəqələrinə mərmi və raket atılır. Artıq raket atılan ərazilərin sırasında Xızı və Abşeron rayonlarının adı çəkilir. Amma kimsə evini-eşiyini tərk etmir. Çünkü hamının güvən yeri var.

Tarixi proseslər öz axarı ilə inkişaf edir, lakin qələbənin əldə edilməsində şəxsiyyətin rolu böyük və danılmazdır. İlham Əliyevin dövlət başçısı kimi gücü ondadır ki, Azərbaycanın müharibə şəraitində yaşamasına baxmayaraq, islahatlardan keçən müasir dövlət qurdu, dünyanın ən qüdrətli orduları ilə bir sırada dura bilən güclü ordu yaratdı. Prezidentin ən möhtəşəm addımı isə bütün xalqı öz ətrafında birləşdirə bilməsi, hamının inamını qazanmasıdır. Son günlər dövlət başçısının atdığı qətiyyətli addımlar, müharibəni sərkərdə kimi məharətlə idarə etməsi, diplomatik arenada böyük güclərə sərt şəkildə Azərbaycanın sözünü deməsi hər birimizi bir daha qürurlandırır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Bu gün Ali Baş Komandan bir neçə cəbhədə döyüşür

**Bu gün Azərbaycan Vətən müharibəsi aparır. Bu müharibədə əsas ağırlıq Ali Baş Komandanın və Ordumuzun çiyninə düşür. Arxa cəbhədə isə hər kəs əlindən gələni edir, əsgərlərimizə maddi və mənəvi dəstək göstərir.**

Bu gün Azərbaycan Prezidenti üç cəbhədə inamla vuruşur. Birincisi, Ali Baş Komandan kimi döyüşlərə rəhbərlik edir. İkincisi, müxtəlif beynəlxalq təşkilat və dövlət rəhbərləri ilə danışıqlar aparır. Üçüncüsü isə, güclü erməni lobbisinin təsiri altında olan və ölkəmizə qarşı aparılan informasiya müharibəsi cəbhəsində qətiyyətlə sözünü deyir.

Dövlət başçısının "Rossiya-1" telekanalında Ermənistanın baş naziri Nikol Paşinyanla keçirdiyi debatı yada salaq. Aparıcıların, studiyada olan ekspertlərin, politoloqların ermənipərəst olduğunu bundan əvvəlki çıxışlarından da bilirdik. Bununla belə, onlar problemin həlli barədə Prezident İlham Əliyevin beynəlxalq hüquqa, həqiqətə və ədalətə söykənən çıxışını, natiqlik bacarığını və auditoriyaya təsir etmək qabiliyyətini etiraf etməyə məcbur oldular. Onlar Ermənistanı nə qədər müdafiə etmək istəsələr də, Nikol Paşinyanın heç bir hüquqi arqumentə söykənməyən yalan və böhtanlarına haqq qazandıra bilmədilər. Nəticədə Azərbaycan Prezidentinin çıxışını dinləyən milyonlarla insana məsələ gün kimi aydın oldu.

Ancaq sən demə, Rusiyada vicdanlı, hadisələrə ədalətlə yanaşan siyasətçilər, ekspertlər və politoloqlar da varmış. Onlardan biri - "Natsionalnaya oborona" jurnalının həmin verilişdə iştirak edən baş redaktoru İqor Korotçenko Ermənistanın baş naziri Nikol Paşinyanın sərsəm çıxışını dinlədikdən sonra dedi: "Mən Azərbaycan və Ermənistan liderlərinin çıxışlarını diqqətlə dinlədim. İlham Əliyev şərtsiz olaraq dəqiq, tamamilə məntiqi, düzgün, ardıcıl çıxış etdi. Bu, MDBMİ məktəbidir". Bu isə o demək idi ki, dövlətimizin başçısının çıxışı ilə erməni təbliğat maşınının illərlə uydurub Rusiya ictimaiyyətinə sırıdığı yalanlar ifşa olunmuşdu.

Tarixdən məlumdur ki, müharibə edən dövlətlər paralel olaraq diplomatik sahədə də mübarizə aparırlar. O da məlumdur ki, ermənilərin havadarları, onları bu haqsız müharibədə dəstəkləyənlər çoxdur. Xocalıda soyqırımı törədiləndə, Dağlıq Qarabağda və ətraf rayonlarda mülki azərbaycanlılar qətlə yetiriləndə səslərini çıxarmayanlar bu gün bizi mülki əhalini qətlə yetirməkdə günahlandırırlar.

Prezidentə zəng edən əksər Qərb ölkələrinin dövlət başçıları da döyüşlərin dayandırılması barədə müraciət edəndə bunu dinc əhalinin həlak olması kimi humanizm şüarları ilə pərdələmək istəyirlər. Əslində, məqsədləri bu yolla torpaqlarımızın işğaldan azad olunmasının qarşısını almaq, bizi yenidən "sülh danışıqları" dalanına salmaqdır. Həmin danışıqlarda Prezident İlham Əliyev onlara əsl diplomatlara xas olan qaydada qısa, məntiqli və lakonik cavab verir: "Ermənistan rəsmi şəkildə ölkəmizdən işğalçı qüvvələrini çıxarmaq və ərazi bütövlüyünü tanımaq barədə rəsmi bəyanat versin". Dövlət başçısının beynəlxalq hüquqa və ədalətə söykənən bu tələbi qarşısında minnətçilər aciz duruma düşürlər.

Bir məsələni də qeyd etmək istəyərdik. İkinci Dünya müharibəsi başlayanda bir həftə "xalqlar atası"ndan səs-soraq çıxmadı. Stalinin radio ilə xalqa müraciətini lentə köçürəndə keçirdiyi təlaş və qorxudan səsinin titrədiyi aşkar hiss olunurdu. Onun ətrafındakılar sovet adamına rəhbərin çıxışının pis təsir göstərəcəyinin fərqində idilər. Bu səbəbdən onlar həmin mətni səsi ilə Hitleri qorxuya salan Levitanın oxumasını təklif etdilər. Çünki belə çətin anlarda xalqın rəhbərə baxıb düzləndiyini yaxşı bilirdilər.

Tarixə bu kiçik ekskurs etməyimizin səbəbi var. Sentyabrın 27-də biz də yağı düşmənin amansız hücumuna məruz qaldıq. Bu hücum nəticəsində cəbhəyanı bölgədə yaşayan dinc əhali arasında tələfat oldu. Az sonra Prezident İlham Əliyev xalqa müraciət etdi. Çəkdiyimiz misaldan fərqli olaraq dövlət başçısının səsində qətiyyət, üzündə cəsarət var idi. Prezidentimizin dünyanın aparıcı televiziya kanallarına verdiyi müsahibələrində də cəsarət, qətiyyət və prinsipial mövqe görürük.

Sözsüz ki, bu, ilk növbədə, Prezidentin şəxsi keyfiyyətidir. Biz əvvəllər də dövlət başçısının çətin anlarda cəsarətli addımlar atdığını görmüşük. Amma Prezident bu gücü həm də Azərbaycan xalqından alır. "Bir oğlum şəhid oldu, ikincisi də Vətənə qurban olsun" deyən anadan, ayağı təzə yer tutan uşaqların əsgər forması geyinib əldə bayraq qürurla gəzməsindən, ata-oğulun bir yerdə cəbhəyə yola düşməsindən, qələbə naminə sinəsini sipər etməyə hazır olan xalqdan alır.

...İşdən evə qayıdırdım. Evimizin qarşısında qonşum Bəxtiyarın balaca qızı Selcanla rastlaşdım. Əyninə əsgər forması geyinmişdi. Ona əsgəri qaydada salam verdim, çox sevindi. Soruşdum ki, sən də döyüşmək istəyirsən?

Dedi: "Bəli, mən də torpaqlarımızı azad etmək istəyirəm".

Bu gün Prezident, Ali Baş Komandan İlham Əliyev belə xalqın Prezidenti olmaq qürurunu yaşayır, vətəndaş da müdrik Prezidenti, cəsarətli Ali Baş Komandanı ilə fəxr edir. Bizə qələbələr qazandıran da bu güc və bu birlikdir!

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycançılıq ideyası Qarabağ qələbəsinin zəminidir

Yurdumuzu yağı düşməndən təmizləyib torpaqlarımızın ərazi bütövlüyünün bərpasına nail olmaq üçün indiki mərhələdə azərbaycançılıq qədər ciddi, məqsədyönlü təsir vasitəsi düşünmək mümkün deyil. Bunu hər bir vətəndaş iş yerində, evdə, ictimaiyyət arasında, övlad tərbiyəsi zamanı bir an belə unutmamalıdır!

Prezident İlham Əliyev bütün çıxışlarında bu məsələni xüsusi vurğulayır: "Bizi əsrlər boyu bir millət, bir xalq kimi qoruyan, saxlayan dəyərlərimiz olmuşdur. Bu gün bu məsələyə çox böyük diqqət göstərilir. Bu gün qloballaşan, çətinliklə üzləşən dünyada milli dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir. Bizim dövlətçiliyimizin çox möhkəm ideoloji əsasları vardır. Azərbaycançılıq məfkurəsi bizim ideoloji dayağımızdır".

Azərbaycançılıq ideyası ibtidadan, yəni şüurlarda xırda bir işartı kimi alışdığı andan müstəsna dəyərə malik olmuşdur. Eyni zamanda təqribən 150 ilə yaxın vaxt axarında tarixi təkamül yolu keçmiş, ürəkdən-ürəyə, düşüncədən-düşüncəyə adlayaraq sarsılmaz bir qüvvəyə çevrilmişdir. Bu ideyanın daşıyıcıları lap ilk vaxtlardan xalqımızın ən layiqli övladları olmuşlar. Onlar ideyanı, ideya onları yaşatmışdır. Əgər bu qəbildən olan şəxsiyyətlərin adını sadalamağa başlasaq, on minlərlə görkəmli xadimin ismini, soyadını xatırlamalı olarıq. Azərbaycançılıq ideyası sovet dövründə də öz təsir gücünü azaltmamış, xalqımız dünyanı qəzəbə dolduran bir sistem içində belə özünün milli varlığını qoruyub saxlamışdır.

Azərbaycançılıq ideyasının çiçəklənmə mərhələləri son onilliklərdə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Xalq tərəfindən dəstəklənən, onun yaradıcı potensialını qatbaqat yüksəldən azərbaycançılıq məfkurəsi dövlət başçısı, İlham Əliyev tərəfindən daim inkişaf etdirilir. Bu ideyanın əsasında duran leytmotiv xətt vətənimizi, dövlətimizi hər cəhətdən qüdrətləndirməkdən, onun uğurlara gedən yolunu daha rahat etməkdən, ölkəmizin ərazilərinin toxunulmazlığına və bölünməzliyinə təminat yaratmaqdan ibarətdir.

Azərbaycançılıq azad vətəndaş cəmiyyətinin inkişafına, dövlət quruluşunun güclənməsinə fövqəladə stimul yaradır. O, milli və bəşəri niyyətləri vəhdət halına gətirir. Avropaya inteqrasiya azərbaycançılıq konsepsiyasının aparıcı istiqamətlərindən hesab olunur. Tədqiqatçılar haqlı olaraq söyləyirlər ki, başlıca dayaq nöqtəsi vətəndaşlıq olan bu ideya genişlənib şaxələndikcə, həm bizim ölkədə, həm də dünyada bütün azərbaycanlıların həmrəylik düşüncəsi də artır və hərəkətverici qüvvəyə çevrilir.

Azərbaycançılıq həm də vətəndaş məsuliyyətini artırır. İnsan bu vətən daxilində vətəndaşlıq haqlarını bilib mənimsəməklə yanaşı, anlayır ki, azərbaycanlı olmaq məsuliyyətdir. Yaxşıdır ki, hazırda ölkəmizdə gənclərin əsl vətəndaş, vətənpərvər nəsil kimi yetişməsi üçün azərbaycançılıq ideyasından geniş istifadə olunur. Artıq bu mövzu təhsil müəssisələrində proqram səviyyəsində nəzərdən keçirilir.

Əqidəli, vətənpərvər insanlar həm də psixoloji baxımdan mətin, qətiyyətli olurlar. Bu cür insanların davranışları məqsədyönlüdür. Onların həyatını vətən sevgisi işıqlandırır. Təsadüfi deyil ki, yetkin, elmli, ziyalı azərbaycanlılar bütün dünyada hörmət və ehtiramla qarşılanırlar. Ulu Öndər Heydər Əliyev təsadüfi demirdi ki, "Mən fəxr edirəm ki, mən azərbaycanlıyam!" Bu sözlərdə milyonlarla yeni nəsil insanını səfərbər edib qüdrətləndirmək sehri var. Xüsusilə bu sözlər Ulu Öndərin öz dilindən səslənəndə!

Sentyabr ayının 27-də Ermənistan ordusu genişmiqyaslı təxribat törədib dinc əhalimizə, yaşayış məntəqələrinə, ümumiyyətlə, bütün xalqımıza qarşı təcavüz etdiyi, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanın rəhbərliyi ilə təxribatın qarşısını almaq üçün qətiyyətli tədbirlərin görüldüyü, əks-hücum əməliyyatlarının aparıldığı zamanda bir daha aydın olur ki, azərbaycançılığa əsaslanan ümumxalq həmrəyliyi nə qədər böyük, nə qədər müstəsna əhəmiyyətə malikdir. Xalqımızın hər bir nümayəndəsi, dünyada yaşayan hər bir soydaşımız dövlətimiz tərəfindən aparılan çoxillik uğurlu siyasət nəticəsində dərk edir ki, Azərbaycanın ərazi bütövlüyü, müqəddəs torpaqlarımızın düşməndən təmizlənməsi tarixi bir missiyadır, millətimizin qeyrət, namus işidir.

Milli ordumuzun zəfər yürüşü hər bir azərbaycanlının qəlbini qürurlandırır. Xüsusən yeni nəslin milli ruhunun yüksəlişi, hərbi vətənpərvərlik coşqusu bunu deməyə imkan verir ki, xalqımız torpaqlarımızın hər qarışı üçün canından belə keçməyə hazırdır. Gənc nəslin könüllü surətdə Milli Ordu sıralarına yazılmaq istəyi qürurvericidir. Bu gün yaşından, statusundan asılı olmayaraq kişili-qadınlı, qocalı-cavanlı hər kəs ön cəbhədə əsgərlərimizin yanında olmaq, qəhrəman oğullarımıza dayaq durmaq üçün qanadlanır. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qəbul etdiyi taleyüklü qərarlar hər bir vətəndaşımız üçün sözsüz yerinə yetirilən bir nömrəli tapşırıq kimi əks-səda verir.

Bizi böyük qələbəyə aparan həmrəyliyin səbəbini düşünərkən bu yüksək ovqatın əsasında məhz azərbaycançılıq əqidəsinin dayandığı dərhal hiss olunur. O əqidənin ki, hər an milli birliyimizi daha da sarsılmaz edir. Bu gün vətən üçün döyüşən ordumuz, Azərbaycan adlı anamızın hər bir çağırışına hazır olan xalqımız, ordumuzu və xalqımızı bir yumruq kimi birləşdirən Ali Baş Komandanımız var. İnanıram ki, tezliklə qazanacağımız zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq və bu azərbaycançılığın qələbəsi olacaq!

***Təranə PAŞAYEVA,***
***psixologiya üzrə fəlsəfə doktoru***

# "Vaqner" hərbi qrupu Qarabağı Azərbaycan torpağı sayır

## Onlar Ermənistanın tərəfindən döyüşməyəcəklərini bəyan edirlər

**Dünyada ən böyük özəl hərbi qruplaşma olan "Vaqner"in döyüşçülərinin Suriya, Ukrayna, Liviya, MAR, Sudan, Mozambik kimi ölkələrdə münaqişələrdə iştirakı məlumdur. Xarici mətbuatda bu qruplaşmanın muzdlularının Qarabağ cəbhəsində separatçılar tərəfindən savaşması barədə ehtimallar səslənib.**





Lakin həmin hərbi birləşmənin sahibi rusiyalı milyarder, iş adamı Yevgeni Priqojin bu informasiyaları qətiyyətlə təkzib edib. Həmçinin Dağlıq Qarabağda başlanan müharibə və "Vaqner"in bu müharibədə Ermənistan tərəfindən iştirakı ilə bağlı fikirlərini bildirib.

Onun sözlərinə görə, Qarabağda baş verənlərin bilavasitə səbəbkarı Ermənistanın baş naziri, çox anlaşılmaz və çox təhlükəli oyunlar oynayan Nikol Paşinyandır. "Paşinyan xeyli vaxtdır ki, Qərbə meyillənib, Qərbin əmrlərini yerinə yetirir və Rusiyanı aldatmaq istəyir. Mənim mövqeyim konkret və açıqdır. Dağlıq Qarabağ Azərbaycan ərazisidir. Ermənilərin "soyqırım"la bağlı dedikləri də mənimçün o qədər maraqlı deyil", - deyə o bildirib.

"Vaqner"in döyüşçülərinin Ermənistan tərəfindən müharibədə iştirakına gəlincə Y.Priqojin deyib: "Rusiyanın Qarabağa hərbçi, yaxud özəl hərbi şirkətin silahlısını yollamaq üçün hüquqi əsası yoxdur. Çünki, dediyim kimi, Qarabağ Azərbaycan ərazisidir. Gələk Türkiyə məsələsinə... Türkiyə Ermənistan sərhədlərini keçməməklə Qarabağdakı proseslərə müdaxilə edə bilər. Çünki beynəlxalq hüquq buna imkan verir. Rəcəb Tayyib Ərdoğanın öz dövlətinin və xalqının maraqları naminə etdikləri heç bir halda, ermənilərin dedikləri kimi, "işğal" və ya "hərbi əməliyyat" deyil".

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Paşinyan növbəti dəfə rəzil durumda qaldı

**Ermənistanın baş naziri Nikol Paşinyan növbəti dəfə BBC-nin müxbirinin sualları qarşısında aciz vəziyyətə düşərək pərt oldu.**

AZƏRTAC xəbər verir ki, bundan əvvəl BBC-nin "HARDTalk" proqramında özünü rüsvay edən Paşinyan bu dəfə jurnalist Conah Fişerin ədalətli və sərt suallarını cavablandıra bilməyərək rəzil duruma düşdü.

Ermənistanın baş naziri hər müsahibəsində məntiqsiz, absurd, bir-birinə tamamilə zidd olan fikirlər söyləməklə artıq bütün dünyada qeyri-ciddi siyasətçi kimi qəbul edilir. Verilişdə "Qarabağ Ermənistan torpağıdır" kimi cəfəng, təxribatçı sözlər söyləyib ardından başqa bir müsahibəsində "biz güzəştə hazırıq" deməsi onun nə dərəcədə qeyri-ciddi olmasının göstəricisidir.

Ermənistanın baş nazirinin düşünmədən, məsuliyyətsizcəsinə verdiyi cavablara görədir ki, jurnalist Conah Fişerin ona "Sizin bu cür danışığınızdan belə görünür ki, siz razılığa yer qoymamısınız" deyir. Jurnalistin "Siz münaqişəni başa çatdırmaq üçün Dağlıq Qarabağın ətrafındakı əraziləri geri qaytarmağa hazırsınızmı?" sualına "bu, bir səbəbdən yerinə yetirilmədi. Azərbaycan Dağlıq Qarabağ əhalisinin öz müqəddəratını təyin etməsi hüququnu tanımaqdan imtina etdi", - deyə cavab verməsi ilə Paşinyan özünü daha gülünc vəziyyətə saldı. Axı jurnalist ona Dağlıq Qarabağa bitişik işğal olunmuş rayonlarla bağlı sual verir. Məlum olduğu kimi, bu rayonlarda heç vaxt ermənilər yaşamayıb və burada hansı müqəddəratdan söhbət gedə bilər?!

BBC-nin müxbirindən "İyirmi ildən çoxdur ki, Ermənistan Dağlıq Qarabağı və ətraf əraziləri qeyri-qanuni şəkildə işğal edib" sözləri qarşısında düşdüyü vəziyyətin daha da çətinləşdiyini görən Paşinyan buna söz tapa bilməyib "Üzr istəyirəm bu, həqiqətə uyğun deyil" deməklə kifayətlənsə də, jurnalistin ardarda "Bu, həqiqətə uyğundur. Beynəlxalq hüquqa, BMT Baş Assambleyasının bəyannamələrinə baxın", "Siz demək istəyirsiniz ki, sizin tarixi iddianız var, lakin beynəlxalq hüquq qarşısında siz səhvsiniz", "BMT qətnamələrində yazılıb ki, o torpaqlar Azərbaycana aiddir. Gəlin bunu dəqiq qeyd edək" kimi suallar yağdırması Ermənistanın baş nazirinə tərs şillə effekti yaratdı və təbii ki, ənənəsinə uyğun olaraq o, suallara cavab verməkdən yayındı, məntiqsiz fikirlər söyləyib sərsəmləməyə başladı.

Beləliklə, Paşinyan özünü növbəti dəfə dünya ictimaiyyətinin qarşısında rüsvay etdi. O, yenə də acı həqiqətlər qarşısında pərt durumda qaldı. Ermənistanın baş naziri bu vəziyyətə artıq öyrəşib. O, Azərbaycan Prezidenti İlham Əliyevlə bir neçə dəfə debatlarda iştirak edərək dövlətimizin başçısının tarixi faktlara əsaslanan fikirləri qarşısında söz tapa bilməyib gülünc vəziyyətlərə düşüb. Xarici jurnalistlərin suallarını cavablandırarkən də o, hər dəfə kəkələyərək nəsə demək istəyir. Lakin hər zaman olduğu kimi, heç bir fakta əsaslanmayan, siyasi reallığa uyğun olmayan fikirlər söyləməklə nə qədər savadsız və məntiqsiz olduğunu bütün dünyaya nümayiş etdirir.

Budəfəki rüsvayçı müsahibəsində də Paşinyan nə dərəcədə savadsız, səriştəsiz "siyasətçi" olduğunu bir daha bütün dünyaya göstərdi.

# Tülkünün göz yaşları

## Azərbaycan əsgəri Zori Balayanı da ağlatdı

**Daşnak ideoloqu, qələmi də, əli kimi, türk cocuqlarının qanına batan Zori Balayanı xalqımız yaxşı tanıyır. O, bədnam "Ocaq" kitabı ilə beynini zəhərlədiyi erməniləri vandalizmlə silahlandıran əsas ideoloqdur.**



O, 80-ci illərin sonunda Dağlıq Qarabağda başlayan etnik qarşıdurmaları öz "əsərləri" ilə qızışdıran təhlükəli düşməndir. Bir vaxtlar Azərbaycanın İnterpol xətti ilə axtarışa verdiyi bu "millətçi"nin "Ocaq" əsəri bütövlükdə Azərbaycan əleyhinə yönəlib. 1980-ci illərin əvvəllərində yazılan "Ocaq"da Zori Balayan tarixi saxtalaşdıraraq, Qarabağın və Naxçıvanın qədim erməni torpağı olduğunu iddia edib. Həmçinin kitabda o, türkləri və azərbaycanlıları həm Rusiyanın, həm də Ermənistanın düşməni elan edib.

Məhz 1988-ci illərdən başlayan Azərbaycanda həyata keçirilən vandalizm aktları da onun ideologiyasının nəticəsidir. Bu, "millətçi erməni" ideoloqu, əli və qələmi qana batan, türk cocuğunun amansızcasına qətlə yetirilməsindən zövq alan həmin Balayandır ki, kitabında yazır: "...Biz Xaçaturla ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra 13 yaşındakı türkün başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. Ruhum sevincdən qürurlandı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha 3 türk uşağına etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bilirdim ki, hər bir erməni hərəkətlərimizlə fəxr duyacaq..."

Qarabağdakı son döyüşlər, Azərbaycan Ordusunun davamlı qələbələri bütün Ermənistanı yasa bürüyüb. Ermənilərin hamısı ağlayır, acılar yaşayır. O cümlədən rəzil düşmən Zori Balayan da böyük matəm içindədir. Onun amansız, qəddar ideologiyası artıq iflasa uğrayıb. Bu ideologiya nə qədər insanın fəlakətinə çevrilib.

Yad torpaqlarda döyüşərək məhv edilən erməni əsgərlərinin hər gün keçirilən çoxsaylı dəfn mərasimlərində Zori Balayan sinəsinə döyüb ağlayır. İndi erməni anaları övladlarının ölümünə görə əsas təqsirkarlardan olan bu mənfur, qaniçən millətçi daşnakdan hesab sormalıdırlar. Çünki Zori Balayan Azərbaycandan çox, məhz erməni xalqının, əsasən də erməni analarının düşməni, erməni gənclərinin qatilidir. Bu hesab sorulmalıdır və sorulacaq!

Bəli, bu gün Azərbaycan əsgəri illər öncə Xocalıda türk cocuğunun zülmlə can verməsindən "ruhu qürurlanan", əliqanlı daşnak ideoloqunu rəzil duruma salıb beləcə ağladır.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# İki canda bir ürək

# "CANIMIZ AZƏRBAYCANIMIZ"

## Azərbaycan Ordusunun uğurlu hücum əməliyyatları Türkiyə mətbuatının əsas mövzusudur








































Azərbaycan-Türkiyə münasibətlərinin inkişafı kifayət qədər möhkəm özüllər üzərində qurulub. Bir soydan qaynaqlanan etnik ortaqlıqla bir-birinə bağlı olan iki dövlətin bugünkü əlaqələrinin dünyada analoqu yoxdur. Təməlində həm də qırılmaz dostluq və qardaşlıq telləri dayanan bu münasibətlər, eyni zamanda, strateji önəm daşıyır.

İki qardaş dövlət bölgədə və dünyada gedən proseslərə münasibətdə həmişə eyni mövqe sərgiləyib, ortaq maraqlardan çıxış ediblər. Dünya siyasi düzəninin indiki şəraitində isə Azərbaycan və Türkiyənin hər bir məsələyə vahid prizmadan yanaşmaları, xüsusən ərazi bütövlüyü kimi həssas məsələlərdə bir-birlərinin maraqlarını müdafiə etmələri daha mühüm əhəmiyyət kəsb edir. Təqdirəlayiq haldır ki, hər iki ölkənin siyasi rəhbərliyi daim prinsipal mövqe nümayiş etdirir.

### "30 ildən sonra Qarabağda azan səsi"

Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı, iki ölkənin həmrəyliyi son günlərdə cərəyan edən proseslər fonunda bir daha təsdiqini tapdı. Belə ki, cəbhə xəttində Ermənistanın təxribatı nəticəsində baş verən hərbi əməliyyatları xüsusi diqqət mərkəzində saxlaması Türkiyənin dar günün dostu olduğunu, ən yaxın müttəfiqinin dərdini hər zaman bölüşdüyünü, eyni zamanda, qardaş Azərbaycanı heç zaman yalnız qoymayacağını bir daha nümayiş etdirdi. Cəbhədə gedən döyüşlərlə bağlı Türkiyənin aparıcı qəzetləri və xəbər agentlikləri məlumatları operativ şəkildə təqdim edirlər.

"Hürriyət" qəzetinin "Bu necə vicdandır" başlıqlı məqaləsində yazılır ki, Ermənistan döyüş meydanında uduzduğuna görə Azərbaycanın mülki əhalisinə qarşı yeni-yeni təxribatlar törədir. "Ermənistan beynəlxalq hüququn heç bir norma və prinsiplərinə hörmət qoymur. Əhalinin sıx yaşadığı, cəbhə bölgəsindən, eyni zamanda, təmas xəttindən xeyli uzaqda yerləşən şəhər və rayonlara Ermənistan ərazisindən raket hücumları, qadağan olunmuş bombalarla zərbələr endirilir. Nəticədə, dinc əhali, o cümlədən qadınlar, uşaqlar, yaşlı insanlar həlak olub və ya yaralanıb. Yaşayış evlərinə, mülki obyektlərə ziyan dəyib" - deyə məqalədə qeyd olunur.

Nəşr əlavə edib ki, Ermənistanın hücumları nəticəsində sentyabrın 27-dən indiyədək ermənilərin yaşayış məntəqələrini atəşə tutması nəticəsində 27 mülki şəxs həlak olub, onlardan 5-i azyaşlıdır. Həmçinin 141 mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Onların 7-si uşaqdır.

"Türkiyə" qəzeti "30 ildən sonra Qarabağda azan səsi" başlıqlı xəbəri əsas manşetdən verib. Qeyd olunur ki, işğaldan azad olunmuş torpaqlarda 30 ildən sonra ilk dəfə azan səslənib. Bildirilir ki, Azərbaycan Ordusunun genişmiqyaslı əks-hücum əməliyyatları nəticəsində Ermənistanın işğalı altında olan ərazilər azad olunub. O da diqqətə çatdırılıb ki, Azərbaycanın məqsədi öz torpaqlarını müdafiə etməkdir.

### "Qarabağa 2-ci yürüş"

"Milliyət" qəzeti "Qarabağa 2-ci yürüş" başlıqlı xəbərini manşetdən verib. Yazıda qeyd olunur ki, Azərbaycanın uğurlu əks-hücum əməliyyatı ədalətsizliyə və 30 ilə yaxın davam edən işğala son qoyacaq. Cəbrayıl şəhərinin işğaldan azad olunduğunu diqqətə çatdıran nəşr, həmçinin yazır ki, Ermənistanın silahlı qüvvələrinin "Dəhşət" ləqəbli polkovnik-leytenantı Artur Qalstyan Azərbaycan əsgərlərinin sərrast atəşi ilə məhv edilib. Ermənistanın məkrli siyasəti növbəti dəfə iflasa uğrayacaq.

"Anayurt" qəzeti "Ermənistan insanlığa qarşı cinayət törədir", "Azərbaycanımız" başlıqlı xəbərlərində Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlunun Bakıda keçirdiyi görüşlərdə səsləndirdiyi fikirlərə yer ayırıb. Prezident İlham Əliyevin "Azərbaycan tək deyil. Azərbaycanın yanında Türkiyə kimi dünya miqyasında böyük bir güc olan dövlət var, qardaş ölkə var" fikirlərini xüsusi diqqət mərkəzində saxlayan nəşr bildirib ki, bu gün Azərbaycan öz torpaqlarını azad etmək üçün mübarizə aparır və buna qadirdir, gücü və potensialı var.

### "Çəkil və üzr istə"

"Yeni Akit" qəzeti "Çarəsiz qalan Ermənistan insanlığa qarşı cinayət törədir" başlıqlı xəbərində Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlunun Azərbaycan Prezidenti İlham Əliyevlə görüşünə geniş yer ayırıb. Yazıda vurğulanıb ki, Azərbaycan hansı sahədə ehtiyac duyarsa, Türkiyə hər cür dəstəyi verməyə hazırdır. Dağlıq Qarabağ Azərbaycanındır. İşğal olunmuş ərazilər azad edilməyib və bu günədək qəbul edilmiş qətnamələr yerinə yetirilməyib. Bir milyondan çox azərbaycanlı qardaşımız öz evlərinə dönməyi gözləyirlər.

"Akşam" qəzetinin "Əliyev: Çəkil və üzr istə" başlıqlı xəbərində Azərbaycan Prezidentinin fikirlərinə geniş yer ayırıb. Məqalədə Cəbrayıl şəhərinin və rayonun kəndlərinin işğaldan azad olunması, torpaqların boşaldılması ilə bağlı 30 ilə yaxın danışıqlar aparılması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməməsi, 1994-cü ildən atəşkəsin qüvvədə olması, xarici ölkələrdə yaşayan ermənilərin bu müharibəyə cəlb edilməsi və digər taleyüklü məsələlərə aydınlıq gətirilir.

### "Qardaşlar irəliləyir, Ermənistan ordusu qaçır"

"Aydınlık" qəzeti də "Atəşkəs oldu da nə oldu: 30 illik işğal" başlıqlı xəbərində Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlunun fikirlərinə geniş yer verib. Bildirilib ki, həmsədrlərlə dəfələrlə görüşülsə də, işğalçı ilə Azərbaycana eyni münasibət göstərirlər. Ermənistana Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal çıx deyirlərmi? Bunun belə davam etməyəcəyini bütün dünya anlamalıdır. Müvafiq qərarlara baxmayaraq, Azərbaycanın işğal olunmuş torpaqları azad edilməyib. Amma hər zaman hücum edən Ermənistan olub. Öz torpaqlarını azad etmək üçün mübarizə aparan Azərbaycan isə mülki əhalinin yaşadığı obyektləri hədəfə almır.

"Milat" qəzetində isə Azərbaycanın uğurlarından "Qardaşlar irəliləyir, Ermənistan ordusu qaçır" başlıqlı məqalədə bəhs olunur. Yazılır ki, bu gün Azərbaycan çox şərəfli tarixi anlar yaşayır. Uzun illərdən sonra Cəbrayıl şəhəri işğaldan azad olunub, Azərbaycan Ordusu Ermənistanın döyüş mövqelərini ələ keçirib, işğalçı ölkənin əsgərləri isə qaçırlar.

"28 illlik fasilədən sonra azan səsləri" başlıqlı məqaləsi isə "Yeni Şafak" qəzetinin baş məqaləsidir. Müəllif yazır ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində azan səsləndirilib, təcavüzkar Ermənistanın təxribatlarına qardaş dövlətimizin ordusu layiqincə cavab verir. Yazıda qeyd olunur ki, Ermənistanın bu təxribatı törətməkdə məqsədi yeni ərazilər uğrunda işğal siyasətini davam etdirmək idi. Azərbaycanın dünyaya verdiyi töhfələrdən uzaq olan Ermənistan təcavüzkarlığı və terrorçuluğu ilə bölgənin təhlükəsizliyinə təhdiddir.

### "Azərbaycan Ordusu Cəbrayıla bayraq sancdı"

"Cümhuriyyət" qəzetinin "Türkiyədən tam dəstək" başlıqlı xəbərində qeyd olunur ki, Cəbrayıl şəhəri və rayonun kəndləri işğaldan azad olunub. Azərbaycan Ordusunun tarix yazmağa davam etdiyinə toxunan müəllif, döyüşlərdə artıq Ermənistan hərbçilərinin təslim olduqlarını bildirir.

"Sabah" qəzeti "Eşq olsun türk xalqı" başlıqlı xəbəri ilə Azərbaycanın uğurlarını oxuculara çatdırıb. Məqalədə mövzu ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev və həmkarı Rəcəb Tayyib Ərdoğanın çıxışlarına yer ayrılıb, Cəbrayıl şəhərinin işğaldan azad olunduğu sevinc hissi ilə yazılıb. Müəllif yazır ki, Azərbaycanın uğurlu əks-hücum əməliyyatı ədalətsizliyə və 30 ilə yaxın davam edən işğala son qoyacaq.

"Sözçü" qəzeti "Azərbaycan Ordusu Cəbrayıla bayraq sancdı" başlıqlı xəbəri manşetə çıxarıb. Bildirilir ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlər qəhrəmanlıq göstərir, Ermənistana sarsıdıcı zərbələr endirirlər. Artıq Cəbrayılda da Azərbaycan bayrağı dalğalanır.

"Karar" qəzeti "Türkiyə mütləq danışıqlarda olmalıdır" başlıqlı xəbərində Xarici İşlər naziri Mövlud Çavuşoğlunun "Bir milyondan çox azərbaycanlı qardaşımız öz evlərinə dönməyi gözləyirlər" fikrini diqqətə çatdırır. Bildirilir ki, Ermənistan bir sıra yaşayış məntəqələrinə hücum edib. "Küncə sıxılan Ermənistan yaşayış yerlərinə atəş açır. Bu, müharibə cinayətidir, Ermənistanın çarəsizliyinin göstəricidir", - deyə qəzet yazır.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Beynəlxalq ictimaiyyət Azərbaycanın ədalətli mübarizəsini müdafiə edir

"Ermənistanın son vaxtlar həyata keçirdiyi təcavüzə qarşı başladığınız mübarizə bizi qürurlandırdı".

AZƏRTAC xəbər verir ki, bu sözlər Türkiyə Ehtiyatda olan Zabitlər Dərnəyinin sədri, ehtiyatda olan general-mayor Namik Kamal Çalışkanın Azərbaycan Prezidenti İlham Əliyevin məktubunda yer alıb. Məktubda deyilir:

"Hörmətli cənab Prezident, bir kökə mənsub olmaqdan qürur duyduğumuz böyük türk birliyinin azad və müstəqil bir dövləti olan Azərbaycan Respublikası mərhum liderimiz Heydər Əliyevin "bir millət, iki dövlət" sözləri ilə ifadə edildiyi kimi həm də bizim Vətənimizdir. Bundan əlavə, Ulu Öndər Mustafa Kamal Atatürkün dediyi kimi, "Azərbaycanın sevinci sevincimizdir, kədəri kədərimizdir". Dağlıq Qarabağ da daxil olmaqla torpaqlarınızın bir hissəsini işğal edən ermənilər Birləşmiş Millətlər Təşkilatı və ATƏT-in qərarlarına baxmayaraq bu işğalı davam etdirirlər. Onların mülki əhaliyə qarşı insanlığa sığmayan hərəkətləri qəbul edilə bilməz. Bu işğala və Ermənistanın son vaxtlar həyata keçirdiyi təcavüzə qarşı başladığınız mübarizə bizi qürurlandırdı. Bu qəti mübarizənizdə qələbə qazanacağınıza, illərdir davam edən haqsız işğala son qoyacağınıza, münaqişəni sülh yolu ilə həll etmək istəməyən Ermənistanı və onların havadarlarını sülhə məcbur edəcəyinizə əminəm. Türkiyə Respublikası və türk xalqı hər zaman Azərbaycana qardaşdır. Bu çərçivədə hökumətimizin elan etdiyi dəstək iradəsi xalqımızın da iradəsidir. Türkiyə Ehtiyatda olan Zabitlər Dərnəyi olaraq Azərbaycanı sona qədər dəstəkləyirik. Hər zaman və hər yerdə Azərbaycan Ordusuna hər cür töhfə verməyə hazır olduğumuzu bəyan edirik. Bu müqəddəs mübarizədə şəhid olan qardaşlarımıza mərhəmət və qazilərimizə təcili şəfa diləyirik. Bütün xalqınıza başsağlığı verir, ehtiramımızı bildiririk".

❖ ❖ ❖

"Bu gün Azərbaycan ərazi bütövlüyü uğrunda ədalətli mübarizə aparır".

AZƏRTAC xəbər verir ki, bu fikir Ukraynanın Sumı Vilayət Deputatlar Şurasının sədri Vladimir Tokarın Prezident İlham Əliyevə məktubunda yer alıb.

Məktubda deyilir: "Hörmətli cənab Prezident, Ukrayna ilə Azərbaycan arasında daim dost və tərəfdaşlıq münasibətləri olub. Azərbaycan dost bir ölkə kimi Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü dəstəklədi və dəstəkləməyə davam edir. Odur ki, bu gün Azərbaycan ərazi bütövlüyü üçün ədalətli bir mübarizə apararkən, şəxsən mən uzun müddət Bakıda və ölkənin digər şəhərlərində yaşamış bir insan kimi Sizi və bütün Azərbaycan xalqını dəstəkləyirəm. Axı, Dağlıq Qarabağ beynəlxalq səviyyədə Azərbaycanın bir hissəsi kimi tanınıb. Sumı Vilayət Deputatlar Şurasının sədri, həmçinin bir siyasətçi kimi hesab edirəm ki, Azərbaycanla Ermənistan arasında münaqişə sülh yolu ilə həll olmalıdır. Ermənistanın beynəlxalq hüququ, sülh danışıqlarını açıq şəkildə pozan və insan tələfatı ilə nəticələnən hücumlarını qınayıram. Sülhsevər Azərbaycan və Ukrayna xalqlarına bu çətin lokal münaqişələrdən ən qısa zamanda xilas olmağı və ölkələrində sülhü və sabitliyi bərpa etməyi arzulayıram".

❖ ❖ ❖



"Azərbaycan torpaqları beynəlxalq hüquqa zidd olaraq işğal edilib. Otuz ildir gözlənilir ki, işğal nə zaman başa çatacaq. Ermənistan rəhbərliyi heç dillənmir və deyir ki, biz işğal etdiyimiz torpaqlardan çıxmayacağıq. Azərbaycan rəhbərliyi də deyir ki, artıq bizim işğala səbrimiz qalmadı. İndi də bir qarşıdurma var. Beləliklə, məlum münaqişədə 83 milyonluq xalq olaraq ürəyimiz Azərbaycanladır. Onları sevirik və haqsızlığa qarşıyıq".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri Kamal Kılıçdaroğlu rəhbərlik etdiyi partiyanın Türkiyə Böyük Millət Məclisində təmsil olunan deputatlarının qrup toplantısındakı çıxışında deyib.

Beynəlxalq hüquqa görə Azərbaycanın haqlı olduğunu və buna görə də qardaş ölkənin yanında dayandıqlarını diqqətə çatdıran K.Kılıçdaroğlu deyib: "Azərbaycan sürətlə inkişaf edən ölkədir. Dostluğumuz, dostlarımız var. Türkiyədə yaşayan çox sayda Azərbaycan əsilli vətəndaşlarımız var. Birliyi və bütövlüyü qoruyaraq işğalın sona çatmasını arzu edir, bu hadisələrin bitməsini istəyirik".

Prezident İlham Əliyevin bu məsələdə mövqeyinin açıq, konkret və qəbuledilən olduğunu deyən partiya sədri dövlətimizin başçısının fikirlərindən sitat gətirərək bildirib: "Hörmətli İlham Əliyev deyib ki, işğal etdiyiniz torpaqlarımızdan çəkilin, üzr istəyin və bununla da problem bitmiş olsun. Bizim erməni xalqı ilə yox, Ermənistan rəhbərliyi ilə problemimiz var. Beləliklə, problem bütünlüklə Ermənistan rəhbərliyindən qaynaqlanır".

❖ ❖ ❖



"Ermənistan-Azərbaycan münaqişəsinin atəşkəs, dialoq, danışıqlar, diplomatiya və sair üsullarla həllinə dair təkliflər hiyləgərcəsində fikirləşilən tələ və məğlubiyyətin təsdiqidir. Təcavüzkar düşmənin beli qırılmayana və hərbi zəfər siyasəti təsdiq edilməyənə qədər danışıqlar masasına oturmaq işğalçıya güzəşt olar. Ermənistanın silahlı dəstələri ya Dağlıq Qarabağdan çəkiləcək, ya da əziləcək".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Baxçalı rəhbərlik etdiyi partiyanın Türkiyə Böyük Millət Məclisində təmsil olunan deputatlarının qrup toplantısındakı çıxışında ifadə edib.

Ermənistanı Azərbaycana qarşı işğalçılıq siyasətində qalmaqda, bəşəri cinayət olan Xocalı soyqırımını törətməkdə, əsassız iddialar, onilliklər boyu xalqlarımıza qarşı edilən xəyanət, düşmənçilik və hiyləgərlik əməlləri törətməkdə sərt ittiham edən Dövlət Baxçalı deyib: "Cənubi Qafqaza sülhün gətirilməsinin yeganə yolu Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından bəhanəsiz çəkilməsi, Dağlıq Qarabağda Azərbaycan bayrağının yüksəldilərək suverenliyin bərpa edilməsidir. Başqa çarə, seçim və həll yolu yoxdur".

Dağlıq Qarabağdan xeyli aralıda yerləşən Tovuz rayonuna beynəlxalq ictimaiyyətin gözü qarşısında edilən hücumları, hazırda Azərbaycanın Gəncə, Mingəçevir, Bərdə, Tərtər və digər şəhərlərinə raketlərin atması, mülki əhalinin hədəf alınmasını, otuza yaxın dinc sakinin qətlə yetirilməsini vandalizm aktı kimi dəyərləndirən Dövlət Baxçalı deyib: "Terror dövləti olan Ermənistan sentyabrın 27-si səhər saatlarında növbəti dəfə təkcə Azərbaycana deyil, Türkiyəyə qarşı da hücuma keçdi. İşğal altındakı Dağlıq Qarabağ və ətrafındakı yeddi rayonu düşmən tapdağından azad etmək Can Azərbaycanın halal haqqıdır.

Azərbaycan Silahlı Qüvvələrinin Cəbrayıl rayonu daxil olmaqla, işğal altındakı bir sıra yaşayış yerlərini düşməndən azad etdiyini və sürətlə irəlilədiyini xatırladan partiya sədri əminliklə deyib ki, şanlı qələbə günü yaxındadır. Türkiyə bu haqqı işində Azərbaycanın yanındadır".

❖ ❖ ❖




Pakistan İslam Respublikası Senatının Xarici Əlaqələr Komitəsinin sədri, senator Müşahid Hüseyn Seyyidin rəsmi "Twitter" hesabında Azərbaycanı dəstəkləyən paylaşım edilib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Ermənistanın təcavüzünə qarşı özünü müdafiə hüququndan istifadə etdiyi üçün Pakistan hər zaman Azərbaycanın yanında olub. Azərbaycan da Cəmmu və Kəşmir məsələsində Pakistanın mövqeyini dəstəkləyir. Hər iki məsələ ilə bağlı BMT qətnamələri hələ də icra edilməyib".

Pakistanın "Jamiat Ulama İslam" partiyasının rəhbəri Maulana Fazlurrahman tərəfindən Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadəyə ünvanlanan məktubda deyilir: "Jamiat Ulama İslam" partiyası erməni təcavüzünə qarşı qardaş Azərbaycan hökumətinə, xalqına və silahlı qüvvələrinə tam dəstəyini çatdırır. Partiya Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu təsdiqləyir. Azərbaycanın öz ərazilərinə hakim olmaq və xarici qüvvələri öz torpağından çıxarmaq üçün qanuni hüquqa sahib olduğuna inanır. Hazırkı vəziyyətdə Pakistan Azərbaycan Prezidentinə və xalqına tam dəstəyini ifadə edir. Cəsur Azərbaycan xalqının təcavüzkar Ermənistana qarşı şücaətini təqdir edirik".

❖ ❖ ❖



"Mən dost Azərbaycan xalqına və Prezident İlham Əliyevə öz xoş arzularımı çatdırıram. O, Azərbaycan xalqı üçün mükəmməl şəxsdir".

Bu sözləri Böyük Britaniya parlamentində Lordlar Palatasının üzvü Devid Evans AZƏRTAC-a müsahibəsində deyib.

"Müharibəyə görə həyatını itirən şəxslərə görə dərin kədər hissi keçirirəm və ailələrinə başsağlığı verirəm. İnsanlar həyatlarını itirir və yaralanırlar, bu, çox kədərlidir. Mülki şəxslərə qarşı olan bu hücumlar Ermənistanın nə qədər aqressiv olduğunun göstəricisidir. Mən istəyərdim ki, müharibə sona çatsın, tezliklə nəticə əldə olunsun, beynəlxalq arenada Azərbaycan əraziləri kimi tanınan torpaqları özünə qaytarılsın", - deyə Lord Evans bildirib.

O, bu gün Türkiyənin Xarici İşlər nazirinin Azərbaycana səfərindən söz açaraq deyib: "Düşünürəm ki, bu səfər hər iki tərəf üçün yaxşı nəticə verəcək".

❖ ❖ ❖



Gürcüstanda yaşayan azərbaycanlıların təmsil olunduqları 60-a yaxın qeyri-hökumət təşkilatı (QHT) bu ölkənin rəhbərliyinə və beynəlxalq təşkilatlara müraciət ünvanlayıb.

AZƏRTAC xəbər verir ki, bu barədə sənəd oktyabrın 6-da Marneulidəki Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzində (GAİM) imzalanıb.

GAİM-in icraçı direktoru, Azərbaycan Yazıçılar Birliyinin Gürcüstan nümayəndəliyinin rəhbəri Rafiq Hümbət sentyabrın 27-dən Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi hərbi təxribatlar, mülki insanlar və obyektləri raket və top mərmiləri ilə qəsdən atəşə tutması, beynəlxalq humanitar hüququ kobudcasına pozması barədə ətraflı məlumat verib.

Bildirib ki, müraciət Azərbaycana dəstək məqsədi daşıyır.

Müraciətdə deyilir ki, soydaşlarımız Gürcüstan dövlətini, beynəlxalq təşkilatları Ermənistana işğalçı siyasətini dayandırması və işğal edilmiş Azərbaycan ərazilərini dərhal azad etməsi üçün təsir göstərməyə, Ermənistan hökumətinin beynəlxalq hüquq və normalara riayət etməsini təmin etməyə çağırıb.

Qeyd olunur ki, Gürcüstanın azərbaycanlı vətəndaşları tarixin bütün dönəmlərində Gürcüstan dövlətinə və gürcü xalqına öz sədaqətini nümayiş etdirib, dövlətçiliyin inkişafında, ərazi bütövlüyü uğrunda apardığı mübarizələrdə yaxından iştirak ediblər.

Sənəddə deyilir: "Azərbaycan ilə Gürcüstan yaxın qonşu və dost olmaqla bərabər, həm də strateji tərəfdaşdırlar. Hər iki ölkənin ərazilərinin 20 faizi işğal altındadır və ərazi bütövlünü bərpa etmək onların ən təbii haqqıdır. Azərbaycan Respublikası hər zaman beynəlxalq təşkilatlarda Gürcüstanın ərazi bütövlüyünə, Ermənistandan fərqli olaraq tam dəstək nümayiş etdirib, ölkəmizin ayrılmaz hissəsi olan Abxaziya və Samaçablonun işğaldan azad olunması yolunda Gürcüstanın atdığı bütün addımları dəstəkləyib və bu siyasət hazırda davam edir".

Müraciətdə vurğulanıb ki, Dağlıq Qarabağın qondarma erməni rejimi dəfələrlə Gürcüstanın işğal altında olan bölgələrindəki separatçı rejimlərlə işbirliyinə girib, Gürcüstanın ərazi bütövlüyünə açıq-aşkar etinasızlıq və hörmətsizlik nümayiş etdirib.

"Əlbəttə, bizlər Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi uğrunda apardığı əməliyyatların heç bir halda həm azərbaycanlı, həm də erməni icmasının yaşadığı Gürcüstana mənfi təsirlər göstərməməsi üçün əlimizdən gələni edirik və edəcəyik. Bununla belə, sizdən Azərbaycanın haqlı mövqeyini dəstəkləmənizi və məsələ barədə obyektiv münasibət bildirmənizi xahiş edirik", - deyə müraciətdə vurğulanır.

Gürcü, rus və ingilis dillərində olan müraciət Gürcüstan Prezidenti, Baş Naziri, Xarici İşlər Nazirliyi ilə yanaşı, BMT, ATƏT, Avropa İttifaqı və digər nüfuzlu beynəlxalq təşkilatların bu ölkədəki nümayəndəliklərinə də təqdim olunacaq.

❖ ❖ ❖



"Rusiyanı hazırda Azərbaycan ilə Ermənistan arasında gedən müharibəyə cəlb etməyə cəhd göstərirlər".

AZƏRTAC xəbər verir ki, RF Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə Komitəsinin sədri Leonid Kalaşnikov bu fikri "Rossiya 1" telekanalının "60 minut" siyasi tok-şousunun yeni buraxılışında söyləyib.

Verilişdə Almaniyanın "Spiegel" jurnalında dərc olunan materiala istinadən Qarabağda döyüşlərdə yaraqlıların iştirakı mövzusu müzakirə edilib. Deputat qeyd edib ki, o, dürüst məlumatlar almaqdan ötrü Azərbaycan Prezidentini dinləyir. Deputat Rusiyanı daim bu münaqişəyə cəlb etməyə cəhd göstərilməsindən hiddətləndiyini bildirib. Kalaşnikovun fikrincə, indiki vəziyyətdən çıxmağın yolu Kazan müqaviləsinin maddələrini yerinə yetirməkdir, yəni sərhədlərin açılması müqabilində Ermənistan tədricən rayonları qaytarmalıdır.

❖ ❖ ❖



"Ermənistanın rəhbərliyi hərbi azğınlığı ilə ölkəni məhvə aparır. Azərbaycanın böyük şəhərlərini, dinc əhalini, yaşayış evlərini raket atəşinə tutmaq müharibə cinayətidir. Hərbi meydanda uğursuzluğa düçar olan Ermənistan təcavüzkar siyasətindən nəticə çıxarmaq əvəzinə quduzlaşır. Mülki azərbaycanlı əhalinin hədəf alınması gec-tez erməni əhalisini ayağa qaldıracaq. Nəhayət, ermənilər bir gün başa düşəcəkləri ölkə rəhbərliyinin hərbi-siyasi aqressivliyi onlar üçün hansı riski yaradır".

Bu fikirləri Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç AZƏRTAC-a müsahibəsində bildirib.

Ermənistan ordusunun Bakı ətrafına, Gəncə, Mingəçevir başda olmaqla iri şəhər mərkəzlərinə, mülki əhalinin sıx olduğu yerlərə, yaşayış binalarına raket atmasını müasir dünyadakı erməni vandalizmi kimi dəyərləndirən H.Kılıç deyib: "Əslində Ermənistan bu vəhşi hücumları ilə BMT-ni, beynəlxalq hüququ hədəfə alıb. Bu terrorçu dövlətin rəhbərliyi hərbi cinayətləri ilə ATƏT-in Minsk qrupu ölkələrinə deyir ki, biz cinayətkarıq".

Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi Qarabağın azadlığı hərəkatını yüksək dəyərləndirən səfir qeyd edib: "Prezident İlham Əliyevin söylədiyi "Qarabağ Azərbaycandır!" ifadəsi addım-addım həyati gerçəyə çevrilir. Bu haqq işini gerçəkləşdirən qəhrəman Azərbaycan övladlarına uğur arzu edirəm. Şəhidlərimizə Allahdan rəhmət, doğmalarına və bütün xalqımıza başsağlığı verirəm. Başda Ali Baş Komandan İlham Əliyev olmaqla torpaqlarımızın işğaldan azad olunmasında şücaət göstərən hər kəs, bütövlükdə xalqımız öz dəyanəti ilə təkcə Azərbaycanı yox, bütün türk dünyasının gələcəyi üçün böyük bir təhlükə riskini məhv etməyə başlayıb. Azərbaycan zəfər çalacaq. Torpaq və Vətən Ulu Tanrının bizlərə əmanətidir. Haqq və ədalət yolunda olduğumuz üçün bu müqəddəs işdə Allahın lütfü üstümüzdə olacaq".

Ermənistan tarixin bütün dövrlərində olduğu kimi məkrli məqsədlər daşıdığını diqqətə çatdıran H.Kılıç əminliklə vurğulayıb ki, riyakar düşmənin budəfəki hiyləsi onun öz başına bəla olacaq. Çünki vaxtında bu forpost dövlətə havadarlıq edənlər də ondan beziblər.

Son günlər cəbhə xəttində ağır məğlubiyyətlərə düçar olan düşmən ordusunun mövqelərini qoyub qaçmasını Azərbaycan Silahlı Qüvvələrinin böyük uğuru kimi dəyərləndirən səfir deyib ki, Azərbaycanın rəşadətli Ordusu öz peşəkarlığından, xalqın həmrəyliyindən və Ali Baş Komandanın siyasi iradəsindən güc alır.

❖ ❖ ❖

Türkiyədə fəaliyyət göstərən iş adamları birlikləri son günlər Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı törədilən təxribatlarla əlaqədar mətbuat üçün birgə açıqlama yayıblar.



AZƏRTAC xəbər verir ki, Türkiyədəki Azərbaycanlı İş Adamları Birliyi (TAİB) rəhbərinin müavini Mikayıl Yusifov, Xarici İqtisadi Əlaqələr Komitəsi (DEİK)-Azərbaycan İşgüzar Şurasının sədri Səlçuk Akat, Müstəqil Sənayeçi və İşgüzar Adamlar Dərnəyinin (MUSİAD) Azərbaycan şöbəsinin rəhbəri Əbdurrəhman Uzun, Bütün Sənayeçi və İşgüzar Adamlar Dərnəyinin (TÜMSİAD) Xarici Əlaqələr üzrə rəhbərinin vəkili Tolga Tunç, İqtisadi və Ticarət Dərnəyi (ETD) Azərbaycan İqtisadiyyat Ticarət Şurasının sədri Serdar Kurt, Anadolu Aslanları İş Adamları Dərnəyinin (ASKON) rəhbərinin müavini və xarici əlaqələr komitəsinin sədri Mehmet Bilici və Dünya Türkiyyat Şurası Dərnəyinin rəhbəri Osman Büyükkayanın imzası ilə yayılan açıqlamada deyilir: "Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-dən başlayaraq Azərbaycanın müxtəlif bölgələrində atəşkəsi və beynəlxalq hüququ pozaraq ağır silahlardan istifadə etməklə yaşayış yerlərini və hərbi birləşmələrini hədəf alan hücumlarını şiddətlə qınayırıq. Bu hücumlar nəticəsində şəhid olan oğullarımızın əziz xatirəsini ehtiramla anır, yaxınlarına başsağlığı, müalicələri davam edən qəhrəman qazilərimizin tez bir zamanda sağalmasını diləyirik.

Beynəlxalq hüquqdan irəli gələn özünümüdafiə hüququ çərçivəsində xalqını və Vətənini qorumaq məqsədilə göstərdiyi səylər qarşısında bütün gücümüz və imkanlarımızla Azərbaycanın yanındayıq.

Ermənistan Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarını uzun illərdir işğal altında saxlayır. İşğalçı Ermənistan bu münaqişənin sahəsini genişləndirmək istəyir. Lakin bu çirkin hücumlar uğursuzluğa məhkumdur və Ermənistan səhv yoldadır. Beynəlxalq hüquqlara və qanunlara məhəl qoymayan Ermənistanın bu xain hücumları qarşısında da biz Azərbaycan dövləti və Azərbaycan Ordusu tərəfindən veriləcək hər bir qərarın arxasındayıq, bölgədəki humanitar faciələrin qarşısını almaq üçün işğalçı Ermənistanın Azərbaycanın doğma yurdu olan bu torpaqlardan qeyd-şərtsiz çəkilməsinin vacibliyini vurğulayırıq. Ermənistan Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının qərarlarına hörmət etməli və dərhal tətbiq etməlidir. Beynəlxalq hüququn normalarına məhəl qoymayan Ermənistanın silahlı qüvvələri tərəfindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki bu alçaq işğal və hücumlarını şiddətlə qınayır, ərazi bütövlüyünü bərpa etmək səylərində Azərbaycanın yanında olmağa davam edəcəyimizi ictimaiyyətin nəzərinə çatdırırıq".

❖ ❖ ❖



Türkiyənin Konya şəhərində yaşayan soydaşlarımız Azərbaycana dəstək məqsədilə aksiya keçiriblər.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, şəhərin Zəfər meydanında toplaşan həmvətənlərimizin qarşısında Azərbaycan İş Adamları Dərnəyinin idarə heyətinin üzvü Vüqar Abdullah çıxış edib. Qeyd edib ki, Konyada yaşayan azərbaycanlılar olaraq işğalçı Ermənistanın ölkəmizə qarşı təcavüzkar təxribatlarını, ermənilərin 100 ildir təkcə Azərbaycan Türklərinə deyil, bütün Türk Dünyasına münasibətdə sərgilədikləri düşmən davranışını şiddətlə qınayırıq.

Dağlıq Qarabağın Azərbaycan torpaqları olduğunu vurğulayan natiq qeyd edib ki, Azərbaycan Ordusu hazırda beynəlxalq hüquq normalarına uyğun olaraq qədim və əzəli torpaqlarımızı işğaldan azad etmək üçün öz ərazilərimizdə Ermənistanın silahlı qüvvələrinə qarşı döyüşür. Çünki qəsbkar Ermənistan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasına dair BMT qətnamələrinə 30 ilə yaxındır məhəl qoymur. Azərbaycan dövləti öz ərazi bütövlüyünü və mülki vətəndaşların təhlükəsizliyini təmin etmək üçün haqq mübarizəsi aparır.

❖ ❖ ❖

Almaniyanın Frankfurt-Mayn şəhərində Azərbaycanın ərazi bütövlüyünə dəstək məqsədilə mitinq keçirilib.

AZƏRTAC xəbər verir ki, mitinq və yürüş Frankfurt-Mayn və ətrafında yaşayan Azərbaycan nümayəndələri tərəfindən təşkil edilib.



Bu günlərdə bütün Almaniyada olduğu kimi, ölkənin maliyyə paytaxtında da Almaniyanın birləşməsinin 30 illiyi ilə bağlı böyük tədbirlər keçirilir. Bu əlamətdar tarixdən istifadə edən Azərbaycan diasporunun nümayəndələri Dağlıq Qarabağla bağlı şüarlar səsləndirib, cəbhədəki mövcud vəziyyətlə bağlı şəhər sakinlərinə məlumatlar təqdim ediblər.

❖ ❖ ❖



Kanadanın Kalqari şəhərində yaşayan soydaşlarımız Azərbaycana dəstək məqsədilə həmrəylik yürüşü keçiriblər.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, aksiya Alberta-Azərbaycan Mədəniyyət Mərkəzinin (ALACS) təşkilatçılığı ilə baş tutub. Yürüş şəhərin mərkəzində yerləşən "Municipal Plaza"dan başlayaraq 3-cü SW küçəsinə qədər davam edib. Aksiyaçılar geriyə də yürüş etməklə qayıdıblar.

Azərbaycan, Türkiyə, Kanada və İraq türkmənlərinin bayraqlarının dalğalandığı, "Azərbaycana qarşı Ermənistanın təcavüzünə son qoyulsun!" şüarı yazılmış plakatların qaldırıldığı aksiya zamanı hərbi musiqi, Azərbaycanı dəstəkləyən və Ermənistanın təcavüzünü pisləyən şüarlar səsləndirilib.

Aksiya şəhər bələdiyyəsinin icazəsi ilə keçirilib.

ALACS-dan bildirilib ki, bütün torpaqlarımız erməni işğalından azad olunana qədər bu cür yürüşlər hər bazar günü daha kütləvi şəkildə və medianın iştirakı ilə keçirmək niyyətindədirlər.

❖ ❖ ❖



Almaniyanın Münhen şəhərində fəaliyyət göstərən Azərbaycan Evində müstəqil Azərbaycan dövlətinə dəstək məqsədilə toplantı keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, Münhen-Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə baş tutan tədbirdə faşist mahiyyətli Ermənistanın işğalçı silahlı qüvvələrinin sentyabrın 27-də bütün cəbhəboyu Azərbaycana qarşı genişmiqyaslı hücuma keçməsi, ölkəmizin təmas nöqtəsində, eləcə də Dağlıq Qarabağdan uzaqda olan şəhərlərində mülki yaşayış ərazilərinə və obyektlərinə raket zərbələri endirməsi şiddətlə qınanılıb.

Soydaşlarımız ermənilərin xaincəsinə hücumuna Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin əmri ilə layiqli cavab verən qəhrəman Azərbaycan Ordusunun hər gün yeni qələbələrlə Qarabağda irəliləməsindən qürur duyduqlarını vurğulayıblar.

Döyüşlər zamanı həlak olan şəhidlərimizin əziz xatirəsi yad edilib.

Tədbir Münxen-Azərbaycan Mədəniyyət Mərkəzinin Almaniyanın qanunverici və icraedici orqanlarına ünvanladığı bəyanatın təqdim olunması ilə yekunlaşıb.

❖ ❖ ❖

"nex24.news" alman nəşrində müəllifləri Mattias Volf və Asif Məsimov olan "Almaniyada yaşayan azərbaycanlılar alman mətbuatının qərəzli mövqeyini tənqid edirlər" sərlövhəli məqalə dərc edilib (https://nex24.news/2020/10/medien-deutsch-aserbaidschaner-kritisieren-einseitige-berichterstattung/).

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən, bu münaqişə nəticəsində Ermənistan tərəfindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və ona bitişik yeddi rayonunun işğalından söhbət açılır. Məqalədə, həmçinin regiondakı humanitar fəlakət mövzusuna da toxunulur.

Müəlliflər qeyd edirlər ki, Ermənistandan fərqli olaraq Azərbaycan çoxmillətli ölkədir, burada müxtəlif millətlərin və konfessiyaların nümayəndələri birgə yaşayır. Məqalədə qondarma "Dağlıq Qarabağ Respublikası"nın nümayəndəsi Artur Tovmasyanın Azərbaycandakı milli azlıqları "Ermənistana qarşı vuruşmamağa" səsləyən gülünc müraciətindən danışılır. Müəlliflər Almaniyada yaşayan azərbaycanlılar arasında sorğu keçiriblər. Rəyi soruşulanlar arasında Azərbaycanda yaşayan müxtəlif etnosların nümayəndələri olub. Bütün respondentlər ordumuza mənəvi dəstəklərini və xilaskar silahlı qüvvələrimizin işğal edilmiş ərazilərdə apardığı əməliyyatları bəyəndiklərini ifadə ediblər. Rəyi soruşulanlardan biri - Almaniyadakı dağ yəhudiləri icmasının rəhbəri Avi Şefatya Almaniya KİV-ni münaqişəyə dair faktların təhrif olunmasına və bu münaqişəyə dini çalarlar verilməsinə görə tənqid edib.

❖ ❖ ❖

Azərbaycanın Belarusdakı səfiri Lətif Qəndilov Belarusun İnformasiya naziri İqor Lutskiy ilə görüşüb.

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, görüşdə L.Qəndilov sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycana hücum etməsi və Ermənistanın son iki ay ərzində buna ciddi hazırlaşdığı barədə İ.Lutskiyə ətraflı məlumat verib.

Səfir Ermənistan tərəfinin davamlı təxribatlarına misal olaraq, 2020-ci il iyulun 12-16-da Ermənistan silahlı qüvvələrinin Tovuz istiqamətində hücum cəhdini, Azərbaycanın işğal altında olan ərazilərində məskunlaşma siyasəti aparmasını, cari il ərzində Ermənistan işğal altında olan ərazilərimizdəki su mənbələrinin qarşısını kəsməsini, Dağlıq Qarabağda təlimlərin keçirilməsini, Ermənistan rəhbərliyinin təxribatçı bəyanatlarını, qondarma "Dağlıq Qarabağ respublikası"nın parlamentinin Şuşa şəhərinə köçürməsinə dair qərarın qəbul edilməsini, könüllülərdən ibarət 20 minlik "xalq ordusu"nun yaradılmasını göstərib.

Hazırda isə münaqişə zonasından uzaqda yerləşən Gəncə, Mingəçevir, Xızı və Abşeronun Ermənistan ərazisindən raket atəşinə tutulduğunu, nəticədə mülki əhali arasında çoxsaylı ölən və yaralananların olduğunu, yaşayış və məişət obyektlərinin dağıldığını vurğulayıb.

Diplomat Ermənistanın Vardanis və Gorus rayonlarından Azərbaycanın mülki ərazilərinin raket atəşinə tutulmasının əsas məqsədinin Azərbaycanı təxribata çəkərək, Ermənistan ərazisini raketlərlə vurmağa məcbur etmək və nəticədə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını münaqişəyə cəlb etməkdən ibarət olduğunu söyləyib.

Səfir Belarusun kütləvi informasiya vasitələrində məsələ ilə bağlı daha ətraflı məlumatların yayılması və obyektivliyin təmin olunması məqsədilə nazirə yeni materiallar təqdim edib.

Qeyd edilib ki, Azərbaycan həmişə özünün dostluq və qardaşlıq prinsiplərinə sədaqətlidir. Azərbaycan Prezidenti İlham Əliyev "Rossiya-1" telekanalına müsahibəsi zamanı qısa bir cümlə ilə Belarusa çox böyük dəstək verib və bu da müttəfiqlik münasibətlərinə nə dərəcədə sadiq olduğumuzun nümunəsidir.

Görüşdə iştirak edən səfirliyin müşaviri N.Rüstəmov və ikinci katibi C.Məmmədov hazırlanmış video və yazılı materialları nazirliyin nümayəndələrinə təqdim ediblər.

❖ ❖ ❖

Artıq 9-cu gündür ki, cəbhədə vəziyyət gərgindir. Sentyabrın 27-də Azərbaycanın yaşayış məntəqələri və döyüş mövqelər erməni silahlı qüvvələri tərəfindən şiddətli artilleriya atəşinə məruz qalıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Moldovadakı səfiri Qüdsi Osmanov "noi.md", "timpul.md" saytlarında deyib.

Səfir qeyd edib ki, artıq neçə gündür Azərbaycanın böyük şəhərlərindən biri, qoşunların təmas xəttindən uzaqda yerləşən Gəncə şəhəri erməni silahlı qüvvələri tərəfindən atəşə tutulur. Hazırda düşmən Ermənistan ərazilərindən Bərdə, Tərtər, Ağcabədi, Beyləqan, Mingəçevir şəhərlərini və Azərbaycanın digər yaşayış məntəqələrini intensiv şəkildə atəşə məruz qoyur, dinc mülki əhali hədəfə götürülüb.

"Düşmən belə hərəkətlərlə bizi təxribata çəkir ki, biz ona cavab verək. Bununla da Ermənistan münaqişəyə üçüncü tərəfi cəlb etməyə cəhd göstərir. Lakin ən qorxulusu odur ki, Ermənistan PKK terror təşkilatının Suriya cinahının Livandan və Yaxın Şərqin digər ölkələrindən olan yaraqlılarından istifadə edir. Bundan başqa, Ermənistan rəhbərliyi dünyanın hər yerində yaşayan ermənilərə muzdluların toplanmasını və münaqişə zonasına göndərilməsini təşkil etmək barədə müraciət edərək, dünyadakı bütün erməniləri bu müharibədə iştirak etməyə çağırır. Bunu xarici KİV də təsdiqləyir.

"Beynəlxalq Fransa radiosu" bildirir ki, hazırda ermənilər tərəfdə suriyalı, livanlı terrorçular və ASALA erməni terror təşkilatının üzvləri vuruşurlar. Xankəndidə, erməni dəstələri tərəfində əcnəbi terrorçuların döyüşməsi barədə "The Heritage Foundation" Ellison Xarici Siyasət Araşdırmaları Mərkəzinin direktoru Lyuk Koffi özünün "Twitter" səhifəsində yazıb", - deyə Q.Osmanov əlavə edib.

# Azərbaycanın haqq savaşı xarici mətbuatda



Xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının nümayəndələri müxtəlif kütləvi informasiya vasitələrində çıxış edərək, Ermənistan silahlı qüvvələrinin ölkəmizə qarşı təxribatları və Vətənimizdə baş verən son hadisələr barədə ətraflı məlumatlar verməyə çalışırlar.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Niderlanddakı "Life24" internet kanalının "Hollanda gündəmi" proqramına telefonla qoşulan Benilüks Azərbaycanlıları Konqresinin sədri Elsevər Məmmədov və Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurasının əlaqələndiricisi, Avropa Azərbaycanlıları Media Qrupunun rəhbəri Emil Əliyev bildiriblər ki, işğalçı Ermənistanın 27 sentyabr tarixli hücumu sülhsevər Azərbaycan dövlətinin və xalqının səbrini daşırdı. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin əmri ilə ermənilərə layiqli cavab verən Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməyə başlaması xəbərindən ruhlanan diasporumuz bu dönəmdə informasiya müharibəsində ermənilərin təxribatlarının qarşısını almağa, Azərbaycandakı hadisələrlə bağlı dürüst və səhih məlumatların dərc olunmasına, Niderlandda Vətənimizlə bağlı ədalətli ictimai rəyin yaranmasına çalışdığını qeyd ediblər.

❖ ❖ ❖


Azota pelea
'Ocuparon zona azerbaiyana'

Meksikanın geniş oxucu kütləsinə malik "El Heraldo de Mexico" (Səfir işğal olunmuş torpaqların boşaldılmasına çağırır) və "Reforma" (Azərbaycan ərazisi işğal altındadır) qəzetlərində Azərbaycanın Meksikadakı səfiri Məmməd Talıbovun Ermənistan-Azərbaycan münaqişəsi və işğalçı dövlətin son hərbi təcavüz aktı ilə bağlı müsahibələri dərc olunub.

Səfirlikdən AZƏRTAC-a bildirilib ki, hər iki müsahibədə münaqişənin yaranma səbəbləri və Meksika ictimaiyyətinin bilməli olduğu kilid elementlər barədə danışan M.Talıbov, bu xüsusda Dağlıq Qarabağın mübahisəli ərazi deyil, Azərbaycanın beynəlxalq qaydada tanınmış, lakin yeddi ətraf rayonla birlikdə 30 ilə yaxındır Ermənistan tərəfindən işğal edilmiş ərazisi olduğunu, burada Ermənistanın özü tərəfindən də tanınmamış qondarma rejim yaradıldığını və işğalçı dövlətin bu ərazilərdə yaşayan 1 milyona yaxın azərbaycanlıya qarşı etnik təmizləmə apararaq onları doğma yurdlarından qovduğunu bildirib.

Münaqişəyə dair BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilmiş dörd ayrı qətnamənin Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etdiyini deyən səfir, Ermənistanın bu günədək həmin sənədlərin tələblərinə məhəl qoymamaqla yanaşı, yeni təcavüz aktlarından da çəkinmədiyini, bu xüsusda, iyulda ölkəmizin Tovuz rayonu ərazisində, sentyabrın 27-dən isə təmas xətti boyu mülkü azərbaycanlı əhaliyə qarşı genişmiqyaslı hücumlar təşkil etdiyini, nəticədə onlarla soydaşımızın həlak olduğunu və ağır yaralandığını, hazırda isə Azərbaycanın mülkü vətəndaşları qorumaq üçün beynəlxalq hüquqa uyğun olaraq öz ərazisində hərbi əməliyyatlar apardığını qeyd edib.

Diplomat bildirib ki, Azərbaycan 27 ildir Minsk qrupu çərçivəsində aparılan danışıqlarda irəliləyiş olacağına ümid etdiyi halda, bu günədək münaqişədə status-kvonu gücləndirməyə çalışan Ermənistan, hazırda münaqişəyə üçüncü tərəfləri də cəlb etməyə çalışır və bu ölkənin Azərbaycanın neft və qaz boru kəmərlərinin keçdiyi əraziləri hədəfə alması da eyni məqsədə xidmət edir.

Azərbaycanın sülh tərəfdarı olduğunu deyən səfir, regionda qalıcı sülhün bərqərar olmasının yeganə formulunun işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsi və məcburi köçkünlərin geri qaytarılması olduğunu vurğulayıb.

Azərbaycan təmsilçisi daha sonra Dağlıq Qarabağda Azərbaycan tərəfindən guya cihadçıların vuruşması haqda xəbərlərin saxta və gülməli olduğunu, bununla yanaşı, bəzi iddiaların əksinə olaraq, Azərbaycan üçün münaqişənin etnik əsasının olmadığını, ölkəmizdə müxtəlif mədəniyyət və dini inanclara malik insanların bir arada, sülh şəraitində yaşadığını, bu xüsusda Roma papası Fransiskonun ölkəmizi "bütün dünya üçün tolerantlıq nümunəsi" adlandırdığını qeyd edib.

Sonda diplomat dünya ictimaiyyətinin, o cümlədən Meksikanın da qeyri-daimi üzvü seçildiyi Təhlükəsizlik Şurasının beynəlxalq hüquqa və özünün qəbul etdiyi qətnamələrin tələblərinə uyğun olaraq, Ermənistandan Azərbaycan ərazilərini boşaltmağı tələb etməli olduğunu, eyni zamanda, Meksikanın daim beynəlxalq hüququ, dövlətlərin suverenliyi və ərazi bütövlüyünü dəstəklədiyini və bu mövqeyin ölkəmiz tərəfindən də yüksək qiymətləndirildiyini bildirib.

Özbəkistanın "qalampir.uz" xəbər portalı Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin "TRT Haber" televiziya kanalına müsahibəsi ilə bağlı özbək dilində iki məqalə dərc edib.

Materiallarda Cəbrayıl şəhərinin və bir sıra kəndlərin işğaldan azad olunması, torpaqlarımızın boşaldılması ilə bağlı 30 ilə yaxın danışıqlar aparılması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməməsi, 1994-cü ildən atəşkəsin qüvvədə olması, xarici ölkələrdə yaşayan ermənilərin bu müharibəyə cəlb edilməsi və digər taleyüklü məsələlərə aydınlıq gətirilir.

"İslamonline.uz" portalı isə səhifəsində Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlunun Ankarada NATO-nun baş katibi Yens Stoltenberqlə görüşməsi haqqında məqalə yerləşdirib.

Görüşdə Mövlud Çavuşoğlu Ermənistanın Dağlıq Qarabağdakı təxribatları, Azərbaycanın əks-hücum əməliyyatları keçirməsi, işğalçı ölkənin silahlı qüvvələrinin Azərbaycanın mülki obyektlərini, yaşayış evlərini atəşə tutması və bunun nəticəsində günahsız dinc əhalinin qətlə yetirilməsi və yaralanması haqqında məlumat verib.

❖ ❖ ❖

"CNN Chile" televiziya kanalında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündən danışılıb.

Azərbaycanın Çilidəki səfirliyindən AZƏRTAC-a bildirilib ki, Rəşad Aslanov müsahibəsində 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozaraq, təmas xətti boyunca Azərbaycan Respublikasının mövqelərini atəşə tutaraq, Azərbaycana qarşı növbəti təcavüzə əl atdığını deyib və Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ermənistanın növbəti hərbi təcavüzünün qarşısını almaq və təmas xətti boyunca sıx şəkildə yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə özünü müdafiə hüququ çərçivəsində və beynəlxalq humanitar hüquqa tam riayət etməklə əks-hücum və cavab tədbirlərini həyata keçirdiyini vurğulayıb.

Ermənistanın Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonu işğal etdiyini və separatçı rejim yaratdığını bildirən diplomat azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə siyasəti nəticəsində hazırda ölkəmizdə 1 milyona yaxın məcburi köçkünün olduğunu diqqətə çatdırıb.

Münaqişənin həlli üzrə Minsk Qrupu çərçivəsində 30 ildir ki aparılan danışıqlar prosesinin son iki ildə Ermənistan rəhbərliyi - baş nazir və Müdafiə naziri səviyyəsində verilmiş destruktiv bəyanatlar nəticəsində tamamilə məhv olduğunu deyib. R.Aslanov Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnaməsinin (822, 853, 874 və 884) Dağlıq Qarabağ bölgəsinin Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu təsdiqlədiyini və Ermənistan işğalçı qüvvələrinin Azərbaycanın işğal edilmiş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını, habelə məcburi köçkünlərin öz doğma torpaqlarına təhlükəsiz şəraitdə qayıtmasını tələb etdiyini deyib. Lakin Ermənistanın 27 ildir ki, bu tələblərə məhəl qoymadığını əlavə edib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov Ermənistanın hərbi təxribatları ilə əlaqədar "Ukraina-24" telekanalına müsahibə verib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin köməkçisi müsahibəsində Ermənistanın Azərbaycana qarşı son hərbi təxribatları və dövlətimizin öz suveren ərazisini müdafiə etməsi, Ermənistan ərazisindən şəhərlərimizin raket hücumlarına məruz qalması barədə danışıb.

Elçin Əmirbəyov bildirib ki, Ermənistanın Azərbaycana qarşı müharibə cinayətləri, işğalçılıq siyasəti davam edir. Təcavüzkar ölkə Azərbaycan torpaqlarını işğal altında saxlamaqla status-kvonu qorumağa çalışır.

"Azərbaycanın ikinci şəhəri olan Gəncə Ermənistan ərazisindən raket hücumlarına məruz qalıb. Tarixi abidələr, evlər dağıdılıb, ölən və yaralananlar var. Tərtər, Xızı və digər şəhərlər və rayonlara da raket hücumları edilib. Ermənistanın əsas məqsədləri Azərbaycanı daha çox insan itkisinə məruz qoymaqdır. Bununla Ermənistan Azərbaycanı təxribata çəkmək, üçüncü dövlətləri münaqişəyə cəlb etmək istəyir", - deyə Elçin Əmirbəyov əlavə edib.

Azərbaycan tərəfindən guya əcnəbilərin döyüşdüyü barədə Ermənistan rəsmilərinin məlumatlarını təkzib edən Elçin Əmirbəyov bildirib ki, Azərbaycan Ordusu Ermənistandan 4 dəfə güclüdür. Bu cür feyk xəbərlər dünya ictimaiyyətini çaşdırmağa xidmət edir.

Birinci vitse-prezidentin köməkçisi Azərbaycanın haqlı mübarizəsində göstərdiyi dəstəyə görə Ukrayna dövlətinə təşəkkürünü bildirib. Qeyd edib ki, hər iki ölkə bir-birinin ərazi bütövlüyünü dəstəkləyir.

Qətərin ingilis dilində çap olunan nüfuzlu "The Peninsula" qəzetində Azərbaycanın bu ölkədəki səfiri Rəşad İsmayılovun geniş müsahibəsi dərc olunub.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, müsahibədə səfir Dağlıq Qarabağın tarixinə, eləcə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin səbəbləri və hüquqi aspektlərinə geniş toxunub. Dağlıq Qarabağın əsrlərboyu, o cümlədən AXC və Azərbaycan SSR dövründə ölkəmizin tərkib hissəsi olduğunu bildirən səfir qeyd edib ki, ötən əsrin 80-ci illərinin sonlarından etibarən Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları başlayıb. Sovet İttifaqı dağıldıqdan sonra Ermənistan Azərbaycana qarşı hərbi təcavüz aktı törədərək Dağlıq Qarabağı və ətraf yeddi rayonu işğal edib. Müharibə nəticəsində minlərlə insanın həyatını itirdiyini bildirən diplomat BMT Təhlükəsizlik Şurasının ölkəmizin ərazi bütövlüyünü dəstəkləyən və işğalçı qüvvələrin işğal edilmiş torpaqlardan dərhal, qeyd-şərtsiz və tamamilə çəkilməsini tələb edən qətnamələrini xatırladıb.

Hazırda davam edən hərbi toqquşmalarla bağlı suala cavab verən R.İsmayılov bildirib ki, Ermənistan sentyabrın 27-də baş vermiş hərbi təxribata əvvəldən hazırlaşırdı. O, Ermənistan müdafiə nazirinin "yeni ərazilər üçün yeni müharibə" iddiasını sitat gətirərək, Ermənistanın iyul və avqust aylarında törətdiyi təxribatlardan danışıb. Səfir bildirib ki, sentyabrın 27-də Azərbaycan Ermənistanın növbəti hərbi təxribatının qarşısını almaq, mülki şəxslərin və sıx məskunlaşdığı yerlərin təhlükəsizliyini təmin etmək məqsədilə özünümüdafiə hüququndan çıxış edərək və beynəlxalq humanitar hüququn tələblərini gözləyərək əks-hücum tədbirləri görüb. Diplomat vurğulayıb ki, Azərbaycan məhz ərazi bütövlüyünü bərpa etmək və Ermənistan tərəfindən işğal olunmuş əraziləri azad etmək üçün vuruşur. Ermənistanın mülki əhalini və mülki infrastrukturu atəşə tutmasının səbəb olduğu itki və zərər barədə məlumat verən R.İsmayılov bildirib ki, düşmən mülki əhalini məqsədyönlü şəkildə atəşə tutmaqla beynəlxalq hüququn norma və prinsiplərini, xüsusən də beynəlxalq humanitar hüququ və 1949-cu il Cenevrə Konvensiyasının tələblərini kobud surətdə pozur. Azərbaycanın öz mülki əhalisini müdafiə etmək üçün legitim hərbi hədəflərə qarşı adekvat tədbirlər görmək hüququna malik olduğunu bildirən səfir son gərginliyə görə bütün məsuliyyətin Ermənistanın üzərində olduğunu deyib.

"Təxminən 30 ildir ki, Azərbaycan əraziləri işğal altındadır", - deyən səfir Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü qeyd edib.

Döyüşlərin dayandırılması üçün beynəlxalq səylərin uğursuzluğunun səbəbləri barədə suala cavab verən səfir bildirib ki, atəşkəs təktərəfli dayandırıla bilməz. R.İsmayılov ATƏT-in Minsk qrupu və onun mandatını xatırladaraq deyib ki, sözügedən qurumun həmsədr ölkələri öz mandatlarına uyğun olaraq, Ermənistandan BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini yerinə yetirməsini tələb etməli və ona təzyiq göstərməlidirlər. Vasitəçilik səyləri yalnız o vaxt uğurlu ola bilər ki, Ermənistan beynəlxalq hüquqa riayət etsin və işğal altındakı ərazilərdən dərhal çəkilməyə başlasın. O əlavə edib ki, ötən 30 ildə Azərbaycan hər zaman münaqişənin sülh yolu ilə nizamlanmasına sadiqlik nümayiş etdirib. Lakin aşkardır ki, Ermənistan münaqişənin dinc yolla həllini istəmir. Ermənistanın yeni rəhbərliyinin törətdiyi təxribatçı əməlləri vurğulayan səfir N.Paşinyanın sərsəm "Qarabağ Ermənistandır və nöqtə" bəyanatının, işğal olunmuş ərazilərimizə onun dəfələrlə qeyri-qanuni səfər etməsinin, oğlunu işğal altındakı ərazilərə hərbi xidmətə göndərməsinin, mart ayındakı qondarma "seçkilər"i, Şuşada qondarma "andiçmə mərasimi"nin təşkil olunmasının və qondarma rejimin "paytaxtı"nın Şuşaya köçürmək niyyətinin danışıqlar prosesini pozan məqsədyönlü təxribatlar olduğunu bildirib.

❖ ❖ ❖



Azərbaycanın Qazaxıstandakı səfirliyində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın işğalçılıq siyasəti, cəbhədə baş verən son hadisələr, ölkəmizin mülki vətəndaşlarının qətlə yetirilməsi, ərazilərimizin Ermənistan tərəfindən raketlərlə vurulmasına dair yerli KİV nümayəndələri üçün brifinq keçirilib.

AZƏRTAC xəbər verir ki, brifinqdə ölkənin 40-dan çox müxtəlif televiziya kanalı və informasiya agentliyinin rəhbər şəxsləri və ya nümayəndələri, politoloq və ekspertlər iştirak ediblər.

Brifinqin əsas məqsədi Qazaxıstanın informasiya məkanında digər dövlətlərin təsiri altında yayılan təhrif olunmuş, dezinformasiya xarakterli məlumatların qarşısını almaq, yerli medianın, ictimai fikrin formalaşmasına istiqamət verə biləcək nüfuzlu şəxslərin, politoloq və mütəxəssislərin diqqətini bu məsələyə yönəltmək, onları mövzu ilə bağlı həssas davranmağa, Azərbaycanın haqlı mübarizəsini dəstəkləməyə dəvət etmək olub.

Azərbaycanın Qazaxıstandakı səfiri Rəşad Məmmədov son günlər Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində baş verənlər haqqında ətraflı məlumat verib, Ermənistan silahlı qüvvələrinin ölkəmizdəki mülki obyektlərə hücumlar etdiyini, cəbhə xəttindən kilometrlərlə uzaqda yerləşən Gəncə, Mingəçevir, Tərtər, Bərdə, Göygöl, Xızı və Abşeron kimi şəhər və rayonların təcavüzkar ölkənin ərazisindən raket hücumlarına məruz qaldığını bildirib.

Diplomat qeyd edib ki, Azərbaycan Ordusu öz vətəndaşlarını qorumaq üçün Ermənistan silahlı qüvvələrinin təxribatının qarşısını alıb və əks-hücuma keçərək işğal olunmuş torpaqlarını azad etməyə başlayıb.

Səfir Qazaxıstan da daxil olmaqla, Azərbaycan tərəfinin heç bir xarici ölkənin hərbi köməyinə ehtiyacının olmadığını, bütün dövlətlərin, o cümlədən qardaş Qazaxıstanın beynəlxalq hüququn normalarından irəli gələn siyasi və mənəvi dəstəyini gözlədiyini diqqətə çatdırıb.

Diplomatın sözlərinə görə, təəssüf ki, bir çox hallarda yerli mətbuat, agentliklər fərqinə belə varmadan münaqişədə maraqlı olan üçüncü ölkənin informasiya resurslarına, hətta heç bir ölkə tərəfindən tanınmayan separatçı rejimin qondarma qurumlarına istinadla yalan, təhrif olunmuş və dezinformasiya xarakterli xəbərlər yaymaqdadır. Bu da Qazaxıstan dövlətinin rəsmi mövqeyinə uyğun gəlmir və beynəlxalq hüquq normalarının pozulmasıdır. Digər narahatedici məqam isə ondan ibarətdir ki, yerli medianın saxta informasiyalar yayması qardaş qazax xalqının fikirlərinin yanlış istiqamətləndirilməsinə və Azərbaycanla bağlı arzuolunmaz imicin formalaşmasına rəvac verə bilər. Bunların qarşısının alınması məqsədilə səfirlik tərəfindən xüsusi bəyanat hazırlanaraq bütün media qurumlarına göndərilib, eyni zamanda, Qazaxıstanın yerli mediasının baş verənlərlə bağlı dəqiq və dolğun informasiya əldə etməsi üçün ölkəmizin müvafiq dövlət qurumlarının və əsas KİV-nin saytları təqdim edilib.

Tədbir zamanı videoproyektor vasitəsilə son günlərdə Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılan ərazilərimizdən beynəlxalq humanitar hüququn normaları pozulmaqla Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında, həmçinin münaqişə bölgəsindən uzaqda yerləşən Gəncə, Mingəçevir şəhərlərində və Xızı rayonunda yaşayan mülki şəxslərin və obyektlərin atəşə tutulması nəticəsində vətəndaşlarımızın həlak olması, xəsarət alması, habelə yaşayış evlərinin və mülki infrastrukturunun dağıdılması faktlarını özündə əks etdirən video və fotomateriallar tədbir iştirakçılarına nümayiş etdirilib. Bundan başqa, Azərbaycan tarixinin müxtəlif dövrlərini əks etdirən, ermənilərin Qafqaza köçürülməsi faktlarını göstərən xəritələr, Ermənistandan azərbaycanlıların deportasiya ilə bağlı statistik məlumatlar vizual şəkildə təqdim olunub. Tədbir zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə aid ayrı-ayrı jurnal, broşürlər və digər sənədlər iştirakçılara paylanılıb.

Brifinqdə səfir yerli jurnalistlərin, politoloqların suallarını cavablandırıb.

❖ ❖ ❖


AZERBAIYAN ARMENIA (ENTREVISTA)

**Azerbaiyán advierte a Armenia que sólo habrá paz cuando acabe la ocupación**

REDACCIÓN

Farid Gajramánov

Bakú 5 oct (EFE).- El ministro de Asuntos Exteriores de Azerbaiyán, Jeihun Bayrámov, afirmó hoy que sólo habrá paz duradera en la región de Nagorno Karabaj cuando acabe la ocupación armenia de los territorios azerbaiyanos.

"Cuanto antes Armenia reconozca esta realidad, antes se resolverá el conflicto y los pueblos de la región se beneficiarán de las perspectivas de cooperación", dijo el jefe de la diplomacia azerbaiyana en una entrevista con Efe.

Reiteró que "la ocupación militar no es una solución y jamás producirá el resultado político deseado por Armenia", en alusión a

İspaniyanın ən qədim nəşrlərindən olan "Lavanguardia" qəzetində Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovun İspaniyanın EFE informasiya agentliyinə müsahibəsi "Azərbaycan Ermənistana xəbərdarlıq edir, yalnız işğala son qoyulanda sülh bərqərar sülh olacaq" başlığı altında dərc edilib.

AZƏRTAC xəbər verir ki, nazirin sözlərinə görə, Dağlıq Qarabağda möhkəm sülh yalnız o vaxt bərqərar ola bilər ki, ermənilər Azərbaycan ərazilərini işğal etməkdən əl çəksinlər. Nazir deyib: "Ermənistan bu reallığı nə qədər tez anlasa, münaqişə bir o qədər tezliklə nizamlanacaq və region xalqları əməkdaşlıq perspektivindən bəhrələnəcəklər".

C.Bayramov qeyd edib ki, münaqişənin həlli yalnız Helsinki Yekun Aktında təsbit olunmuş beynəlxalq hüquq normaları əsasında, Azərbaycan Respublikasının beynəlxalq aləmdə tanınmış sərhədləri daxilində onun suverenliyinin və ərazi bütövlüyünün tamamilə təmin edilməsi şərti ilə mümkündür.

Nazir BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması barədə 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsini xatırladıb.

Ceyhun Bayramov deyib ki, Bakı münaqişənin beynəlmiləşməsində maraqlı deyil. Başqa sözlə desək, o, üçüncü ölkələrin bu münaqişəyə müdaxiləsinin qəti əleyhinədir. Diplomat daha sonra deyib: "Bu, Ermənistanın məqsədidir, Ermənistan Türkiyənin bu münaqişədə iştirakı barədə yalan informasiya yayır. Ermənistan bu əsassız ittihamları yaymaqla üçüncü ölkələri cəlb etməyə çalışır".

Uzun illər boyu ağır demoqrafik böhran içində olan, öz silahlı qüvvələrini təchiz edə bilməyən Ermənistandan fərqli olaraq Azərbaycanın tamdəyərli, güclü və çox peşəkar ordusu var, buna görə Azərbaycanın kənar qüvvələrin cəlb edilməsinə ehtiyacı yoxdur.

Nazir vurğulayıb ki, Azərbaycan ordusu öz suveren torpağında vuruşur və erməni tərəfin təxribatlarına qarşı müvafiq tədbirlər görür. Azərbaycan Prezidenti İlham Əliyev hərbi əməliyyatlara son qoyulması üçün şərt kimi erməni qoşunlarının Azərbaycan ərazisindən çıxarılmasının konkret qrafikinə əməl olunmasını tələb edib.

❖ ❖ ❖


Opinion
Azerbaijan demands immediate withdrawal of Armenian troops

Nüfuzlu "The Korea Times" qəzetində çap olunan "Azərbaycan Ermənistan qoşunlarının dərhal geri çəkilməsini tələb edir" başlıqlı məqalədə münaqişə ilə bağlı Azərbaycanın ədalətli mövqeyi barədə məlumat verilib.

AZƏRTAC xəbər verir ki, ölkəmizin Koreya Respublikasındakı səfiri Rəmzi Teymurovun müəllifi olduğu məqalədə sentyabrın 27-də Ermənistanın növbəti təxribatı nəticəsində yaranmış vəziyyətdən söz açılıb. Bildirilib ki, Azərbaycan beynəlxalq səviyyədə tanınmış ərazisi çərçivəsində döyüş əməliyyatları aparır.

Münaqişənin tarixi barədə məlumat verən diplomat qeyd edib ki, Ermənistan Azərbaycan ərazilərinin 20 faizini 30 ilə yaxındır işğal altında saxlayıb. İşğal siyasəti nəticəsində bir milyon azərbaycanlı öz yurdundan qovularaq qaçqın və ya məcburi köçkün vəziyyətinə düşüb. BMT Təhlükəsizlik Şurası erməni silahlı birləşmələrinin Dağlıq Qarabağ bölgəsi də daxil olmaqla Azərbaycanın işğal olunmuş bütün ərazilərindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasına dair 4 qətnamə qəbul edib. Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Avropa Parlamenti, ATƏT, NATO kimi bir neçə beynəlxalq təşkilat da oxşar qərarlar qəbul edib. Amma Ermənistan beynəlxalq ictimaiyyətin tələblərini yerinə yetirməkdən boyun qaçırır.

Qeyd olunub ki, bəzi Qərb ölkələrinin mətbuatında Dağlıq Qarabağın "mübahisəli ərazi" kimi təqdim olunması təəssüf doğurur. Çünki beynəlxalq təşkilatların sənədlərində Dağlıq Qarabağ da daxil olmaqla Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı təsdiqini tapıb və bu əməl qınanıb.

Səfir R.Teymurov bəzi qərəzli məqalələrdə Azərbaycanın işğal olunmuş ərazilərinin əhalisinin etnik tərkibi barədə saxta məlumatların əksini tapdığını qeyd edib. Baxmayaraq ki, münaqişə başlayana yaxın erməni millətindən olanların sayı Dağlıq Qarabağda üstünlük təşkil edib, bu, onlara etnik təmizləmə aparmaq hüququ vermir. Bu cür etnik təmizləmə BMT Nizamnaməsinin əsas prinsipləri də daxil olmaqla, beynəlxalq hüququn açıq şəkildə pozulması deməkdir.

Məqalədə bəzi KİV tərəfindən Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin dini müstəviyə keçirilməsi cəhdləri pislənib və bunun əsassız olduğu vurğulanıb. Belə ki, Azərbaycanın əsrlərboyu multikultural, tolerant ölkə olması, burada müxtəlif dinlərə mənsub olanlar kimi, xristianların da dinc, dostluq şəraitində yaşadığı hamıya məlumdur. Hətta 2016-cı ildə Roma Papası Fransisk zorakı ekstremizmlə parçalanmış dünya üçün Azərbaycanı dini dözümlülük modeli kimi yüksək qiymətləndirib.

❖ ❖ ❖


Indonesia Meminta Armenia untuk Tarik Pasukannya dari Nagorno-Karabakh

İndoneziyanın nüfuzlu "kompasiana.com" saytında tanınmış jurnalist Veeramalla Anjaiahın "İndoneziya Ermənistan qoşunlarının Dağlıq Qarabağdan çıxarılmasını istəyir" sərlövhəli məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə müsəlmanlarla yanaşı, digər dinlərin nümayəndələrinin birgə yaşadığı Azərbaycanla Ermənistan arasında Dağlıq Qarabağdakı müharibənin ikinci həftəsində hərbçilər və mülki şəxslər arasında itkilərin qeyd olunub. Beynəlxalq səviyyədə Azərbaycanın ərazisi kimi tanınan Dağlıq Qarabağ regionunun illərdir Ermənistan ordusu tərəfindən qeyri-qanuni işğal altında saxlanıldığı vurğulanıb. Ermənistanın Azərbaycanın bir sıra şəhər və kəndlərini raket, minaatan, artilleriya qurğularından atəşə tutduğu, Azərbaycanın mülki əhalisi arasında itkilərin artmasının narahatlıq doğurduğu bildirilib.

Oktyabrın 5-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın sənaye şəhəri olan Mingəçeviri raket hücumuna məruz qoyduğu qeyd edilib, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin bununla bağlı "Twitter" hesabındakı məlum paylaşımına istinad edilib. Bundan bir gün əvvəl isə Azərbaycanın ikinci böyük şəhəri Gəncənin də Ermənistan silahlı qüvvələrinin eyni hücumuna məruz qaldığı, məktəb, xəstəxana binaları ilə yanaşı, çoxlu sayda evin dağıdıldığı, dinc əhalinin zərər çəkdiyi bildirilib.

İndoneziyanın Cənubi Qafqazda baş verən müharibə ilə bağlı ciddi narahatlığını bildirdiyini qeyd edən müəllif bu ölkənin Xarici İşlər Nazirliyinin münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələri çərçivəsində həllinə tərəfdar olması ilə bağlı rəsmi "Twitter" hesabındakı paylaşımını xatırladıb.

Müəllif BMT Təhlükəsizlik Şurasının Ermənistanın silahlı qüvvələrini Azərbaycanın Dağlıq Qarabağ və ona bitişik ərazilərdən dərhal çıxarmasına dair 4 qətnaməsinə baxmayaraq, 20 ildən çox müddət ərzində Ermənistanın bu qətnamələrdən irəli gələn qərarları yerinə yetirmədiyini xüsusilə vurğulayıb, hazırda bölgədə baş verən müharibənin başlıca səbəbkarının ermənilər olduğunu bildirib. Ermənistanın baş naziri N.Paşinyanın erməni xalqının diqqətini ölkəsinin iqtisadi və sosial problemlərdən yayındırmaq üçün müharibəyə çıxış yolu kimi baxdığını qeyd edib.

Yazıda İndoneziyanın Azərbaycandakı keçmiş səfiri Hüsnan Fənaninin "İndoneziya Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşır və Dağlıq Qarabağı Azərbaycanın ərazisi olaraq tanıyır. BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri Dağlıq Qarabağın işğal edilmiş Azərbaycan torpaqları olduğunu açıq şəkildə qeyd edir" sözlərinə də yer verilib.

Müəllif məqaləsində, eyni zamanda, Azərbaycanın İndoneziyadakı səfiri Cəlal Mirzəyevin İndoneziyanın Azərbaycanın ərazi bütövlüyünü açıq şəkildə dəstəklədiyinə görə bu ölkəyə və onun xalqına minnətdarlığını ifadə etdiyini xatırladıb.

Məqalədə, habelə Sanjeevini Pertivinin "Ermənistan Dağlıq Qarabağdakı azərbaycanlıları öz yurdlarından məcburi köçməyə məruz qoyub, Xocalıda silahsız mülkü əhaliyə, qadınlara, uşaqlara və yaşlılara qarşı soyqırımı həyata keçirib" sözləri də yer alıb.

Müəllif qarşıdurmanın dayandırılması üçün Azərbaycan Prezidenti İlham Əliyevin irəli sürdüyü şərti də oxucuların diqqətinə çatdırıb: "Tək bir şərtimiz var. Erməni silahlı qüvvələri qeyd-şərtsiz Azərbaycan torpaqlarını tamamilə və dərhal tərk etməlidirlər".

Məqalədə, həmçinin Azərbaycanın işğaldan azad olunan şəhər və kəndləri haqqında məlumatlar da yer alıb.

❖ ❖ ❖


Tribune de Genève
Genève Coronavirus Culture Monde
AZERBAIDJAN
Abo Haut-Karabakh
**«C'est le gouvernement arménien qui utilise des terroristes»**
À Genève, le représentant de l'Azerbaidjan auprès de l'ONU accuse l'Arménie de crimes de guerre.

Cenevrədə 1879-cu ildən nəşr olunan nüfuzlu "Tribune de Geneve" mətbu orqanında Azərbaycan Respublikasının Cenevrədəki BMT bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi səfir Vaqif Sadıqovla müsahibə dərc olunub.

AZƏRTAC xəbər verir ki, "Terroristlərdən istifadə edən tərəf Ermənistan hökumətidir" sərlövhəli məqalədə səfir Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi ən yeni hərbi təxribatla bağlı suallara cavab verib.

Məqalənin girişində V.Sadıqov sentyabrın 27-dən Ermənistanın Azərbaycana qarşı başladığı təcavüz və onun mülki əhali üçün nəticələri barədə danışıb. Qeyd edilib ki, iriçaplı silahlar, artilleriya və raket sistemləri ilə mülki yaşayış məntəqələri və infrastrukturu hədəfə alan Ermənistan ordusu oktyabrın 5-dək içərilərində qadın və körpələrin olduğu 24 mülki şəxsi qətlə yetirib və 121 nəfəri yaralanıb. Cənubi Qafqazda ən böyük su elektrik stansiyasının yerləşdiyi Mingəçevir şəhəri raket atəşinə məruz qalıb, eləcə də münaqişə bölgəsindən 300 kilometr məsafədə yerləşən Xızı və Abşeron rayonlarına orta mənzilli raketlər atılıb. Mülki əhali və infrastrukturu məqsədyönlü şəkildə hədəf alan Ermənistan tərəfi 1949-cu il Cenevrə konvensiyaları da daxil olmaqla humanitar beynəlxalq hüquqla üzərinə götürdüyü öhdəlikləri pozur və beynəlxalq humanitar hüquqa əsasən ağır müharibə cinayəti törədir.

Səfir bildirib ki, beynəlxalq ictimaiyyət Azərbaycanın mülki əhalisini qorumaq üçün Ermənistandan beynəlxalq hüquqla daşıdığı öhdəlikləri yerinə yetirməyi və Azərbaycanın mülki əhalisinə qarşı hücumları dayandırmağı tələb etməlidir.

Hazırkı humanitar vəziyyətə diqqət çəkən V.Sadıqov 300-dən çox ev, mülki infrastruktura daxil olan xəstəxana, məktəb və uşaq bağçalarının dağıldığını qeyd edib. Bildirib ki, Azərbaycan Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə sıx əlaqədədir və beynəlxalq qurumu humanitar vəziyyət, eləcə də mülki əhali arasındakı tələfat barədə məlumatlandırır. Beynəlxalq Qırmızı Xaç Komitəsinin sıx məskunlaşmış yaşayış məntəqələri və şəhərlərin hədəfə alınmasını pisləyən bəyanatını yüksək qiymətləndirən səfir bu bəyanatın erməni tərəfinin Azərbaycanın mülki infrastrukturunu hədəfə alması üçün ciddi siqnal kimi dəyərləndirib. Bununla belə, o, eyni zamanda, deyib ki, Ermənistan tərəfi Azərbaycan yaşayış məntəqələrini atəşə tutmaqda davam edir.

Qəzet müxbirinin hadisələrin indiki mərhələdə hansı səbəbdən gərginləşməsinə aydınlıq gətirən V.Sadıqov bildirib ki, Ermənistan BMT-nin 4 qətnaməsində öz əksini tapan beynəlxalq ictimaiyyətin iradəsinə məhəl qoymur. Həmçinin qeyd edilib ki, hazırkı eskalasiyanı Ermənistanın baş naziri Nikol Paşinyanın hakimiyyətə gəlməsindən sonra ölkə rəhbərliyinin məsuliyyətsiz davranış və hərəkətlərində axtarmaq lazımdır. N.Paşinyan ATƏT Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlar prosesinin format və məzmununu pozmaq üçün səylərini əsirgəməyib. Onun "Qarabağ Ermənistandır" ifadəsi danışıqlara ciddi zərbə vurub və praktik olaraq bütün münaqişələrin həlli prosesini çıxılmaz vəziyyətə gətirib. Üstəlik, Ermənistanın son zamanlar Azərbaycanın işğal olunmuş ərazilərində gücləndirdiyi hərbi əməliyyatlar və qanunsuz fəaliyyətlər, Ermənistan rəsmilərinin "Ermənistanın geri dönməyəcəyini" və ya "heç bir ərazinin Azərbaycana qaytarılması üçün danışıqlar aparmayacağını" açıqlaması ilə müşayiət olunur. Ermənistanın bu yaxınlarda elan etdiyi Milli Təhlükəsizlik Strategiyasında "müharibənin nəticələrini qorumaq" ifadəsi Ermənistanın danışıqlar prosesindəki strategiyasını əks etdirir. Ermənistanın müdafiə naziri də öz növbəsində Azərbaycanı "yeni ərazilər üçün yeni müharibə" ilə təhdid edib. Bu aqressiv ritorikaya tam uyğun olaraq və beynəlxalq ictimaiyyətin susqunluğundan və cəzasızlığından ruhlanan Ermənistan bu iyul ayında Tovuz hərbi təxribatını törətdiyi kimi, sentyabrın 27-də Azərbaycana qarşı başqa bir hərbi təcavüz aktına başladı. Azərbaycan Ermənistanın təcavüzünü dəf etmək və Azərbaycan mülki şəxslərinin təhlükəsizliyini təmin etmək üçün öz ərazisi daxilində və beynəlxalq humanitar hüquqa tam uyğun olaraq BMT Nizamnaməsinə əsasən, özünümüdafiə hüququndan istifadə edərək qanuni əks-hücum əməliyyatına başlamağa məcbur oldu.

Azərbaycan tərəfdən muzdluların döyüşməsi barədə iddialara aydınlıq gətirən səfir vurğulayıb ki, bu ittihamların arxasında Ermənistanın dayanması şübhəsizdir. Azərbaycanın erməni təcavüzünə cavab verməyə və öz ərazi bütövlüyünü təmin etməyə qadir olan güclü Ordusu var. Kifayət qədər insan resursu və ehtiyat hərbçilərə malik olan Azərbaycanın xaricdən heç bir döyüşçüyə ehtiyacı yoxdur. Bu uydurma Ermənistan tərəfindən hazırlanıb və bu yaxınlarda Yaxın Şərqdən terrorçu təşkilatların üzvlərini Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirməsinə dair xəbərlərə ört-basdır etməyə, eləcə də mənfi beynəlxalq mövqeni kompensasiya etməyə hesablanıb.

Vəziyyətin sabitləşməsi üçün hansı addımların atılmasının tələb olunduğuna dair suala cavab verən V.Sadıqov qeyd edib ki, Ermənistan ordusunun Azərbaycan ərazilərində mövcudluğu münaqişə regionunda sabitliyi pozan əsas amildir. BMT-nin qətnamələrində qeyd edildiyi kimi Ermənistan ordusunun işğal olunmuş əraziləri dərhal, tam və qeyd-şərtsiz tərk etməsi regionda davamlı sülhün bərqərar olması üçün yeganə həll yoldur. Azərbaycan təxminən 30 il ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlar prosesinə sadiqlik nümayiş etdirib və ümid edib ki, Ermənistan rəhbərliyi müdriklik göstərərək münaqişənin həllinin BMT qətnamələrinə uyğun şəkildə dinc yolla həllinə alternativ olmadığını dərk edəcəkdir. Lakin təəssüf ki, Ermənistanın hərbi-siyasi rəhbərliyinin məsuliyyətsiz çıxışları və hərbi təxribatları danışıqlar prosesini tamamilə pozub və Azərbaycan tərəfi Ermənistanın bu məsuliyyətsiz davranışına daha 30 il dözmək fikrində deyil.

O vurğulayıb ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü və beynəlxalq sərhədləri çərçivəsindəki suverenliyini qəbul etməli, öz hərbi birləşmələrini Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarması üçün vaxt planı təqdim etməlidir. Bu, münaqişə bölgəsində hərbi qarşıdurmanı dayandırmaq üçün yeganə şərtdir.

Müsahibənin yekununda jurnalist BMT-nin münaqişənin nizamlanmasında oynaya biləcəyi rola dair sual da verib. V.Sadıqov bildirib ki, BMT tərəfindən hələ 1993-cü ildə qəbul olunan 4 qətnamədə Ermənistan ordusunun Dağlıq Qarabağ və ətrafındakı 7 rayondan dərhal, tam və qeyd-şərtsiz çıxarılması əksini tapıb. Hazırkı şərtlər altında BMT-nin göstərə biləcəyi ən yaxşı fəaliyyət Ermənistanı həmin qətnamələrə əməl etməyə və özünün beynəlxalq hüquqla daşıdığı öhdəlikləri yerinə yetirməyə məcbur etməkdir.

# 80 yaşlı babanın orduya dəstəyi

**Qarabağın azadlığı uğrunda başlanan Vətən müharibəsi bütün təntənəsi ilə davam edir. Şanlı Ordumuz yağı düşmənə sarsıdıcı zərbələr endirir, canlı qüvvəsini və hərbi texnikasını sıradan çıxarır.**

Öndə döyüşən Milli Ordumuz, arxada isə xalqımız düşmənə qalib gəlmək üçün qüvvəsini səfərbər edib. Bu gün sözün əsl mənasında "hər şey cəbhə üçün, hər şey qələbə üçün"dür. Hər kəs bu günlər döyüşən ordumuza dəstək üçün əlindən gələni əsirgəmir, hətta imkansızlarımız da belə

Əlbəttə, Azərbaycan dövləti öz ordusunun bütün zəruri ehtiyaclarını ödəyir. Əlavə heç nəyə ciddi ehtiyac yoxdur. Bununla yanaşı, ötən gün sosial şəbəkələrdə yayılan bir xəbər çoxlarının diqqətini çəkdi. Üst-başından yoxsul görünən,



ömrünün ixtiyar çağlarını yaşayan ağsaqqal "ASAN xidmət"ə gələrək, "ay bala, cəbhədəki əsgərlərimizə yardım etməyə gəlmişəm, 180 manat pulum var, bunu onlara göndərmək istəyirəm",-deməsi hər kəsi şoka salıb: heyrətlə bu ağsaqqala baxıblar. Müdrik qoca soruşub: "Azdır, eləmi?" Deyiblər ki, yox, dünyalar qədərdir. O, 180 manatı Silahlı Qüvvələrə Dəstək Fonduna köçürdükdən sonra "Əsgərə məktub" da yazıb.

Məlum olub ki, Hikmət baba Şəkinin Baş Küngüt kəndindəndir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları Şəkiyə gedərək vətənpərvər ağsaqqalla görüşüblər. Hikmət baba bildirib ki, o, bu pulu ordumuza dəstək məqsədilə verib. Ömrünün ixtiyar çağlarında olsa da, özünün də ön cəbhəyə getmək istəyi, sözün əsl mənasında, Vətənə sevginin bariz nümunəsidir.

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

# Niderlandın iki ermənipərəst partiyasının Azərbaycan əleyhinə qətnamə qəbul etmək istəyi puça çıxıb

Oktyabrın 7-də Niderland Parlamentinin antimiqrant, antimüsəlman və antitürk mövqeyində olan və Ermənistan maraqlarını dəstəkləyən 2 partiya tərəfindən ("Xristian Demokratik Çağırış" partiyasının nümayəndəsi Martin van Helvert və "Xristian İttifaqı" partiyasının nümayəndəsi Joel Voordevind) Azərbaycanın işğal olunmuş ərazilərində gedən son hərbi əməliyyatlar ilə əlaqədar ölkəmizin əleyhinə qətnamələrin qəbulu təşəbbüsü ilə çıxış ediblər.

İrəli sürülmüş layihədə Azərbaycanın dövlət və hökumət rəhbərliyi, Niderland-Azərbaycan iqtisadi əməkdaşlıq əleyhinə sanksiyanın tətbiqi, o cümlədən Azərbaycana, guya, Yaxın Şərq ölkələrindən gəlmiş döyüşçülərin iştirakı ilə bağlı araşdırmanın aparılması və Azərbaycan tərəfindən atəşkəsin bərpa edilməsi tələbi ilə çıxış edən deputatların təklifləri yer almışdır.

AZƏRTAC xəbər verir ki, məsələ ilə bağlı Azərbaycan Respublikasının Niderland Krallığındakı səfirliyi tərəfindən milliyyətçi və irqçi mövqeyi ilə seçilən bu kimi deputatlara etiraz məktubları göndərilib və Azərbaycanın 30 ilə yaxın təcavüzə məruz qaldığı bildirilib. Eyni zamanda Azərbaycan icması vasitəsilə parlamentə qarşı etiraz kampaniyası təşkil edilib. Nəticədə qəbul olunmuş ümumi qətnamədə Azərbaycanın əleyhinə hər hansı bir sanksiya tətbiq edilməyib.

Əlavə olaraq bu kimi qətnamələrin qəbul edilməməsində əslən türkiyəli Niderland vətəndaşı, "Denk" partiyasından olan deputat Tunahan Kuzunun xüsusi rolu olub. Belə ki, parlamentdə haqlı və ədalətli mövqe tutan T.Kuzu Ermənistanın Azərbaycanın ərazisini işğal etdiyini və bu barədə BMT TŞ-nin 4 qətnaməsinin olduğunu bildirib, Ermənistanın işğal olunmuş ərazilərdən çıxarılmasını tələb edib və bu mövqe parlamentin son qərarına öz töhfəsini verib.

# Beynəlxalq aləm

## Tarixdə ilk dəfə iki qadın kimya üzrə Nobel mükafatı aldı



2020-ci il kimya üzrə Nobel mükafatının laureatları bəlli olmuşdur. Mükafatı "genetik qayçı" yaratdığına görə amerikalı Cenifer Dudna və fransalı Emmanuel Şarpantye almışlar. Bu barədə İsveç Kral Elmlər Akademiyasının baş katibi Qoran Hansson məlumat vermişdir.

Tarixdə ilk dəfə mükafat iki qadına təqdim olunmuşdur.

Bundan əvvəl amerikalı alimlər Çarlz Rays və Harvi Olter, habelə britaniyalı Maykl Houton C hepatiti virusunu açdığına görə tibb üzrə Nobel mükafatı almışlar. Fizika üzrə qara dəliyin öyrənilməsinə görə britaniyalı Rocer Penrouz (o, mükafatın yarısını alacaq) və qalaktikanın mərkəzində supermassiv kompakt obyekti aşkar etdiyinə görə amerikalı alimlər Raynhard Gentsel və Andre Gez Nobel mükafatına layiq görülmüşlər.

Bu gün ədəbiyyat üzrə mükafatın laureatları, sabah isə Nobel sülh mükafatının laureatı bəlli olacaqlar.

Oktyabrın 12-də İsveç Bankı iqtisadi elmlər sahəsində Nobel mükafatının laureatının adını açıqlayacaq.

## BMT misirli müxalifətçilərin edamını pislədi



Misir hakimiyyət orqanlarının terrorçuluq, zorakılıq və qətllərə təhrikdə ittiham etdiyi müxalifətçilər işgəncəyə məruz qalmış və ədalətsiz məhkəmə çəkişməsi ilə üzləşmişdir. Bu barədə "Anadolu" Agentliyinə məlumat verən BMT-nin İnsan Hüquqları İdarəsinin mətbuat katibi Liz Trossell Prezident Əbdülfəttah Sisi rejiminin 15 əleyhdarının edam olunmasını pisləmişdir.

Trossell istisna etməmişdir ki, ölüm cəzası ötən ayın 19-dan Misirin müxtəlif şəhərlərində keçirilən etiraz aksiyalarının iştirakçılarına dərs vermək və onları qorxutmaq üçün icra olunmuşdur. Mətbuat katibinin dediyinə görə, ölüm hökmünün çıxarılması ən ağır cinayətlərin, məsələn, qəsdən qətl törədilməsi kimi cinayətlərin mövcudluğunu nəzərdə tutur. Lakin hətta bu hallarda da edam məcburi deyil.

## Liviya ƏDL-də sədrlikdən imtina etdi



Liviya Ərəb Dövlətləri Liqasında (ƏDL) sədrlikdən imtina etmişdir. Bu barədə TASS Agentliyi xəbər verir.

Liviya Xarici İşlər Nazirliyinin nümayəndəsi Məhəmməd Qəblavi bildirmişdir ki, "Liviya hazırkı şəraitdə ƏDL-in sessiyasına başçılıq edə bilməz". O, əlavə etmişdir ki, "gələcəkdə təşkilatda sədrlik hüququmuzu özümüzdə saxlayırıq".

Xatırladaq ki, bundan əvvəl Fələstin və Qətər regional təşkilatda sədrlikdən imtina etmişdir.

## Suriyada terror aktı



Suriyanın şimalında yerləşən Bab şəhərində baş vermiş terror aktı nəticəsində 14 dinc sakin həlak olmuş, 50 nəfər yaralanmışdır. Bu barədə "Anadolu" Agentliyi xəbər verir.

Məlumata görə, terrorçular "Fərat qalxanı" əməliyyatı çərçivəsində ekstremistlərdən təmizlənmiş şəhərin məhəllələrinin birində minalanmış yük avtomobili partlatmışlar. Ölənlər arasında qadınlar və uşaqlar da var. Yaxınlıqdakı tikililərə ciddi zərər dəymişdir.

Xatırladaq ki, üç gün əvvəl Bab şəhərində iki dinc sakin terror aktının qurbanı olmuş, yeddi nəfər yaralanmışdır. Suriyanın adıçəkilən rayonunda terror aktlarını əsasən PKK terrorçu təşkilatının bu ölkədəki qanadı - YPG həyata keçirir.

## Vaşinqton Rusiyanı ABŞ-ın kibertəhlükəsizliyinə əsas təhdid sayır

ABŞ Daxili Təhlükəsizlik Nazirliyi Rusiyanı ölkənin kibertəhlükəsizliyinə əsas təhdid və başlıca dezinformasiya mənbəyi hesab edir. Bu fikir nazirliyin "Milli təhlükənin qiymətləndirilməsi 2020" hesabatında yer alır.

Hesabat müəlliflərinin fikrincə, xarici təsir ABŞ-ın xarici və daxili siyasətinə, COVID-19 kimi beynəlxalq hadisələrə, habelə 2020-ci il prezident seçkilərinə yönəlmişdir. Qeyd olunur ki, Moskvanın



kiberhücumlar vasitəsilə ABŞ-ın son dərəcə vacib infrastruktur şəbəkələrini pozmaq, yaxud zədələmək, habelə Amerika sənayesinə və hökumətin bütün səviyyələrinə təsir göstərməyə cəhd etmək imkanı var.

Nazirlik Rusiyadan əlavə, Çin, İran və KXDR-i kibertəhlükə mənbəyi hesab edir. Məsələn, Çin iqtisadi casusluqda və kiberhücumları hazırlamaqda ittiham olunur.


## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi
### *açıq tenderə dəvət edir*

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi üçün fotoaparatın satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı : LOT üzrə 100 (bir yüz) manat**
**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir Hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT IBAZAZ2X**
**H/hesabı: AZ59IBAZ38090019446221732216**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin originalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin originalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa notarial təsdiq edilməsi mütləqdir);*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **28.10.2020-ci il saat 16:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **05.11.2020-ci il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **06.11.2020-ci il saat 16:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***



## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi
### *açıq tenderə dəvət edir*

- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi üçün anbar sahəsinin icarəsi xidmətinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını "ASAN Ödəniş" sistemi vasitəsilə köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (01.09.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur);*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (01.09.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovunun olmaması, məhkəmənin qərarı ilə fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **28.10.2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **05.11.2020-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **06.11.2020-ci il saat 15:00-da** açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***



## "Azərsu" ASC daxili vəsaiti hesabına
### *açıq tender elan edir*

Elektron satınalma vasitəsilə təmir işləri üçün zəruri olan ehtiyat hissələrinin satın alınması

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə oxşar işlərin yerinə yetirilməsi və həcmi üzrə icra edilmiş müqavilələr və ən aşağı qiymət təklifi.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tender təklifini dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 200 manatdır.**

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 45 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 75 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 02 noyabr 2020-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə 11 noyabr 2020-ci il saat 18:00-a qədər dövlət satınalmalarının vahid internet portalı vasitəsi ilə təqdim etməlidirlər. Elektron satınalmanın açılışı 12 noyabr 2020-ci il saat 18:00-da dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***


# Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz iqtisadi fəaliyyətlə məşğul olan 166 hüquqi şəxslə bağlı 35 dövlətə hüquqi tapşırıqlar göndərilib

Azərbaycan Respublikasının Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərində qanunsuz iqtisadi və digər fəaliyyətlə məşğul olan şəxslərə qarşı kəsərli cinayət-hüquqi tədbirlərin tətbiqi Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən daim nəzarətdə saxlanılmaqla davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, işğal olunmuş ərazilərimizdə qeyri-qanuni hasilat işləri ilə məşğul olan, o cümlədən qızıl və digər metal filiz yataqlarını istismar edən, eləcə də nərə balığı və qara kürü, elektrik enerjisi istehsalı, qanunsuz saat satışı, bankçılıq fəaliyyəti ilə məşğul olan şirkətlər müəyyənləşdirilərək barələrində məhkəmə qərarı əsasında vergi yoxlamasının keçirilməsi təmin olunub. Vergi yoxlamalarının nəticələri və məhkəmə-mühasibatlıq ekspertizasının rəyinə əsasən, ümumilikdə 6 şirkətin 306 milyon 821 min manat məbləğində külli miqdarda gəlir əldə etməklə qanunsuz sahibkarlıq fəaliyyətini həyata keçirməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Həmin cinayət işləri üzrə axtarışda olan 12 şəxsin tutularaq Azərbaycan Respublikasına ekstradisiyalarına nail olunması istiqamətində zəruri istintaq və əməliyyat-axtarış tədbirləri yerinə yetirilib. Bundan başqa, bir qrup şəxsin Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində 2002-ci ildən etibarən gəlmələrinə, Azıx mağarasında arxeoloji qazıntı işləri apararaq, tarixi, elmi və mədəni dəyəri olan əşyaları talamaları və digər qanunsuz hərəkətlərə yol vermələrinə şübhələr üçün əsaslar müəyyən edilib. Onlar cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində həbs qətimkan tədbiri seçilməklə beynəlxalq və dövlətlərarası axtarışa veriliblər. Qanunsuz iqtisadi fəaliyyətlə məşğul olan 166 hüquqi şəxslə bağlı 35 dövlətə hüquqi tapşırıqlar göndərilib.

Həmçinin prokurorluq orqanlarında Dağlıq Qarabağ və ətraf rayonlara qanunsuz səfərlər etmiş şəxslər barədə cinayət işləri istintaq olunur. Azərbaycan Respublikasının Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərində qanunsuz iqtisadi və digər fəaliyyətlə məşğul olan fiziki və hüquqi şəxslər barəsində Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən beynəlxalq hüquq normaları çərçivəsində kəsərli tədbirlər görüləcək.

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Əsaslı Tikinti və Təchizat İdarəsi respublika ərazisində modul tipli məktəblərin quraşdırılması işlərinin təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 19 oktyabr 2020-ci il saat 18:00-a kimi qəbul olunur.

Zərflərin açılışı 20 oktyabr 2020-ci il saat 15:00-da Bakı şəhəri, Y.Bakuvi küçəsi,18 ünvanında, Təhsil Nazirliyinin Əsaslı Tikinti və Təchizat İdarəsinin akt zalında keçiriləcəkdir.

**Əlaqələndirici şəxs: Sirac Əliyev (012) 465-73-48 (daxili: 110).**

*Tender komissiyası*

## Şamaxı Rayon İcra Hakimiyyəti
## Zəlzələdən zərər çəkmiş 378 evin təmiri işlərinin təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar **+99420 265 12 00** telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 12.10.2020-ci il saat 17:00-dək qəbul olunur.

**Ünvan: AZ-5600, Şamaxı şəhəri, H.Əliyev küç., 27**

*Tender komissiyası*

## BİLDİRİŞ
### "Bakı Toxucu" QSC-nin səhmdarlarının nəzərinə!

21 noyabr 2020-ci il saat 12:00-da "Bakı Toxucu" QSC səhmdarlarının illik Ümumi Yığıncağı keçiriləcəkdir.
Gündəlikdəki məsələlər:

- *səhmdar cəmiyyətin 2019-cu il üzrə maliyyə məsələlərinin müzakirəsi;*
- *digər məsələlər.*

**Ünvan: Bakı şəhəri, Bülbülə qəsəbəsi, S.Bəhlulzadə küçəsi, 47**
**Telefon: (012) 458-14-21**

*İdarə Heyəti*

## BİLDİRİŞ

Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin ümumi istifadəsində olan nəqliyyat vasitələrinin yuyulması işləri üzrə keçirilmiş kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Kotirovka sorğusunun nəticələri haqqında Tender komissiyasının 01 oktyabr 2020-ci il tarixli qərarına əsasən, fiziki şəxs Məmmədov Elmar İmran oğlu qalib elan edilmişdir.

Həmin şəxslə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu təbii dibçək güllərinin (həmişəyaşıl otaq bitkilərinin) və plastik dibçəklərin satın alınması üçün *kotirovka sorğusu elan edir*

Təkliflər 12 oktyabr 2020-ci il saat 11:00-a qədər Bakı şəhəri, H. Zərdabi prospekti, 80 ünvanına, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Aparatına təqdim olunmalıdır.

Zərflər 12 oktyabr 2020-ci il saat 14:00-da H.Zərdabi prospekti, 80 ünvanında Nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Aparatının inzibati binasında açılacaqdır. Əlavə məlumatı tender komissiyasından ala bilərsiniz.

**Əlaqə telefonu: 012-530-29-03**

*Tender komissiyası*

## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən 01.09.2020-ci il tarixdə **etender.gov.az** saytında və "Azərbaycan" qəzetinin 02.09.2020-ci il tarixli nömrəsində Daxili məhkəmə proseslərinin mərkəzləşdirilmiş vahid elektron uçotunun və idarəetmə sisteminin qurulması işlərinin satın alınması üzrə elan edilmiş açıq tenderə, tender təklifi verən malgöndərənlərin sayı qanunvericiliklə müəyyən edilmiş saydan az olduğu üçün baş tutmamış hesab olunur və onun davamından imtina edilir.

*Tender komissiyası*

## Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Gəncə Regional Mədəniyyət İdarəsi
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir.

LOT - 1. Dəftərxana və təsərrüfat mallarının satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **www.etender.gov.az** öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalına elektron imzaları vasitəsilə daxil olaraq tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı LOT üzrə 100 (bir yüz) manat**

**H/h: AZ48CTRE00000000000002170602**
**VÖEN: 2300144211**
**Bank: DÖVLƏT XƏZİNƏDARLIQ AGENTLİYİ**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T: CTREAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
- *tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (zərflərin açıldığı tarixdən azı 60 (altmış) bank günü çox olmalıdır);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar (23 sentyabr 2020-ci il tarixdən sonra alınmalıdır);*
- *iddiaçının mikro, kiçik və orta sahibkarlıq subyektinə aid edilməsi barədə müvafiq dövlət orqanından arayış;*
- *iddiaçıların son üç ildə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədiyinə görə məhkəmə araşdırmalarına cəlb olunub-olunmaması barədə arayış.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **27 oktyabr 2020-ci il saat 13:00-a** qədər və tender təklifi və bank təminatı sənədlərini **04 noyabr 2020-ci il saat 13:00-a** qədər Portal vasitəsilə təqdim edilməlidir.

İddiaçıların təklifləri **05 noyabr 2020-ci il saat 13:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

*Tender komissiyası*

## "Azərsu" Açıq Səhmdar Cəmiyyəti
## *açıq tender elan edir*

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 1752 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 02 iyul tarixli 2138 nömrəli Sərəncamının icrası məqsədilə "Ceyranbatan gölünün şimal-şərq hissəsində (Saray qəsəbəsi istiqamətində) yağış və tullantı sularının idarə olunması sisteminin yaradılması (I mərhələ)" işlərinin satın alınması

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Təchizat və satınalmaların idarə olunması departamentindən (Əlaqələndirici şəxs: Tağıyev İlqar Rauf oğlu, telefon: + 99 412 431-47-67/87 - daxili 1033, E-mail: **i.tagiyev@azersu.az** və Novruzov İntizam Cəmil oğlu, telefon: + 99 412 431-47-67/87 - daxili 3019, E-mail: **intizam.novruzov@azersu.az**) ala bilərlər.

**Tenderdə iştirak haqqı: 500 (beş yüz) AZN**

**"Azərsu" Açıq Səhmdar Cəmiyyəti**
**VÖEN: 9900001751**
**Bank: "Kapitalbank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kodu: 200112**
**VÖEN: 9900003611**
**Yerli valyutada hesab nömrəsi: AZ65AIIB33070019441100216111**
**Xarici valyutada hesab nömrəsi: AZ55AIIB33170018401100216111**
**M/h: AZ37NABZ01350100000000001944**
**SWIFT AIIBAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı ilkin uyğunluq sənədlərini təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra 30 bank günü ərzində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanının arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti;*
- *iddiaçının son 3 ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (ən azı 12 milyon manat dövriyyə tələb olunur);*
- *iddiaçının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi rekvizitləri;*
- *iddiaçının işçi heyəti, avadanlığı və texnikası barədə məlumat;*
- *Azərbaycan Respublikası dövlət standartlarına uyğun olaraq İ və İİ məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üzrə verilmiş xüsusi razılıq (lisenziya) və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **12 noyabr 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **23 noyabr 2020-ci il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İştirakçıların təklifləri Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətində **24 noyabr 2020-ci il saat 16:00-da** açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

*Tender komissiyası*

## BİLDİRİŞ

Şamaxı Rayon İcra Hakimiyyəti tərəfindən "Azərbaycan" qəzetinin 26.09.2020-ci il tarixli sayında elan olunmuş Şamaxı rayonunda zəlzələdən zərər çəkmiş 378 evin təmiri ilə bağlı təkliflər sorğusu yetərsay olmadığı üçün ləğv edilir.

*Tender komissiyası*

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 16 oktyabr 2020-ci il saat 15:00-da keçirilməsi nəzərdə tutulan "Bakı Metropoliteni" QSC üçün yaxma və yapışdırıcı malların satın alınması üzrə açıq tenderin vaxtı 02 noyabr 2020-ci il saat 15:00-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 22 oktyabr 2020-ci il saat 15:00-a qədər, tender təklifi və bank təminatını isə 30 oktyabr 2020-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

*Tender komissiyası*

# Azərbaycanda koronavirus infeksiyasından daha 145 nəfər sağalıb, 182 yoluxma faktı qeydə alınıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 145 nəfər sağalıb, 182 yeni yoluxma faktı qeydə alınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 41 min 113 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 38 min 858 nəfər müalicə olunaraq sağalıb, 602 nəfər vəfat edib. Aktiv xəstə sayı 1653 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 150 min 658 test aparılıb. Dünənki test sayı isə 5261-dir.




## ALLAH RƏHMƏT ELƏSİN!

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanova qardaşı

**MURAD İMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanova qardaşı

**MURAD İMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sumqayıtdan Zakir Fərəcov Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanova qardaşı

**MURAD İMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7460
Sifariş 2343
Qiyməti 40 qəpik